# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

e-ISSN: 2789-6919

AEM

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.864**

**Cild: 3  Sayı: 4**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.864**

**Volume: 3  Issue: 4**

**Bakı – Baku**
**2023**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
01.03.2021.
Registration № 4336

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**E-mail:**
tedqiqat1707@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

### Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

### Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

### Redaktor

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
m_ilham63@mail.ru

### Editor

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
m_ilham63@mail.ru

### Redaktor köməkçisi

**Magistrant Aytən MƏCNUNLU**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
aytanmacnunzade@gmail.com

### Assistant editor

**Master Aytan MAJNUNLU**, Azerbaijan Science Center / Azerbaijan
aytanmacnunzade@gmail.com

### Dillər üzrə redaktorlar

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan

### Language editors

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan

### Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Tərxan CƏBRAYILOV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

## Editors in scientific fields

**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYINOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Afarin ABBASOVA**, Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shafag ABDULLAYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tarkhan JABRAYILOV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Institute of Zoology of ANAS / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elza MOLLAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerikan Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

### Təbiət elmləri

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərid NAĞIYEV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna

### Dəqiq elmlər

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

### Texnika elmləri

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Mövlud HÜSEYNOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan

## EDITORIAL BOARD

### Humanities and social sciences

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N. Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin GULUSOY**, Kafkas University / Turkey
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

## Natural sciences

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duyghu KILICH**, Amasya University / Turkey
**Prof. Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGHAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Farid NAGHIYEV,** Baku State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine

## Exact sciences

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal Institute of Technology / Sweden

## Technical sciences

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Movlud HUSEYNOV,** Azerbaijan State University of Economics / Azerbaijan

**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**

**HUMANITIES AND SOCIAL SCIENCES**

DOI: https://doi.org/10.36719/2789-6919/20/7-9

**Raibə Cəfərova**
Azərbaycan Dövlət Aqrar Universiteti
iqtisad üzrə fəlsəfə doktoru
raibacafarova@mail.ru

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ENERGETİKASI

**Xülasə**

Ümummilli lider ölkə başçısı olana kimi respublika iqtisadiyyatı böhran vəziyyətində idi. İqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı idi. H.Əliyev qısa müddətdə respublika iqtisadiyyatında ciddi keyfiyyət dəyişikliklərinə nail oldu. Yeni neft strategiyası milli dövlətçiliyin möhkəmləndirilməsində həlledici rol oynadı. Səmərəli və yorulmaz fəaliyyət Respublikamızın sağlam imicinin yüksəldilməsinə xidmət edir. Cənab İlham Əliyev Azərbaycan iqtisadiyyatının sabit inkişaf tempini qoruyub saxlamağa nail olmuşdur. Eyni zamanda, ölkənin daha dinamik inkişafına diqqət yetirir.

***Açar sözlər:*** *texnika, texnologiya, enerji, neft, yaşıl enerji, strategiya*

**Raiba Jafarova**
Azerbaijan State Agrarian University
Doctor of Philosophy in Economics
raibacafarova@mail.ru

## National leader Haydar Aliyev and energy of Azerbaijan

**Abstract**

Before the national leader became the head of the country, the economy of the republic was in a state of crisis. Radical structural changes had to be made in the economy. H.Aliyev achieved serious qualitative changes in the republic's economy in a short period of time. The new oil strategy played a decisive role in strengthening national statehood. Effective and tireless activity serves to improve the healthy image of our Republic. Mr. Ilham Aliyev has managed to maintain the stable pace of development of Azerbaijan's economy. At the same time, it pays attention to the more dynamic development of the country.

***Keywords:*** *technique, technology, energy, oil, green energy, strategy*

## Giriş

H.Əliyev ölkə başçısı olan dövrə qədər respublikada durğunluq hökm sürürdü. Ölkə böhran mərhələsində idi. Ağır şəraitdən çıxış yolu tapılmalı idi. Ulu öndər bu zəruri tələbləri düzgün dəyərləndirdi. O, qısa müddətdə respublika iqtisadiyyatında ciddi keyfiyyət dəyişikliklərinə nail oldu.

Ümummilli liderimiz Heydər Əliyev ölkə başçısı olan dövrə qədər respublikada gərgin bir vəziyyət hökm sürürdü. Sosial-iqtisadi sahədə durğunluq özünü göstərirdi. Respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsində idi. Bu zaman belə ağır şəraitdən çıxış yolu tapılmalı, iqtisadi inkişafın təmin edilməsi üçün əhəmiyyətli proqramlar hazırlanmalı idi. Ölkə iqtisadiyyatında köklü struktur dəyişiklikləri aparılmalı idi. Heydər Əliyev bu zəruri tələbləri düzgün dəyərləndirmişdi və iqtisadiyyatda ciddi keyfiyyət dəyişikliklərinə nail oldu. O, ölkəni qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirə bildi. Heydər

Əliyev respublikanı tərəqqi yoluna çıxararaq mühüm tədbirlər reallaşdırdı. Müstəqil dövlətimizin yeni dövrü Heydər Əliyev 1993-cü ildə Azərbaycan rəhbərliyinə yenidən qayıdandan sonra başladı. Müasir Azərbaycan tarixinin parlaq səhifələri Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi altında ölkəmiz elə bir dirçəliş yolu keçmişdir ki, dünyanın bir cox ölkələrində bundan ötrü bəlkə də əsrlər lazım gələrdi. Yəni güclü sənaye potensialı yaradıldı, çoxlu sayda infrastruktur və sosial obyektlər yaradıldı, aqrar sektor inkişaf etməyə başladı, energetika sistemi yenidən quruldu. Azərbaycan həmişə dünyada neft ölkəsi kimi tanınıb. Lakin ölkəmiz bu təbii sərvətdən lazımınca bəhrələnməmişdi. H. Əliyevin rəhbərliyə gəlişindən sonra xalq öz "qara qızıl"ından bəhrələndi. Bu hüququ əldə etdi. Bu da ölkənin gələcək inkişafı üçün etibarlı iqtisadi zəmin yaratdı.

Ulu öndər müstəqil Azərbaycanın yeni neft strategiyasının müəllifi kimi onun reallaşmasını təmin etmişdir. Enerji ilə təminat və enerji ilə silahlanma səviyyəsinin artması əmək məhsuldarlığının artmasına şərait yaradır (Abbasov, 2017: 200). Azərbaycanda zəngin təbii sərvətlərin olması respublikada iqtisadi təhlükəsizliyin mümkün həllinə imkan verir ki, nəticədə də iqtisadi stabilliyin yaranması imkanları genişlənir (Mustafayeva, Abbasova, Cəfərova, 2019: 245). Enerji sisteminin potensialını daha da artırmaq məqsədilə Heydər Əliyev SSRİ rəhbərliyi qarşısında Zaqafqaziyada ən böyük elektrik stansiyasının tikilməsi məsələsini qaldırdı. Bunlar Heydər Əliyevin fenomenal uzaqgörənliyinin, bacarığının, şəxsi əzmkarlığının, Vətənə və dövlətə böyük sevgisinin sayəsində mümkün olaraq reallığa çevrildi. 1994-cü il sentyabrın 20-də Heydər Əliyevin fövqəladə uzaqgörənliyi, qətiyyətli addımları və mətin iradəsi sayəsində "Əsrin müqaviləsi" imzalandı. Ulu öndərin müstəqil dövlət quruculuğu konsepsiyasının strateji istiqamətlərindən biri bu müqavilənin imzalanması idi. Yeni neft strategiyası həqiqətən müasir Azərbaycanın taleyində, milli dövlətçiliyin möhkəmləndirilməsində həlledici rol oynadı. Bu neft strategiyası XXI əsrin əvvəlində Azərbaycan iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu.

"Əsrin müqaviləsi"nin Ulu Öndərin yeni neft strategiyasının birinci şah əsəri olduğunu vurğulayan Xoşbəxt Yusifzadə Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində reallaşdırılan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan neftinin Avropa və dünya bazarlarına birbaşa nəqlinə imkan yaratdığını, həmçinin Xəzəryanı ölkələr arasında iqtisadi və qarşılıqlı faydalı münasibətlərin genişlənməsinə böyük töhfələr verdiyini qeyd edib (Heydər Əliyev ili, 2023: 11). Azərbaycan Respublikasının potensial imkanları dünyaya bütün imkanları ilə aydın oldu. Azərbaycanla 19 ölkənin 41 neft şirkəti arasında 26 sazişin imzalanması bu gərgin fəaliyyətin məntiqi nəticəsi oldu. Bu neft kəməri Heydər Əliyevin nadir dühasının və siyasi iradəsinin təntənəsidir. Bu səbəbdən layihə iştirakçıları tərəfindən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi qərara alındı. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi və "Şahdəniz" yatağından qazın hasilatı kimi iri layihələr də ümummilli liderimizin dövləti qarşısında böyük xidmətlərindəndir.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsi nəticəsində ilk gəlirlər əldə edilməyə başlayanda qarşıda duran vacib məsələlərdən biri də bu gəlirdən necə səmərəli istifadə olunması ilə bağlı idi. Məhz belə bir etibarlı mexanizmin yaradılması məqsədilə Heydər Əliyev 29 dekabr 1999-cu il tarixli fərmanı ilə Dövlət Neft Fondunu yaratdı. Fondun əsas vəzifəsi Azərbaycan Respublikası vətəndaşlarının bugünkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi sahəsində bağlanan sazişlərin həyata keçirilməsindən əldə olunan vəsaitin idarə olunmasını təmin etməkdən ibarətdir. Buraya böyük həcmdə valyuta gəlirləri daxil olur. Ötən müddət ərzində Dövlət Neft Fondu xalqımızın milli sərvəti olan neft gəlirlərinin idarə olunması sahəsində uğurlu mexanizm kimi özünü doğrultdu. Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradılandan sonra bir sıra tədbirləri intensiv həyata keçirdi. Bu tədbirlərdən yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi, qeyri-neft sektorunun, regionların, kiçik və orta sahibkarlığın və infrastruktur sahələrinin inkişafını və s. göstərmək olar.

Neft strategiyasını Ulu öndər uzaqgörənliklə işləyib hazırladı və reallaşdırdı. Bu gün Prezident möhtərəm cənab İlham Əliyev tərəfindən yeni neft strategiyası məharətlə həyata keçirilir.

Bu gün Azərbaycan artıq 40-a yaxın beynəlxalq siyasi, iqtisadi, maliyyə-bank, mədəni, humanitar təşkilatın tamhüquqlu üzvüdür. Dünyanın 15 aparıcı dövləti və beynəlxalq təşkilatları ilə

əməkdaşlıq üzrə komissiyalar və işçi qrupları yaradılmışdır. 2003-cü ildən etibarən ölkəyə inamla rəhbərlik edən Heydər Əliyev idarəçilik məktəbinin layiqli yetirməsi cənab İlham Əliyev Azərbaycan iqtisadiyyatının sabit inkişaf tempini qoruyub saxlamaqla yanaşı, ölkənin daha dinamik inkişafına xüsusi diqqət yetirir. Strategiya bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə reallaşdırılır.

Ötən əsrin 90-cı illərinin əvvəlində ölkədə ildə 9 milyon yon neft hasil olunurdusa, 2010-cu ildə ən yüksək həddə 50 milyon tona çatmışdı. 2022-ci ildə Azərbaycanda 32,6 milyon ton neft istehsal olunub. 2024-cü və 2025-ci illərdə Azərbaycanda müvafiq olaraq 30,649 milyon və 30,695 milyon ton neft hasil olunacağı proqnozlaşdırılmışdır. Azərbaycan nefti dünya üzrə 1,1% xüsusi çəkiyə malikdir. Energetika Nazirliyində 22.03.2023-cü ildə keçirilmiş müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu öndər H. Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqil energetika siyasətinin müəllifidir" adlı tədbirdə energetika naziri P.Şahbazov çıxış edərək bildirib ki, "Azərbaycanın öz taleyinin sahibi, müstəqil dövlət kimi mövcud olması üçün bütün zəruri əsasları məhz Heydər Əliyev təmin etmişdir... Ümummilli lider müxtəlif ictimai-siyasi formasiyalarda müstəqilliyin açarını, əsasən, enerji təhlükəsizliyində, enerji asılılığından xilasda görürdü." Bu layihələrin hər biri ölkəmizin enerji təhlükəsizliyinin mühüm mənbəyidir.

Ənənəvi enerji mənbələrinin tədricən tükənməsini və onlardan istifadə zamanı ətraf mühitə vurulan külli miqdarda ziyanı nəzərə alaraq, dünyanın inkişaf etmiş ölkələrində ekoloji cəhətdən təmiz, alternativ (bərpa olunan) enerji mənbələrindən (günəş enerjisi, külək enerjisi, termal sular, biokütlə enerjisi) geniş istifadə olunur (Cəfərova, 2014:54). Azərbaycan müstəqil dövlət kimi son illər xarici ölkələrin təcrübəsindən istifadə etməyə çalışır (Məmmədov, 2019:248). Alternativ enerji mənbələrindən istifadəni genişləndirməklə dövlətimiz həm ətraf mühitin qorunmasına, həm də qiymətli yanacaq kimi neft və qaza qənaət etməyə, nail olur. Bərpaolunan enerji yaşıl enerjidir. Bu tükənməz enerji insanların ehtiyaclarına istifadə olunması məqsədi ilə əldə olunur. Bərpaedilən-yaşıl enerjinin bir neçə növü vardır: külək enerjisi, günəş enerjisi, hidroenergetika, geotermal energetika. 2030-cu il üçün isə bərpa olunan enerjinin ümumi enerji istehsalındakı payının 30 faizə çatdırılması hədəfə alınıb**.** Dünyada ənənəvi enerji mənbələrindən "yaşıl enerji"yə keçid müasir dövrün əsas hədəflərindən biridir. İşğaldan azad olunmuş ərazilərin "Yaşıl Enerji" Zonasına çevrilməsi ölkəmizin enerji siyasətində bir nömrəli prioritetdir.

## Nəticə

Ulu öndər ölkəmizin siyasi və iqtisadi müstəqilliyini vəhdətdə möhkəmləndirdi. "Əsrin müqaviləsi" beynəlxalq müqavilə kimi tarixə düşdü. Azərbaycan Respublikasının potensial imkanları dünyaya bütün imkanları ilə aydın oldu. Ulu Öndərin layiqli davamçısı kimi cənab İlham Əliyev tərəfindən yeni neft strategiyası məharətlə həyata keçirilir**.**"Yaşıl Enerji" ölkəmizin enerji siyasətində, enerji təhlükəsizliyində bir nömrəli prioritetdir.

## Ədəbiyyat

1. Abbasov, V. (2017). Aqrar iqtisadiyyat. Bakı: Ecoprint, 467 s.
2. Mustafayeva, R., Abbasova, Y., Cəfərova, R. (2019). İqtisad elminin müasir problemləri. Bakı: Ecoprint, 262 s.
3. "Heydər Əliyev ili" çərçivəsində Energetika Nazirliyinin tədbirinin materialları. (2023). Bakı, 22 fevral.
4. Cəfərova, R. (2014). Təbiətdən istifadənin iqtisadiyyatı. Gəncə: Rəbunə, 280 s.
5. Məmmədov, Z. (2019). Ətraf mühitin iqtisadiyyatı. Bakı: Ecoprint, 328 s.

Göndərildi: 01.02.2023 Qəbul edildi: 21.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/10-12

**Rəsul Teymurov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
resul.teymurov@internet.ru

# TEATR VƏ TAMAŞAÇI TƏNQİD SFERASINDA

**Xülasə**

Məhz bu baxımdan teatr tənqidindən tamaşaçıya – teatr prosesinin obyektinə ünvanlanan bir fenomen kimi danışmaq lazımdır. Bugünkü teatrşünaslığın rolu, mahiyyəti və problemləri bir çox teatrşünasların, tənqidçilərin məqalələrində açıqlanır. Amma onların arasında çox nadir hallarda teatr əsərini qiymətləndirmək, rəy yazmaq üçün meyarlar axtarmağa cəhd edilir. Görünür, bu, təkcə teatr tənqidində deyil, həm də bu gün teatrın mövcud olduğu reallıqda ciddi böhranın mövcudluğundan xəbər verir.

Bədii yaradıcılıq əsəri heç də həmişə mənəvi-estetik məzmun daşımır. Əgər teatra geniş mənada baxılırsa, bu, ya yeni obyektin, ya da mövcud obyektdə yeni bir xassə yaradılmasıdır. Onda bədii fəaliyyət həmişə bu və ya digər dərəcədə yaradıcılıq elementlərini ehtiva edir.

***Açar sözlər:*** *teatr, tənqid, tamaşaçı, auditoriyaya, mədəniyyət, incəsənət*

**Rasul Teymurov**
Azerbaijan State University of Culture and Arts
master student
resul.teymurov@internet.ru

## In the sphere of theatre and audience criticism

**Abstract**

It is from this point of view that it is necessary to talk about theater criticism as a phenomenon addressed to the audience – the object of the theater process. The role, essence and problems of today’s theater studies are explained in the articles of many theater scholars and critics. But among them, it is very rare to try to find criteria for evaluating a theater work and writing an opinion. It seems that this indicates the presence of a serious crisis not only in theater criticism, but also in the reality in which theater exists today. A work of artistic creativity does not always have a spiritual-aesthetic content. If theater is viewed in a broad sense, it is either the creation of a new object or a new property in an existing object. Therefore, artistic activity always contains creative elements to one degree or another.

***Keywords:*** *theatre, criticism, spectator,to the audience,culture, art*

## Giriş

Son zamanlar, sözün əsl mənasında, gözümüzün qabağında müasir cəmiyyətdə dəyərlər sistemində, əxlaqi göstərişlərdə, həyat prioritetlərində və məqsədlərində dəyişiklik baş verir. Cəmiyyət həyatının bütün sahələrinin bazar iqtisadiyyatına tabe olduğu indiki vəziyyət, pul qazanmaq zərurəti, mədəniyyət institutları “yaşamaq” vəziyyətindədir və bu, özü də istəmədən ona gətirib çıxarır ki, mənəvi mədəniyyətin özünün mahiyyəti, onun intellektual və estetik xassələri səviyələnir.

İstehlak cəmiyyəti “kütləvi cəmiyyət” hipostazlarından biri kimi mənəvi dəyərlərin zərərinə maddi dəyərlərin üstünlüyünə qərəzli münasibətə gətirib çıxarır. Bu, istər sahibkarlıq, istərsə də mədəniyyət olsun, bütün fəaliyyət sahələrinə təzyiq göstərən bazarın artan təsirini əvvəlcədən müəyyənləşdirir. Bazarın təbiəti elədir ki, istənilən sosial sahə kommersiya müəssisəsinə çevrilir, maddi qazanc əsas vəzifəyə çevrilir. Bu, isə müasir teatrdan yan keçmədi.

Bədii mədəniyyət subyektlərinin öz yaradıcılığına, xüsusən sənətə belə münasibəti və ictimai həyatın, bu sahəsinin düşdüyü vəziyyət, əlbəttə ki, teatrda nəzərə çarpır. Bizim üçün teatrın ikiqat transformasiyaya məruz qaldığı Rusiyanın timsalında xüsusilə aydın görünür. Bunlar struktur və yaradıcılıqdır. Əgər əvvəllər yalnız həvəskar və dövlət, stasionar teatrlar var idisə, ciddi şəkildə ayrılmış repertuar var idisə, bu gün özəl teatrlar, müəssisələr getdikcə daha çox peyda olur və müəyyən tamaşaların nümayişi ilə bağlı qərarı teatrın yaradıcısı verir. Pyesin seçimi isə heç də həmişə onun bədii dəyəri ilə bağlı olmur. Problemli vəziyyət onunla daha da ağırlaşır ki, daim yeni vasitələr və ifadə üsulları axtarışı, klassiklərin yenidən düşünməsində fərqlənmək cəhdləri və bununla da festival hərəkatı kimi təşkilati forma vasitəsilə dünya teatr ictimaiyyətinə daxil olmaq bütün bunlar tez-tez şübhəli dünyagörüşü yönləndirmələrinin yaranmasına, anlayışların əvəzlənməsinə, yaradıcılığın psevdo-mənəvi növlərinin yaranmasına gətirib çıxarır. Və bunun bir sıra səbəbləri var, təkcə peşəkar və iqtisadi deyil, həm də sosial və hətta siyasi reytinq və kassa naminə davamiyyəti artırmaq məqsədini güdür (1).

Bu xüsusilə təhlükəli hesab olunur, çünki teatr sənəti sahəsində bu cür təcrübələr müasir festival adlanan tendensiyalar tərəfindən təbliğ edilir və təsdiqlənir. Belə bir şəraitdə Azərbaycan xeyli sayda teatr tənqidçiləri festivalın mövqeyini tutaraq müasir teatrın sərt və realist, minimalist və yenilikçi olduğunu deyirlər. Klassiklər günümüzün problemlərindən danışmağa qadir olan teatrallıq modeli kimi qəbul edilmir. Fikrimizcə, bu təcrübələr postmodern mədəniyyət cərəyanının öz kollajı ilə fəlsəfi çalarlarına, “müəllifin ölümü” ideyasına, “müqəddəs olanı ələ salmaq” meylinə əsaslanır.

Teatrın bazarının genişlənməsinə mane olan amillərdən biri həm teatr xadimlərinin, həm də tamaşaçıların təhsili ola bilər. Belə təhsilin iki forması var: orta və ali təhsil və sənətşünaslıq. Sonuncular teatrla tamaşaçı arasında vasitəçi, teatr rejissorlarının köməkçisi ola bilər, özlərinə başqa prizmadan baxmaq və fikirlərini tamaşaçıya çatdırmaq imkanı verir, yüksək keyfiyyətli teatr tənqidi isə tamaşaçını tamaşaçıya meyilləndirə bilir. Teatr əxlaqi və estetik kontekstinə maksimum daxil edilməsi. Problem ondadır ki, müasir Azərbaycan da bu fenomen son dərəcə inkişaf etməmişdir və hər hansı bir fəaliyyətin keyfiyyəti təhsil və peşəkarlıqla müəyyən edilir (2).

Məhz buna görə də tədqiqat işi belə bir fikrə əsaslanır ki, bu gün bədii mədəniyyətin, xüsusən də teatrın öz dərin mahiyyətinin dəyişməsi, dəyərlərin əvəzlənməsi, estetika və əxlaqın təfsirində təhriflər baş verir.Bədii mədəniyyətin bir forması kimi tamaşadan daha çox sənət olduğunu nəzərə alsaq, belə bir fərziyyə kimi irəli sürülür ki, tamaşaçının tərbiyəsi ictimaiyyətə, “yenilikçi” rejissorlara isə tənqidi dönüş tələb edir. O zaman o, mövcud vəziyyəti müəyyən dərəcədə düzəldə və teatra öz mühüm tərbiyəvi funksiyasını qaytara biləcək (3).

Aşağıdakı dörd problem teatrda ən vacib amillər kimi görünür: peşəkar təhsil problemi, regionlarda ixtisaslaşmış teatr nəşrlərinin olmaması problemi, tamaşaların festival yönümlü olması problemi və teatr sənətində itirilmiş mənəvi sərhədlər. Mövcud problemlərin bütün əsas təzahürləri ilə insanın təbiətə, cəmiyyətə, mənəvi həyata münasibətinin məzmun xüsusiyyətləri ilə bilavasitə bağlı olduğundan, fəlsəfə nöqteyi-nəzərindən dəqiq dərk etməliyik. Bundan əlavə, zamanla cəmiyyətdə və insanların şüurunda baş verən dəyişiklikləri qeyd etmək lazımdır. Bu hadisə fəlsəfədə, onun sosial funksiyasında öz əksini tapır. Həqiqətən də, cəmiyyətin inkişafı prosesində həmişə elə bir dövr gəlir ki, insan haqqında, onun dünyadakı yeri haqqında, əxlaq haqqında, xeyir və şər haqqında və s.

Gücünü və mənasını itirir. Fəlsəfə keçmişdə nəyin qorunub saxlanmalı olduğunu və nəyi tərk etməli olduğunu anlamağa kömək edir, yeni dünyagörüşü qaydaları tapmağa və meydana çıxan tarixi tələblərə cavab verən bir sıra yeni dünyagörüşü ideyalarını formalaşdırmağa çalışır. Azərbaycanda teatrın özünəməxsus yolu var. Bu, xüsusilə 20-ci əsrdə, rejissor teatrının meydana çıxdığı zaman nəzərə çarpır və bu da öz növbəsində ondan fərqli olan digər cərəyanların yaranmasına səbəb olur (4).

20-ci əsr teatrının bütün tarixi mətnlə işin, tamaşaçı ilə ünsiyyətin yeni formalarının axtarışıdır; yeni dünyagörüşü ideyalarının formalaşması. Teatr total eksperiment sahəsinə çevrilir: bu dövrün əsas cərəyanı – avanqard – tamaşa və hadisələr, estrada şouları, kabare və musiqi zalı, sürrealizm, “qəddarlıq teatrı” və s..

Teatr dünya sənət təcrübəsini özündə cəmləşdirir, yaradıcılığın narahat enerjisidir. “Teatr-tamaşaçı”, “tamaşaçı-tənqidçi”, “teatr-tənqidçi” nisbətlərinin nəzərə alınması daha aktualdır (5).

## Nəticə

Teatr tənqidi həmişə teatrın ardınca gedir və heç vaxt ondan əvvəl getmir. Ehtimal etmək olar ki, “solğun” tamaşalar, aktyorların çarəsiz oyunu tənqidi məşqlər üçün çox daha münbit mühitdir. Ancaq hər şey “tam əksinə” – mübahisə üçün heç bir mövzu yoxdur. Yalnız istedadlı aktyorlar və rejissorlar teatr tənqidini ruhlandırır, sonra düşünülmüş, təhlil edən resenziyalar, dövri mətbuatda müvafiq başlıqlar, bəzən xüsusi buraxılışlar çıxır. Qanunauyğunluq ümumiyyətlə məlumdur.Tamaşaçının özünün tərbiyəsinə gəlincə, bu halda tənqid həm də teatrla tamaşaçı arasında ünsiyyətin formalaşması amillərindən biri kimi çıxış edə bilər. İndi informasiya sahəsinin çox geniş olduğu, medianın “dördüncü hakimiyyət” adlandırıldığı bir vaxtda tənqidin ictimaiyyətlə təmas üçün geniş imkanları var. Belə əlaqələr yaratmaq üçün ya ixtisaslaşdırılmış nəşrlər, ya da KİV-də tənqidi materialların dərc oluna biləcəyi yer (yaxud televiziya və ya radioda teatrşünasların və sənətşünasların iştirakı ilə verilişlər) olmalıdır.

## Ədəbiyyat

1. https://www.if24.ru/innovatsiya-v-teatre/
2. https://teatro.az/az/post/aydin-talibzade---azerbaycan-teatr-tarixinin-konseptual-varianti-539
3. https://kaspi.az/teatr-insanin-heyata-baxisini-deyisir
4. https://teatro.az/az/post/elcin-ceferov---teatrda-pr-isinin-teskili-273
5. https://kaspi.az/teatr-insanin-heyata-baxisini-deyisir

Göndərildi: 01.02.2023 Qəbul edildi: 23.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/13-16

**Fuad Məmmədov**
Qərbi Kaspi Universiteti
magistrant
mamedovfuad372@gmail.com

# BAKI XANI HÜSEYN-QULU XANIN ÇAR RUSİYASI İLƏ MÜNASİBƏTİ

**Xülasə**

Məqalədə XIX əsrin əvvəllərində Bakı xanı olmuş Hüseyn-Qulu xanın Çar Rusiyası ilə münasibətlərinə yazılı mənbələr, tarixşünaslıq əsərləri əsasında toxunulmuşdur. Bakı xanlığının xarici siyasəti diqqətə alınmışdır. Rusiyanın Bakı xanlığına yürüşü, Sisianovun öldürülməsi qeyd olunmuşdur. Sisianovun ölümü ilə bağlı versiyalar vurğulanmışdır. Gülüstan müqaviləsinə qədər Rusiya imperiyasının Qafqazla bağlı planları qeyd edilmişdir. Hüseyn-Qulu xanın Bakı xanlığının müstəqilliyini qoruyub saxlaması üçün atdığı addımlar araşdırılmışdır. Kazım bəyin Bakının açarlarını Bulqakova təhvil verildiyi qeyd olunmuşdur.

***Açar sözlər:*** *Hüseyn-Qulu xan, Bakı xanlığı, Çar Rusiyası, I Aleksandr, Sisianov*

**Fuad Mammadov**
Western Caspian University
master student
mamedovfuad372@gmail.com

## The relation of Baku Khan Huseyn-Gulu khan with Russian Empire

**Abstract**

In the article, the relationship of Huseyn-Gulu Khan, who became Baku Khan at the beginning of the 19th century, with Tsarist Russia was touched on the basis of written sources and historiographical works. The foreign policy of the Baku Khanate has been taken into account. The march of Russia to the Baku Khanate and the killing of Sisianov were recorded. Versions about Sisianov's death are highlighted. The plans of the Russian Empire regarding the Caucasus were mentioned before the Treaty of Gulistan. The steps taken by Huseyn-Gulu Khan to preserve the independence of the Baku Khanate were investigated. It was mentioned that Kazim Bey handed over the keys of Baku to Bulgakov.

***Keywords:*** *Huseyn-Gulu Khan, Baku Khanate, Russian Empire, I Aleksandr, Sisianov.*

## Giriş

I Aleksandırın taxta çıxması ilə Çar Rusiyası 1801 ci ildə Manifest dərc edərək Cənubi Qafqazla bağlı planlarını həyata keçirməyə başlayır. Şərqi Gürcüstanla birlikdə Rusiyaya həmçinin Azərbaycan əraziləri olan Qazax, Şəmşəddil, Borçalı və Pəmbək əraziləri də Rusiyanın tərkibinə qatılır (Iskenderova, 1999: 106).

Ard-arda Gəncə, Qarabağ, Şəki, Şamaxı, xanlıqlarının müstəqilliyinə son qoyan Çar Rusiyası Bakı xanlığını növbəti hədəf kimi seçmişdir. Bakını ələ keçirmək üçün general Sisianova xüsusi tapşırıq verən I Aleksandr görünür ki Bakı limanına xüsusi önəm verirdi.

**Çar Rusiyasının Bakıya yürüşə başlaması.** 1805-ci il avqustun 12-də rus eskadrası Bakı buxtasına daxil oldu. Rus qoşunlarının Bakıya daxil olması iranpərəst ünsürlər və İran şahının agentləri tərəfindən Bakıda anti-Rusiya təbliğatı üçün bəhanə oldu. Eskadranın Bakıya gəlməsindən üç həftə əvvəl də Bakı zadəganları mallarını və ailələrini şəhərdən çıxardılar. Qarşıdurmanı nəzərə alaraq I Aleksandr Sisianovun Bakının ilkin tutulması layihəsini təsdiqlədi, çünki "orada inadkar insanlar var idi" (RGVIA, 1812: 206).

Hüseyn-Qulu-xanın özü isə ordu ilə birlikdə kimsəsiz şəhərin divarları arasında qaldı, müdafiəyə hazırlaşdı. Sonuna qədər müqavimət göstərməkdə qərarlı idi. Bakı xanının artıq özünü müdafiə etmək mümkün olmayanda tərk etməli olduğu qapılar istisna olmaqla, bütün şəhər darvazaları daşlarla dolu idi. (ЦГИА,1921:310) Hüseyn-Qulu-xan şəhəri müdafiə etmək üçün qalanı möhkəmləndirməyə başlayaraq , topları (onların sayı 20-yə qədər idi) və müdafiə üçün lazım olan hər şeyi hazır vəziyyətə gətirdi. 1805-ci il avqustun 13-də Hüseyn Qulu xan rus eskadrilyasının Bakı limanına yaxınlaşmasının səbəblərini öyrənmək üçün general-mayor Zavalişinə öz elçisini göndərdi. Zavalişin cavab olaraq, Allahverdi-bəylə baş komandan Sisianov arasında bağlanmış müqavilədən imtina edən Bakı xanını cəzalandırmaq üçün imperatorun fərmanı ilə göndərildiyini qeyd etdi. Öz növbəsində Zavalişin də Hüseyn Qulu xana şəhərin təslim olması haqqında məktubla yanaşı, silahlanmış zabit də göndərdi. Həmin gün Bakı xanının iki məmuru Zavalişinin yanına gəldilər ki, verilən cavabı iki ay təxirə salsınlar. Lakin bu, Zavalişinin aldığı göstərişlərə uyğun gəlmədiyindən və Hüseyn-Qulu xanın kənardan kömək gözləmək üçün vaxt udmaq istəyini açıq-aydın göstərdiyindən, Bakı xanına bu barədə düşünmək üçün cəmi iki gün vaxt verildi (TsGVİA, 1805:22).

1805-ci il avqustun 15-də Hüseyn Qulu xan təkrar tələb ilə iki məmurunu Zavalişinin hüzuruna göndərdi. Lakin Zavalişin gün batmamış şəhəri təslim etməyi tələb etdi. İmtina alan Hüseyn Qulu xan danışıqları dayandırdı, çünki Zavalişin Bakı qalasını bombalamaqla hədələmişdi. Müddəti başa çatdıqdan sonra Rus eskadrası şəhəri atəşə tutmağa başladılar. Atışma avqustun 22-dək davam etdi, Zavalişin və onun köməkçisi Aseev sahilə çıxan iki dəstə ilə düşməni qalaya sıxışdırdılar və eskadranı su ilə təmin etmək üçün lazım olan sahil yüksəkliklərini tutdular. Eyni zamanda, Bakı xanının inadkar müqaviməti Zavalişini dənizdən hücum ilə qalanı təslim olmağa məcbur etməyin mümkünsüzlüyünə inandırdı. Buna görə də onu qurudan blokadaya almaq üçün avqustun 29-da iki dəstə ilə sahilə doğru hərəkət etdi. (Potto,1887:397) Eyni anda, qurudan və dənizdən şəhərin bombardmanı başladı. Bu bombardman sentyabrın 3-dək davam etmişdir. Lakin bakılılar möhkəm müdafiə nümayiş etdirdilər. Maraqlıdır ki, rus mənbələri də onların uğurlu mübarizəsindən açıq danışır. Mənbələrdən birində hətta vurğulanır ki, rusların bakılılardan iki topu və üç rəmzi ələ keçirməsinə baxmayaraq, "heç bir şey onların qalada təslim olmaq haqqında düşündüklərini göstərmədi əksinə, düşmən (Bakılılar M.İ. ) öz cəsarətini itirmir və müdafiənin uğuruna inanırdı. Zavalişin əmin idi ki, bakılıların bu cür inadkar müqaviməti onların haradansa kömək ümidi ilə stimullaşdırılıb. Sentyabrın 5-də Qubalı Şeyx-Əli xan böyük qoşunla Bakı xanının köməyinə gəlsə də,Hüseyn Qulu xanın başçılığı ilə bakılıların israrlı fədakar mübarizəsi Zavalışini blokadanı geri çəkib gəmilərə qayıtmağa məcbur etdi. Desant qoşunlarının azlığı və döyüş sursatının olmaması Zavalışini 1805-ci il sentyabrın 8-də hərbi şura çağırmağa vadar etdi və o, vəziyyəti dəyərləndirərək Bakı reydini yarımçıq saxlayaraq Lənkəran yaxınlığındakı Sarı adasına getməyi qərara aldı. 9 sentyabr 1805-ci ildə rus eskadronu bu adaya yola düşdü və burada baş komandanın növbəti göstərişlərini gözləyərək lövbər saldı. (TsGVİA, 1805:397)

**Sisianovun ölümü və Bakının işğalı.** 1806-cı il fevralın 8-də səhər saatlarında knyaz Sisianov 200 nəfərin müşayiəti ilə qala divarlarından yarım verst (təxmini 500 metr) aralıda olan quyuya yaxınlaşdı. Bakı ağsaqqalları da buraya gəldilər və onlar Sisianova açar, çörək və duzu verərək, müqavimətinə görə Bakı xanını şəxsən bağışlamalarını xahiş etdilər. (TsGVİA,1805:22) Sisianov çörək və duzu qəbul etdi lakin açarı geri qaytardı ki, Hüseyn-Qulu-xan açarı şəxsən özü təhvil versin. Bakı xanı öz tərəfdarlarının müşayiəti ilə dərhal qalanı tərk etməyə və şəhərin açarlarını Sisianova gətirməyə məcbur oldu. Sisianov açarları qəbul edərkən, o və yanında olan knyaz Elizbar Eristov gözlənilmədən xanın tərəfdarlarından olan iki nəfər tərəfindən öldürüldü.

Sisianovun ölümü ilə bağlı bir neçə versiya var. Birinci versiyaya görə, o, Qubalı Şeyx Əli xanın məsləhəti və hətta iştirakı ilə Hüseyn Qulu xan tərəfindən öldürülüb. (Kozubekiy,1906:129) Başqa bir məlumata görə, Hüseyn-Qulu-xanı müşayiət edən əmisi oğlu İbrahim-bəy xanın işarəsi ilə Sisianova, Seyid-bəy və Əmir-Həmzə isə Eristova atəş açmışdı. Üçüncü versiyaya görə, Hüseyn Qulu xanın bu qətllə heç bir əlaqəsi yox idi (GVİA, 1921:310). O vaxt Şahın Bakıya göndərdiyi iki iranlı Bakı xanının əmisi oğlu İbrahim Bəylə gizli danışıqlara başladı və onların təhriki ilə

Sisianovu öldürdü. Bu, Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsinə mane olmaq, İran qoşunlarının Azərbaycanın şimal hissəsinə daxil olmasını asanlaşdırmaq, həmçinin Hüseyn-Quluxanın Rusiya protektoratını qəbul etməsinə imkan verməmək üçün edilmişdi. Bakı ekspedisiyanın uğursuzluğu Rusiya hökumətinin planlarını alt-üst etdi. Yeni baş komandan Qlazenap general-mayor Zavalişinin geri qayıtmasını taktiki cəhətdən düzgün hesab etmirdi: "... Zavalişinin dəstəsi nə qədər zəif olsa da, Sarı adasına gələrək təkcə yaxınlıqda olan Xəzəryanı ərazilərə deyil, həmçinin Baba xanın özü üçün də təhlükə yarada bilərdi...". (Adıgözel-bek, 1848: 33).

Sisianovun və Zavalişinin Bakıya yürüşünün uğursuzluğu rus hökumətini 1806-cı ilin mayında general Qlazenapı Bakını işğal etmək üçün ekspedisiya göndərmək, və yaydan gec olmayaraq şəhəri ələ keçirmək tapşırığını verməyə məcbur etdi. Bu tapşırıqda həmçinin Hüseyn Qulu xanın və onun varislərinin Bakı xanı taxtından əbədi olaraq məhrum etmək də tapşırılmışdır. (AVPR,1806:85)

Sisianovun öldürülməsi Rusiya hökumətini o qədər qəzəbləndirmişdir ki, hökümət, Bakı qalasının yerinə yeni rus qalası tikməyi planlaşdırırdı və Sisianovun öldürüldüyü yerdə "xanın özünü isə külə çevirəcəkdilər" ( AVPR,1806:85).

Bakı xanlığının işğalına həddindən artıq önəm verən çar Rusiyası general Qlazenapa "Xəzər dənizinin ən yaxşı limanı kimi Bakının işğalı istisna olmaqla, yeni işğallardan çəkinmək" əmri verdi. İran qoşunlarının baş komandanı, şah taxtının varisi Abbas-Mirzə rus qoşunlarının irəliləməsinin qarşısını almaq üçün Qarabağa hücum etdi. Ruslardan məğlubiyyətə uğrayaraq Abbas Mirzə Şirvana çəkildi. Şamaxı xanı Mustafa xanın dəstəsini darmadağın edərək rus qoşunlarının yaxınlaşmasından xəbər tutan Abbas Mirzə Ağsuya getdi. Burada Qubalı Şeyx Əli xan və Bakı xanı Hüseyn Qulu xan onun yanına gəldilər (AVPR,1806: 85).

1806-cı il iyunun 21-də rus qoşunları Dərbəndi ələ keçirdilər. Sentyabrın 5-də Qlazenapı əvəz edən baş general Bulqakov Qubaya, oradan isə ona qoşulan II Mirzə Məhəmməd xanla birlikdə Bakıya istiqamətləndi (AVPR,1806:98).

Bakıya girməzdən əvvəl Bulqakov şəhər sakinlərinə könüllü olaraq "Rus suvereninin mərhəmətinə təslim olmağı" təklif edən və əks halda "şəhərin əsasını sarsıtmaqla" hədələyən elan göndərdi. Bulqakovu qarşılamağa xanlığının ən nüfuzlu şəxslərindən biri Kazım-bəy gəldi. Kazım-bəy, xan bağışlanmasa, şəhərin özünü sona qədər müdafiə edəcəyini bildirdi. Bakıya yaxınlaşan Bulqakov yenidən hərbi əməliyyatlara başlamamaq üçün Kazım-bəylə Beş-Barmaq dağı yaxınlığında görüşərək Bakı xanına rus qoşunları tərəfindən təhlükəsizliyinə təminat verdi. Mövcud vəziyyəti yaxşı anlayan Bulqakov qarşısına çıxan fürsəti əldən verə bilməzdi və hətta Borisoglebsk draqon Alayında polkovnik-leytenant rütbəsində xidmət edən oğlunu Kazım-bəyə etibar əlaməti olaraq onunla birlikdə göndərdi.

Oktyabrın 2-nə keçən gecə gənc Bulqakov Bakıya daxil oldu və bakılılar rus zabitini çaşqınlıqla qarşıladılar. Bu vəziyyəti görən sakinlərin bir qismi, xüsusən də varlılar rusların qisasından qorxaraq qalanı tərk edərək şəhərdən uzaqda gizləndilər. (AVPR, 1806: 98) Hüseyn-Qulu-xan, Kazım-bəyi Bulqakovun yanına göndərərək, açıq-aydın vaxt qazanmağa çalışırdı, çünki Qudoviçin özünün dediyinə görə, Hüseyn-Qulu xan son ana qədər sakinləri qalanı müdafiə etməyə razı salmaq istəyirdi. Lakin dənizdən rus qoşunlarının və Xəzər donanmasının yaxınlaşdığını görüb vəziyyətin çıxılmaz olduğunu anlayan Hüseyn-Qulu xan ailəsi ilə birlikdə İrana qaçmağa məcbur oldu (AVPR, 1806: 85).

1806-cı il oktyabrın 3-də rus qoşunları Bakıya yaxınlaşan kimi Sisianovun öldürülməsinə görə qisas almaqdan qorxan şəhər sakinləri qala qapılarını açmağa məcbur oldular, Kazım-bəy isə Bulqakova şəhərin açarlarını təhvil verdi (AVPR, 1806: 88).

## Nəticə

Rusiyanın Xəzər hövzəsində hökmranlıq qurmaq və Xəzəri Rusiyanın daxili dənizinə çevirmək istəyində mərkəzi Bakıda olmaqla Bakı xanlığının ləğvi demək olar ki, mühüm əhəmiyyət kəsb edirdi. Təsadüfi deyil ki, rus qoşunlarına layiqli müqavimət göstərən Huseyn-Qulu xan dərhal

hakimiyyətdən məhrum edildi, Bakı xanlığı isə çarizmin sonrakı müstəmləkəçilik siyasətinin birbaşa icraçısı və dirijoru olan komendantın başçılıq etdiyi əyalətə çevrildi. Həmişə öz xanlığının müstəqilliyini müdafiə edən Hüseyn Qulu xan belə, komendant idarəetmə sisteminin nə qədər "dövlət gəlirləri üçün dağıdıcı, bölgənin rifahı, sakinlərinin firavanlığı və ruhu üçün fəlakətli" olduğunu təsəvvür edə bilməzdi."

## Ədəbiyyat


1. Iskenderova, M. (1999). Bakinskoye khanstvo. Baku. Gl.4, 107 s.
2. RGVIA, f. VUA, d.4258, ch.2, l. 206.
3. TSGIA Gruz. Resp., f.2, op. 1, d.12150, ch.II, l. 310.
4. TSGVIA, f. VUA, 1805-1806, d.6164, ch.51, ll. 22 ob.-23
5. Potto, V. (1887). Kavkazskaya voyna v odel'nykh ocherkakh, epizodakh, legendakh i biografiyakh. T.1, vyp. 3. Spb., g., 397 s.
6. TSGAVMF, f. 166, op.1, 1805, d.831, ll. 7-13; «Ekspeditsiya na persidskiye berega Kaspiyskogo morya v 1805 godu». Slavyanin, ch.XVI, №19, s.5-18, s.20-22; V.Potgo. Uk. soch., 397 s.
7. TSGVIA, f. VUA, 1805-1806, d.6164, ch.51, ll. 29-30; TSGIA Gruz. Resp., f.2, op. 1, d.12150, ch.II, l.77 ob.
8. Kozubekiy, Ye. (1906). Istoriya goroda Derbenta. Temir khan Shura, 129 s.
9. TSGIA Gruz. Resp., f.2, op. 1, d.12150, ch.II, ll. 82 ob. 83; N.F.Dubrovin. Zakavkaz'ye..., i dr. 479 s.
10. Utverzhdeniye russkogo vladychestva na Kavkaz'ye, t.1, s.232-233.
11. Mirza Adigezal-bek. Uk. soch., 34 s.
12. AVPR, f. Glav. arkh. 1-13, 1806, d. 2, ll. 98, 99
13. AVPR, f. Glav. arkh. 1-13, 1806, d. 2, l. 61-61 ob., 85-85 ob.
14. TSGVIA, f. VUA, d. 6173, ll. 6 ob. 7.
15. AVPR, f. Glav. arkh. 1-13, 1806, d. 2, ll. 87 ob. 88


Göndərildi: 04.02.2023 Qəbul edildi: 23.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/17-19

**Könül Seyidova**
Naxçıvan Dövlət Universiteti
magistrant
konul.seyidova.99@mail.ru

# MİFOLOJİ ÜNSÜRLƏRİN "GECƏNİN ƏFSANƏSİ" POEMASINDA ROLU

**Xülasə**

Məhəmməd Hüseyn Şəhriyar XX əsrdə Cənubi Azərbaycanda yazıb-yaradan tanınmış şairlərdən biridir. Onun "Gecənin əfsanəsi" məsnəvisi ədəbiyyatımızda müxtəlif səpkilərdə yer alan mifləri öyrənməyə yol açmışdır. Poema ustadın insana, təbiətə-bütün varlıqlara baxışı ilə doludur. Şəhriyar bu poemanı yazarkən yalnız şair olmamış, həm filosof, həm də təbiətin özü olmuşdur. Poemadakı miflər xalqımızın tarixi mədəniyyətini, adət-ənənələrini, dini inanclarını araşdırmağa vəsilə olmuşdur. Həmçinin, Şəhriyar poemada miflərdən istifadə etməklə dünyaya baxışını, hisslərini, təfəkkürünü eyni zamanda ortaya qoymuşdur. Poemanın hələ də sevə-sevə oxunmasının səbəbi xalqımızın ilkin düşüncələrini özündə ehtiva etməsidir.

***Açar sözlər:*** *M.H.Şəhriyar, ədəbiyyat, şeir, poema, mifologiya, millilik, folklor*

**Konul Seyidova**
Nakhchivan State University
master student
konul.seyidova.99@mail.ru

## The role of mythological elements in the poem "Legend of the Night"

**Abstract**

Muhammad Huseyn Shahriyar is one of the well-known poets who wrote and created in South Azerbaijan in the 20th century. His poem "Legend of the Night" opened the way to study myths in different forms in our literature. The poem is full of the master's view of man, nature and all beings. When Shahriyar wrote this poem, she was not only a poet but also a philosopher and nature itself. The myths in the poem were an opportunity to explore the historical culture, traditions, and religious beliefs of our people. In addition, Shahriyar revealed her worldview, feelings and thought at the same time by using myths in her poetry. The reason why the poem is still read fondly is that it contains the original thoughts of our people.

***Keywords:*** *M.H.Shahriyar, literature,poet, poem,mythology, nationality, folklore*

## Giriş

"Mif mifos sözündən götürülmüş, əfsanə, nağıl, dastan və.s mənalarda işlənmişdir". (Ağbaba, 2008, 60). Miflər hər bir millətin mədəniyyətini ortaya çıxardan vasitədir. Yəni, dünyanın modelini öyrədən elmdir. Bunun vasitəsi ilə, "Gecənin əfsanəsi"poemasında oxucu mifoloji məkanla tanış olmuş, kainatın modeli ilə qarşı-qarşıya qalmış, olub-keçən hər şeyi sorğulamışdır. Bu suallar oxucuda mifoloji təfəkkürü formalaşdırmışdır. "Şəhriyarın dahiliyi ondadır ki, hələ mifologiya XIX əsrdə yenicə formalaşmağa başladığı zamanlarda o, miflərə müraciət edərək, bəşəriyyətlə oxucu arasında qırılmaz əlaqələr yaradır.

M.H.Şəhriyar yaradıcılığında "Gecənin əfsanəsi" məsnəvisi həm bizim ədəbiyyatımızda yaranmış, həm də digər xalqların bəzi ədəbiyyat nümunələrindəki mifologiyanı yenidən araşdırmağa, fərqli və oxşar xüsusiyyətləri ortaya çıxarmağa, dünyada yaranmış hər bir mədəniyyətə mifoloji gözdən baxmaq üçün önəmli rol oynayan bariz ədəbiyyat nümunəsidir. Bu məsnəvinin aktuallığı ona görə davam edir ki, xalqımızın dini-bəşəri düşüncələrini, ilkin

düşüncələrini özündə saxlayır. Habelə, folklor nümunələrinin yaranmasında və yaşadılmasında, mədəniyyətimizin daim var olmasını qoruyub saxlayır.

"Şair əsəri sıradanlıqdan çıxararaq öz prototipi olan "uşaq" surəti yaradaraq, onu uşaqlığında düşünməyə vadar edən kainatdakı baş verən hadisələri, bu hadisələrin insan həyatında ciddi mahiyyət kəsb etdiyini mifoloji ünsürlər vasitəsi ilə oxucuya çatdırmışdır" (Şəhriyar, 2016: 218). Şair mifoloji ünsürlərdən istifadə etməklə, xalqının mədəniyyətini, dünyagörüşünü, dini inanclarını, adət-ənənələrini daha bədii və obrazlı bir şəkildə poemaya əks etdirmişdir. Poemada şair sanki dünyanın yaranışı zamanı hadisələrin iştirakçısı olmuş, hər bir hadisəni incələmiş, təbiətlə harmoniyada qalaraq dünyanı dərk etməyə başlamışdır. Şair öz-özlüyündə qalaraq düşünmüş, düşündüklərini isə qələmlə sözlərə axıdıb oxucuya dünyanın dərkində vasitəçi olmuşdur. "Mifologiya dünyamız haqqında bizə daha nələri demir ki"?!... (Qafarlı, 2019: 16)

Şəhriyar bu poemanı yazarkən təkcə şair olmamışdır, o həm də, filosof olmuş hadisələrin yaranmasını və mənşəyini onlar arasında assosiativ əlaqələri müşahidə etmişdir. Ustad məsnəvidə insani keyfiyyətləri bir-bir sadalamış, sadaladıqları hadisələri, düşüncələri mifoloji obrazlarla milli ruhu vasitəsi ilə birləşdirmişdir. M.H.Şəhriyar poemada çoxlu mifik surətlər yaradaraq, poemanın bir hissəsində özünü dərk etməyən bir balaca uşaq, digər hissəsində təbiətdə olanların, təbiət qüvvələrinin hər birinin vəzifəsində insana aid xüsusiyyətlərin olmasını, insanın özünü dərkində hansı haldan-hala düşməsini, tanrının yaratdığı təbiət hadisələrində tanrının zərrələrini, tanrının qüdrətini, tanrının nələrə qadir olduğunu oxucuya daha təsirli çatdırmışdır. O, mifik obrazları yaratmaqla bu obrazları müxtəlif insan rollarında vermişdir. Sanki Şəhriyar surəti ilə söhbətləşən, suallarına cavab verən bu çoxluq təşkil edən mifikləşən surətlərdir ki, bəlkə də, şair insan obrazı yaratsa, bu qədər dərinə getməz, suallardan sual çıxarmazdı. ''Mifologiya dünyanı özünəməxsus qanun və vasitələrlə biçimləyən və izah edən dinamik işarələr sistemidir ki'' (Əsatirlər, əfsanə və rəvayətlər, 2005: 9) bu işarələrsistemindən bir çox sahələrə yol var, yəni mifologiyadan istifadə etməklə bir çox məsələləri eyni anda ortaya qoyaraq onları oxucuya çatdırmaq olur. Elə ona görə də,şair mədəniyyətimizi, dini inancımızı, adət-ənənələrimizi, dünyagörüşümüzü və Şəhriyarın dünyaya baxışını, hisslərini, təfəkkürünü eyni anda ortaya qoymaq üçün mifolojik ünsürlərdən istifadə etmiş, bu poema vasitəsi ilə tariximizin, zamanla hansı mərhələlərdən keçdiyini, dünya xalqlarının mədəniyyəti və kültürü ilə hansı oxşar cəhətlərin, hansı fərqlərin olduğunu üzə çıxarmışdır. Poemada yer alan hər bir mifik obraz xüsusi fəlsəfi mahiyyətə malikdir ki, bu mahiyyət Şəhriyarın həyata hansı aspektdən yanaşdığının məhsulu sayılır. Harda yaşadığından aslı olaraq, mifik obrazların da öz coğrafiyası, öz tarixçəsi vardır. Şəhriyar da öz coğrafiyasını rəngləndirmək üçün təbiətə üz tutmuşdur.

Lakin o, təzadları, mifik obrazları, coğrafiyadan, yerdən, məkandan çıxarmağı bacarmış mifilogiyanı həddi-hüdudu olmayan sərhədsizliyə yüksəltmişdir. Əsəri incələdikdə, Şəhriyar elə bil təbiət obrazlarını sadəcə insanı məftun etmək, zövq almaq üçün istifadə etmişdir, əslində isə ustad zahiri gözəllikləri sadəcə fon olaraq vermişdir. Belə ki, Şəhriyar hər bir mifik surətə bir fəlsəfi fikir, mahiyyət daşımışdır. Poema təbiət qüvvələri ilə insanın zahirindən daxilinə keçiddə durmuş, həm dünyada olan hadisələri zahiri, həm də bu hadisələrin isə insanın ruh aləminə-daxilinə təsir proseslərini açmışdır.

Şəhriyarın bu poemadakı poetikasında düşüncələri, şüuru, dərki və insan hissləri eyni körpüdə birləşmişdir. "Uzun zaman öncə, qəflət yuxusundan oyanan, gecənin yarısını oyaq qalan Şəhriyar bu poema ilə insanları maarifləndirir, bir növ gözünü açaraq şirin qəflət yuxusundan oyadır". (Xan Xatirə Ədəbiyyatı 50, 2019: 111). Oxucu poemanı oxuyarkən artıq oyanmağın vaxtı gəldiyini, hər şeyin səbəb-nəticə əlaqəsinin olduğunu anlayır.

## Nəticə

Şəhriyarın unikallığı ondadır ki, Azərbaycan ədəbiyyatında koloritliyi ilə seçilən bu qədər mifoloji ünsürləri bir məsnəvidə birləşdirmişdir. O, kosmoqonik, etnoqonik, təqvim, dini, bədheybətliyi, xeyirxahlığı, adət-ənənələrimizi daşımağa vasitə olan mifləri istifadə edərək tariximizi-kökümüzə bağlılığımızı sübuta yetirmişdir. Eyni zamanda bu miflər Şəhriyarın iç

dünyasını ortaya çıxarmışdır ki, Şəhriyar həyatını müxtəlif anlarında fərqli-fərqli mifoloji ünsürlərə çevrilmiş,insan anlarının təzadlığını ortaya qoymuşdur. Bu miflər bəşəriyyəti dərindən sarsıtmış, bütün insanlığımızı sorğulamağa, hisslərimizi, təfəkkürümüzü incələməyə vəsilə olmuşdur.

## Ədəbiyyat

1. Ağbaba, A. (2008). Mifologiya. Sumqayıt, 60 s.
2. “Klassiklərim” seriyası M.H.Şəhriyar. (2016). Yalan dünya, Seçilmiş əsərləri. Bakı, 439 s.
3. Qafarlı, R. (2019). Mifologiya. Altı cilddə, II cild. Bakı: “Elm və Təhsil”, 431 s.
4. Əsatirlər, əfsanə və rəvayətlər. (2005). Bakı: “Şərq-Qərb”, 304 s.
5. “Xan Xatirə Ədəbiyyatı 50”. (2019). Məhəmməd Hüseyn Şəhriyar xatirələrdə. Bakı, 239 s.

Göndərildi: 06.02.2023 Qəbul edildi: 28.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/20-22

**İnci Mehdizadə**
Naxçıvan Dövlət Universiteti
magistrant
imehdizade21@gmail.com

# SEYİD ƏZİM ŞİRVANİNİN MAARİFÇİ GÖRÜŞLƏRİ

**Xülasə**

Seyid Əzim Şirvani Azərbaycan ədəbiyyatının tanınmış və sevilən simalarından biridir. XIX əsrdə Azərbaycanın maarifçilik sahəsindəki görüşlərinin formalaşmasında S.Ə.Şirvaninin böyük rolu olub. Yaradıcılığı boyu xalqının savadlanması, maariflənməsi uğrunda mübarizə aparıb. Maarifçilik fəlsəfəsi şairin əsas şuarı idi. Odur ki, şair ən kiçik həcimli əsərlərində belə bu məqama böyük önəm vermişdir. Təkcə maarifçilik deyil, əxlaqi keyfiyyətlər aşılamaq da şair üçün prioritet məsələ idi. Məqalədə Seyid Əzim Şirvaninin əsərləri bu nöqteti-nəzərdən araşdırılmış, yaradıcılığının maarifçilik və yüksək əxlaqi keyfiyyətlər aşılamaq xüsusiyyəti aşkara çıxarılmışdır.

***Açar sözlər:*** *Seyid Əzim Şirvani, maarifçilik, tərbiyə, elm, mərifət, müdrik*

**Inji Mehdizade**
Nakhchivan State University
master student
imehdizade21@gmail.com

## Educational views of Seyid Azim Shirvani

**Abstract**

Seyyid Azim Shirvani is one of well known and beloved figures of Azervaijan literature. S.A.Shirvani had a great role in the formation of Azerbaijan's remarks in the field of enlightenment in the 19th century. Throughout his creativity he fought for the education and enlightenment of his people. Enlightenment philosophy was the main motto of the poet. Therefore, the poet gave great importance to this aspect even in his smallest works. Not only education but also instilling moral qualities was a priority for the poet. İn this article, the works of Seyyid Azim Shirvani are studied from this point of view and the characteristic of instilling enlightenment and high qualities of his creativity is revealed.

***Keywords:*** *Seyid Azim Shirvani, enlightenment, nurture, science, civility, wise*

## Giriş

Seyid Əzim Şirvani XIX əsrdə Azərbaycanda maarifçilik sahəsində qələmi ilə mübarizə aparan görkəmli şəxsiyyətlərdəndir. Onun əsərləri Azərbaycan şeirinin çoxəsrlik ənənələrindən bəhrələnib. Elə bu baxımdan Azərbaycançılıq düşüncəsi, mənafeyi Şirvani yaradıcılığında da öz məzmununu və ideya dolğunluğunu peşəkarlıqla tapıb.

Seyid Əzim Şirvaninin yaradıcılığını izləyəndə aşiqanə şeirlərinin zəngin olduğunu görürük. Bəzən belə şeirləri içərisində də şair dövrünün çatışmazlıq və eybəcərliklərini tənqid edir. Amma realist üslubda yazmağa başlamasında isə "Kəşkül", əsasən də "Əkinçi" qəzetlərinin əsas xidməti olub. Qəzetləri mütəmadi mütaliə etməsi şairin realist səpkidə yazmasına təkan olur. Ümumiyyətlə, daha çox "Əkinçi" qəzeti ilə əməkdaşlığa üstünlük verən şair məhz bu qəzet vasitəsilə xalqa demək istədiklərini deyir: bir-birindən diqqətçəkən maarifçi yazıları ilə bu sahədəki mənəvi borcunu – xalqının, millətinin maariflənməsi, savadlanması yolundakı müqəddəs missiyasını yerinə yetirirdi.

Maarifçi şair üçün "Əkinçi" bir xitabət kürsüsü idi. O, xalqı qəflət və cəhalət yuxusundan oyanmağa çağırır, Həsən bəy Zərdabinin xeyirxah, maarifçi təşəbbüslərini alqışlayır, onu bilikli bir müəllim və xeyirxah insan kimi qiymətləndirirdi. Əhsənül-Qəvaidin Məhərrəmlik təziyəsində baş

yaranlar əleyhinə apardığı mübarizəyə səs verərək Həsən Qara Hadi Qarabaği, kapitan Sultanov kimi mürtəceləri satira atəşinə tuturdu. Şair "Əkinçi" qəzetinin böyük mədəni faydalarını dərk etdiyi üçün, onun nəşrinə mane olanları susdurmağa çalışırdı (Qasımzadə, 2018: 474).

Seyid Əzimin maarifçiliklə bağlı görüşlərini müşahidə edərkən qəzetlərə rəğbətini aydınca görmək mümkündür. Təkcə "Əkinçi" deyil, dövründə fəaliyyət göstərən, xalqın mənəvi inkişafı naminə istiqamətlənmiş digər qəzetləri də şair təqdir edir, onların var olmasını, daimiliyini arzulayır. Millətinin beyin inkişafını həyata keçirmək üçün təkcə bir neçə insanın əməyi kifayət deyildir. Ümumən hər kəs bu yolda səfərbər olmalıdır. Seyid Əzim də bunu arzu edirdi. Lakin bu arzuda bir az natamamlıq vardır. Belə ki, əgər millət bu fədakarlığı dərk etsə idi, niyə dövrün mətbuat vasitələrinin təbliğatına bu qədər qarşı çıxırdı?! Təbiidir ki, millət hələ o düşüncə səviyyəsində deyildi ki, qəzetin icra etdiyi maarifçilik proqramını başa düşsün. Odur ki, şair haqlı olaraq:

Bu kari-xeyrə kim, bir paktiynət eyləyib iqdam,
Gərək millət qıla himmət ki, ta mətləb ədalənsin.
Məsəldir söyləyib aqil ki, tək əldən səda çıxmaz,
Gərəkdir əl-ələ vermək ki, ta ol əl sədalənsin (Şirvani, 2005: 62).

Seyid Əzim Şirvani biliklə, elmlə, mərifətlə əlaqədar yazdığı şeirlərində üsyankar şəkildə bilənlə, bilməyənin elmsizin fərqini izah edir. Onun insanlara, əsasən də gənclərə verdiyi tövsiyələr içərisində onları əsl insan kimi yetişdirmək istəyini də müşahidə edirik. İnsan gərək, sözün əsl mənasında, kamil insan ola. Kələkbazlıq, fırıldaqçılıq insanı uçuruma yuvarlayar. Odur ki, heç vaxt insan bu sifətləri özünə yaxın buraxmamalıdır. Alimlərin, müəllimlərin, ziyalı insanların məsləhəti önəmlidir. İnsan bir iş görməzdən əvvəl ağıllı və müdrik insanlarla məsləhtləşsə, daha çox uğur əldə edə bilər. Elm insanın üz nurudur, elmli insan hörmət sahibidir. Onu əldə etmək üçün bütün çabalar məqsədəuyğundur. Seyid Əzim Şirvani də elmin faydası və mənfəətindən böyük coşqu ilə bəhs edir:

Elmdən oldu Həzrəti-Loğman,
Hikmət ilə səramədi-dövran.
Elm bir nur, cəhl zülmətdir,
Üləma olmasa cahanda, yəqin
Olacaq paymal şəri-mübin.
Üləma varisi-şəriətdir,
Füqəra baisi-hidayətdir (Şirvani, 2005: 23).

Seyid Əzim Şirvaninin əsərlərində, bəzən də kiçik həcmli şeirlərində özünün yaşadığı zaman və dövrün yaradıcı ədəbiyyatına aid bir məqam aydın duyulur, əsərlərinin çoxu həm satira baxımdan, həm də fəlsəfi-didaktik baxımdan diqqət çəkir. Ən dolğunu isə, fəlsəfə və satira eyni bərabərdə burada qabarır. Maarifçilik fəlsəfəsinin cəhətləri kimi qəbul olunan bu xüsusiyyət şairin həyata və cəmiyyətə müsbət yanaşmasından qaynaqlanırdı. Məhz bu yanaşması baxımdan o, cahillikdə boğulan həmvətənlərini bəzi üsullardan qaynaqlanaraq kəskin tənqid etmir. Yenilənmənin, müasirliyin faydalarını sadalayır. Və əsl insan da müasirləşmə və inkişaf etmək üçün mücadilə yolunda olan insandır – konsepsiyası ilə daim çıxış edir. Müasirləşən və inkişaf etmək yolunda olan insan qarşılaşdığı zülmə tabe olmayacaqdır (Qarayev, 2015: 908). Padşahlar isə belə bir cəmiyyətdə zülm ilə hakimiyyət idarə etməyin mənasız və mümkünsüz olduğunu dərk edəcəklər. Və bu baxımdan da, Seyid Əzimin şeirlərində padşahların ədalətli olmağı haqqında arzusunu da müşahidə edirik, bəzi şeirlərində isə ədalətli olan şahın elmə verdiyi dəyərin şair qəlbini fərəhləndirdiyini də duyuruq:

Zülmdən yer üzündə ot bitməz,
Zülmü soltan edəndə kim etməz?
Padşah etməsə ədalət əgər,
Olur əlbəttə dəhr zirü zəbər.

Seyid Əzimi düşündürən məsələlərdən biri də odur ki, şair əsl maarifpərvər ziyalı olaraq millətin oyanması arzusundadır. O arzulayır ki, milləti aldatmağa çalışan hər kimsə anında elə

millətin özü tərəfindən ifşa olunsun. Bax, belə olduğu zaman xalq əsl xalq ola bilər. Seyid Əzim də bütün qüvvəsi və qələmi ilə buna çalışırdı. Fırıldaqçıların, xalqı cəhalət məngənəsində boğmaq istəyənlərin elə xalq tərəfindən qınanılması, ifşası onun əsas ideyalarından biri olaraq diqqət cəlb edir:

Sən bizi nəfə etmədin vasil,
Barı qoy özgə elm edək hasil.
Bizi bəsdir bu qədər aldatdın,
Dini dinarə hər zaman satdın.
Sən bilən elmi bilməyən yoxdur,
Səndən ələm uşaqlar çoxdur (Azərbaycan ədəbiyyatı tarixi, 2021: 932).

Seyid Əzim acıq hissi ilə əlinə müqəddəs kitab alıb xalqı din pərdəsi altında boyunduruq altında saxlayanları məzəmmət edir. Başqa xalqların inkişaf etməsini, yeni-yeni vasitələr kəşf etməsini təqdir edən şair xalqının isə bu inkişafdan tamamilə geri qaldığını ürək yanğısı ilə ifadə edir. Köhnə adətlərdən qopmağa qorxan və çətinlik çəkən xalqın gözlərini üstəlik də dini mif pərdəsi örtməyə hər an hazır olanları xalqın düşmənləri adlandırır. Şair məhz maarifpərvər yöndən yanaşaraq belə insanları dinləməməyi xalqa tövsiyə edir. Gənclərə elmə yiyələnmək üçün yeri gələndə uzaq diyarlara belə getməkdən çəkinməməyi məsləhət görür. İnkişaf və tərəqqi edib xalqına fayda verən kim varsa, o xalqın həm də işıqlı gələcəyidir.

## Nəticə

Qeyd edilənlər onu göstərir ki, Seyid Əzim Şirvaninin əsərlərinin əsas ideyasını elmə, savada, mənəvi kamilliyə çağırış motivləri təşkil edir. Tərbiyə və əxlaqi mükəmməlliyə yönəlmiş bu əsərlərində səmimiyət, mehribanlıq, xoşrəftar olmaq, humanizm, sədaqət, vəfa və s. kimi dərin insani keyfiyyətlər aşılanır, əksinə olaraq yaltaqlıq, acıdillik, yalançılıq, riyakarlıq isə tənqid atəşinə tutulur. Seyid Əzim Şirvani dövrün çatışmazlıqlarını və xalqın geriliyini qəbul etməyən digər açıqfikirli ziyalılar kimi qələmə sarılıb milləti oyatmaq üçün yazdığı ictimai məzmunlu şeir və məqalələri ilə yanaşı maarifçilik yolunda da çox dəyərli işlər görürmüşdür.

## Ədəbiyyat

1. Qasımzadə, F. (2018). XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Elm və Təhsil, 552 s.
2. Şirvani, S. (2005). Seçilmiş əsərləri. Üç cilddə, II cild. Bakı: Avrasiya Press, 384 s.
3. Şirvani, S. (2005). Seçilmiş əsərləri. Üç cilddə, III cild. Bakı: Avrasiya Press, 288 s.
4. Qarayev, Y. (2015). Seçilmiş əsərləri. Beş cilddə, III cild. Bakı: Elm, 908 s.
5. Azərbaycan ədəbiyyatı tarixi. (2021). On cilddə, V cild. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü. Bakı: Elm, 932 s.

Göndərildi: 08.02.2023 Qəbul edildi: 25.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/23-26

**Musa Kazımlı**
Qərbi Kaspi Universiteti
magistrant
mkazimli98@gmail.com

# XI-XIII ƏSRLƏRDƏ QIPÇAQ - GÜRCÜ MÜNASİBƏTLƏRİ

**Xülasə**

Məqalədə XI-XII əsrlər Qıpçaq-Gürcü münasibətlərinə yazılı mənbələr, tarixşünaslıq əsərləri əsasında toxunulmuşdur. IV Davidin apardığı islahatlar diqqətə alınmışdır. Ordunun yenidən təşkili, İraq Səlcuqlu dövlətinin tabeliyindəki torpaqlara hücumları göstərilmişdir. Bütün bu addımlarda qıpçaqların hərbi potensialından məharətlə faydalanması qeyd edilmişdir. Qıpçaqların köçürülməsi, yeni ərazilərdə yerləşdirilməsi, ordu və saraydakı rolları araşdırılmışdır. Araşdırma zamanı ordunun qüvvətlənərək Səlcuqlu orduları qarşısında əsas gücə çevriməsi faktı öz təsdiqini tapmışdır. Tədricən qıpçaqların dövlət içindəki çəkişmələrdə oynadıqları rolu qüvvətləndirməsi prosesi yaxından izlənilmişdir.

***Açar sözlər:*** *IV David, Qıpçaqlar, Didqori, Məlik Toğrul, Əmir İllqaz*

**Musa Kazimli**
Western Caspian University
master student
mkazimli98@gmail.com

## Kipchak-Georgian relations in the XI-XIII centuries

**Abstract**

The article deals with Kipchak-Georgian relations of the XI-XII centuries based on written sources and historiographical works. The reforms carried out by David IV have been taken into account. Reorganization of the army, attacks on the lands under the control of the Iraqi Seljuk state are shown. In all these steps, it was noted that the Kipchaks skillfully benefited from their military potential. The resettlement of the Kipchaks, their settlement in new territories, their roles in the army and the palace were investigated. During the investigation, the fact that the army was strengthened and became the main force against the Seljuk armies was confirmed. The process of gradual strengthening of the role played by the Kipchaks in the conflicts within the state was closely monitored.

***Keywords:*** *David IV, Kipchaks, Didgori, Malik Togrul, Amir Illgaz*

## Giriş

Səlcuqlu imperiyasının parçalandığı dövrdə səlibçilərin və Bizansın türk dövlətləri üzərinə hücumları artmış, türk bəylikləri arasında ixtilaflar güclənmişdir. I səlib yürüşünün uğurlu olmasından faydalanıb Səlcuqlu hakimiyyətindən xilas olmaq üçün hərəkətə keçən IV David Səlcuqluya verdiyi vergini ödəməkdən imtina etdi. Bunun ardınca Kaxetiyanı, Dzernanı, Rustavini, Kaladzor və Giş qalalarını, Aqaranini və Lorini öz ərazisinə birləşdirdi. Əldə etdiyi uğurlara rəğmən dövləti üçün müəyyən etdiyi hədəfləri reallaşdıracaq potensiala sahib deyildi (Gümüş, 2002: 717).

Şəhərlər bir-birinin ardınca ələ keçirilsə də, ordu hələ də müəyyən edilən hədəfləri reallaşdıracaq potensialda deyildi. Ard-arda müharibələr orduda yorğunluğa səbəb olurdu. Baş verən qalibiyyətlərə rəğmən türklər hələ də Gürcüstan ərazisində idilər. Bu isə ələ keçirilən ərazilərin itirilməsi təhlükəsini yaradırdı. II Georginin hökmdarlığı dövründə feodalların qüvvətlənməsi kral hakimiyyətinin zəifləməsinə və orduda hərc-mərcliyə səbəb olmuşdur. Bu amillər ordunun yenidən nizam-intizamın təşkil edilməsini zəruri edirdi. Bundan əlavə gürcülər

"məğlubedilməz Səlcuqlular" fikrinə inanır bu isə onlarda bitkin əhvala-ruhiyyəyə səbəb olurdu (Ateş, 2015: 55).

**Qıpçaqların Gürcüstana gəlişi və fəaliyyətləri.** Qeyd edilən problemlərin qarşısını almaq üçün ordu sıralarını genişlətmək zərurəti yaranmışdı. Prosesi iqtisadi inkişafa mane olmadan (əhlini təsərrüfat işlərindən ayırmadan) həyata keçirmək üçün qeyri-gürcü hesabına ordunu genişləndirmək qərara alındı. Bu məqsədlə Don və Xəzər çayları arasında yaşayan Qıpçaqlar ən müsbət alternativ idi (Metreveli, 2010: 80).

Gürcülərin dəvətini qəbul edən qıpçaqlar bunun əvəzində IV Davidin qarşısında osetinlər keçidinin təhlükəsizliyini təmin etmək şərtini irəli sürdülər. Qıpçaqların keçidi üçün bu yolun təhlükəsizliyini təmin edən David onların önündəki maneəni aradan qaldırmış oldu (Brosset, 2003: 319-320).

Gürcüstana gələn qıpçaqların köçü 1118-ci ilə aid olsa da, proses 1119-cu ildə də davam etmişdir. Hər qıpçaq ailəsi gürcü ordusu üçün bir nəfər silahlı, atlı döyüşçü vermək məcburiyyətində idi. Yaradılan 40 min nəfərlik qıpçaqlardan ibarət ordu birbaşa IV Davidə tabe idi. Ordu feodal hakimlərdən tamamilə müstəqil idi. Ailələrindən alınıb gürcü sarayında təlimə və təhsilə cəlb edilən 5 min Qıpçaq gənci mərkəzi orduda vəzifələndirildi (Kırzıoğlu, 1992: 115).

Qıpçaqlar vasitəsilə ordu sıralarının qüvvətləndirildiyi bu dövrdə Səlcuqlular daxildəki çəkişmələrini həll etməyə çalışırdı. Beləcə Davidin məqsədlərini reallaşdırması üçün uyğun mühit formalaşmışdı. Kür çayı sahilində məskunlaşan türkmən cəsusları 1120-ci ildə IV Davidin uzqlaşdığını görüb qışlamaq üçün Botoraya getdilər. Türkmənlərin yaxından izləyən IV David 14 fevral 1920-ci ildə qəfildən onlar üzərinə hücum etmiş və xeyli qənimət və əsir ələ keçirmişdir. Bunun ardınca Şirvanşahların tərkibindəki Qəbələ şəhərini ələ keçirib Kartliyə geri qayıtmışdır.

1121-ci ilin yazında Bərdədə türkmənlərin yerləşdiyini xəbər tutaraq, iyun ayında qıpçaqlardan təşkil edilmiş ordu ilə Kür çayını keçib Bərdəni dağıtmış, xeyli sərvət ələ keçirmişdir. Ard-arda baş verən məğlubiyyətlərdən sonra türkmənlər ilə yanaşı Tiflis, Dmanisi və Gəncə tacirləri İraq Səlcuqlu sultanı Mahmudun qardaşı Məlik Toğrulun yanına gedərək uğradıqları məğlubiyyət haqqında məlumat vermiş və kömək istəmişdilər.

Məlik Toğrul Mardin əmiri İlqaziyə xəbər göndərib "Yürüşə hazırlıq görməsini" tələb etmişdir (Sevim, Merçil, 1995: 235-236). Əmir İlqaz və Dübeysin qüvvələri məlik Toğrulun başçılıq detdiyi qüvvələri gözləməyib Tiflisə yaxın düşərgə saldılar. Bu zaman bayraqlarından tanıdığı Qıpçaq dəstələrini görən İlqaz, onun qoşununa qatılacaqlarını düşündü və gələn qüvvələrə qarşı müqavimət üçün hazırlanmadı (Turan, 2009: 247-248).

Özünü təslim olmuş kimi göstərən 200 qıpçaq döyüşçünün qəfil Səlcuqlu qüvvələrinə doğru ox atması nəticəsində ordunda nizam pozuldu (Ateş, 2016: 88).

Düşmən ordusundakı nizamın pozulması ilə hücma keçən IV Davidin köməyinə rəhbərlik etdiyi qüvvələrlə birgə oğlu Dimitri gəldi. 1121-ci ilin 18 avqustunda baş verən döyüşdə Qıpçaqların üstünlüyü və hərbi bacarıqları nəticəsində Gürcülər Səlcuqlu ordusunu məğlub etdi.

Gürcülərin bu cür rahat irəliləyişində Səlcuqlu dövlətinin qərbindəki vacib hadisələri də nəzərə almaq lazımdır. Bəhs edilən dövrdə "Xaçlı yürüşləri"nin sürətlə baş ard-arda davam etməsi dövləti böhran vəziyyətinə gətirmiş, feodal hərc-mərcliyi IV David üçün üstünlük təmin etmişdir (Günəşli, 1994: 36).

Bu üstünlükdən məharətlə istifadə edən IV David davam edərək Naxçıvan və İspirə qədər irəliləmişdir. O Azərbaycanı, Qafqazın əsas keçid məntəqələrini bütünüylə ələ keçirmək niyyətində olsa da, regiondakı müsəlman qıpçaqlardan dəstək alan feodal hakimlərin müqaviməti nəticəsində istəyinə nail ola bilmədi. Bu cəhdlərin uğursuzluğuna Davidə tabe qıpçaq qüvvələri ilə gürcü ordu başçıları arasında baş verən ixtilafların da səbəb olduğu təxmin edilir (İbnul-Əsir, 1989: 487).

Bu ixtilafların dövləti zəiflədəcək səviyyədə olması bəhs edilən dövrdə qıpçaqların Gürcü dövlətindəki demoqrafik, hərbi və siyasi təsirlərini nümayiş etdirir. Qıpçaqların köçürülməsi yalnız hərbi deyil, həmçinin fərqli perspektivlərdən də gürcü cəmiyyətinə inkişaf gətirmişdir. Gürcü ordusu IV Davidin hücumlarını həyata keçirəcək qədər intizamlı deyildi. Ağır məğlubiyyətlər döyüşçülərdə səlcuqluların məğlubedilməzliyi mifini yaratmışdır. Bu zaman IV David qıpçaq

ailələrinə yaylaq, qışlaq ərazilər təşkil etmiş və bununla da məqsədinə çatacaq güclü ordu yaratmışdır. Bundan əlavə mərkəzi hakimiyyətə problem yaradan gürcü feodallarına (Eristavlar) qarşı bu hakimiyyəti müdafiə edəcək qüvvə yaradaraq mütləq hakimiyyətini qüvvətləndirmişdir (Allen, 1971: 99).

Qıpçaq faktoru ölkənin iqtisadi müqəddəratınının da həll edilməsində əsas rol oynamışdır. Beləki türk hücumlarından qaçan gürcü əhali dağlarda gizlənmiş, nəticədə təssərrüfat sistemi sıradan çıxmışdır. Qıpçaqların məskunlaşması ilə əhali öz yerlərinə qayıtmış və iqtisadi vəziyyət yenidən canlanmışdır (Tellioğlu, 2009: 76).

Bununla yanaşı gürcülərin qıpçaqları köçürməsi Qafqazda sabitliyin təmin edilməsinə kömək olmuş, ictimai həyatın normallaşmasına təkan vermişdir. Ona görə ki bəhs edilən dövrə qədər Şimali Qafqazda alanlar, çərkəzlər və qıpçaqlar arasında mübarizə hökm sürürdü. IV Davidin sazişçi mövqeyi bu xalqlar arasındakı ixtilafa son qoymuş və onları ortak düşmənə qarşı yönəltmişdir.

Dəryal keçidi ilə köçürülən qıpçaqlar Ermənistan və Gürcistan ərazilərinə yerləşdirildilər. Buna görə də bu ərazilərin demoqrafik quruluşunun dəyişməsinə səbəb oldular. Bu isə öz növbəsində Çorux və Kür çayları sahillərinin iqtisadi canlanmasına səbəb oldu. Bununla gürcülər qıpçaqların sayəsində türkmən əhaliyə qarşı müqavimət göstərəcək yeni qüvvə əldə etdilər.

**Qıpçaqlar I Dimitri dövründə(1125-1156).** 24 yanvar 1125-ci ildə 36 illik hakimiyyətinin ardından vəfat edən IV Davidin yerinə əvvəlcədən varisi elan etdiyi oğlu Dimitri keçdi. Hələ atasının sağlığında idarəçilik işlərində ona kömək edən, müharibələrdə onunla birgə vuruşan I Dimitri IV David kimi güclü şəxsiyyətə və ağla sahib deyildi (Thomson, 1996: 353).

I Dimitri dövründə ölkənin xaricində və daxilində əhəmiyyətli hadisələr baş vermişdi. Daxildə üsyanlar dalğası başlamış və bu üsyanlarda əsas rolu iqtisadi və sosial hüquqlar əldə etmək uğrunda mübarizə aparan gürcü feodal hakimləri oynayırdı. Onlar əvvəlcə hakimiyyətə I Dimitrinin yerinə qardaşı Vaxtanqı gətirməyə cəhd etsələr də, bu cəhd uğursuzluqla nəticələndi.

Aninin ələ keçirilməsi ilə Fadlun Xorasandan qayıdıb 1125-ci ilin yazında Qars və Divin əmirləri ilə birgə Anini mühasirəyə aldı. Ərzaq qıtlığı və ən əsası qıpçaqların kömək üçün gəlməməsi Ani şəhərinin 1126-cı ildə Fadluna təslim edilməsi ilə nəticələndi (Vardan, 2017: 63).

Ani şəhərinin yenidən müsəlmanların nəzarətinə keçməsi ilə düşmən tərəflər arasındakı çəkişmələr müəyyən fasilələrlə davam etmişdir. Bunlardan ən vacib olanı I Dimitrinin 1139-cu il Gəncə üzərinə hücumudur. Baş verən zəlzələdən istifadə edərək Gəncəyə daxil olan I Dimitrinin rəhbərliyindəki qüvvələr şəhər hakimi Qara Sunqurun yoxluğundan istifadə edərək şəhəri yağmalamış və əhalinin bir hissəsini qılıncdan keçirmişdir (Eğilmez, 2001: 73-74).

Daxildə baş verən üsyanlar I Dimitrini çətin vəziyyətə salmışdı. Kiçik oğlu Georgini varisi elan etsə də, böyük oğlu Davidə əvvəllər qardaşı Vaxtanqı dəstəkləyən feodal hakimləri güclü dəstək verirdilər. Dimitrinin siyasətindən qəzəblənən bu hakimlər 1150-ci ildə atasının hakimiyyətinə qarşı üsyan edən Davidi hakimiyyətə gətirmək üçün üsyan etdilər. Üsyan Dimitri tərəfindən yatırılsa da, 1155-ci ildə baş verən ikinci üsyanda müqavimətin mənasız olduğunu anlayaraq hakimiyyəti oğlu Davidə verdi.

XII əsrin 70-ci illərində III Georgi(1156-1184) hakimiyyətinə qarşı üsyanların yatırılmasında qıpçaqlar əsas rol oynamaqda idi. Böhranın əsas problemi, Orbelian sülaləsinin qaldırdığı üsyan Uzun mübarizədən sonra qıpçaqlar tərəfindən yatırıldı. Bu risqlərin ardından III Georgi qıpçaqların Gürcüstan ərazisinə miqrasiyasını artırıb "hakimiyyətinin təhlükəsizliyini təminat altına almaq" siyasəti aparırdı. Bu məqsədlə 30 minə yaxın qıpçaq və Alan Gürcüstana köçürüldü (Çoğ, 2015: 62).

Çariça Tamara (1184-1213) dövrü qıpçaqların Cənubi Qafqazda ən fəal olduğu dövrdür. Bu illər feodal hakimlərin mərkəzi dövlətə qarşı üsyanları məhşurdur. Qıpçaqların mərkəzi dövlətdə möhkəmlənməsi bu feodal hakimləri yeni yollar axtarmağa məcbur etdi. Nəticədə dövləti islahatlarla yenidən təşkil etməyə çalışan Qutlu Aslan tutduğu vəzifəsindən uzaqlaşdırıldı. Dövlətin yenidən təşkilatlanması planı onu uzaqlaşdıran feodallar tərəfindən tətbiq edilməyə çalışıldı. Lakin qıpçaqların dövlət-kilsə təşkilatlanması Qutlu Arslanın vəzifədən uzaqlaşdırılmasına (həbsinə) qarşı

çıxdı. Çariça Tamara bu təziqlər qarşısında geri çəkilib həbs qərarından imtina etdi. Nəticədə feodalların qüvvətlənməsinin qarşısı alına bilməmiş, bu isə gürcü kəndli sinfinin zəifləməsinə səbəb olmuşdur. Dəyişikliklər dövlətə olan itatəti zəiflətmiş, qüvvələr balansını qorumaq üçün qıpçaqlardan ibarət böyük qüvvə gürcüstana gətirilmişdir. Yeni qıpçaqlar Tiflis-Qaraağac ətrafının türk mənşəli əhali ilə zənginləşməsinə səbəb olmuşdur.

## Nəticə

Böyük Səlcuqlu dövlətinin zəifləməsi və dağılması ilə yeni dövlətlər meydana gəldi. Vahid Gürcüstan qurmaq uğrunda mübarizə aparan IV Davidin bu dövlətlərdən olan İraq Səlcuqlu sultanlığının nəzarət etdiyi əraziləri öz ölkəsinə birləşdirmək cəhdləri öz bəhrəsini vermişdir. Ordu və iqtisadiyyatda islahatlar aparan IV David qısa müddətdə böyük ordu yaratmış, Sultanlığı ağır məğlubiyyətlərə məruz qoymuşdur. Bu yolda əsas arxalandığı qüvvə döyüş bacarıqları ilə üstünlüyü əllərində saxlayan qıpçaqlar olmuşdur. Onların gürcüstan ərazisinə köçürülməsi Cənubi Qafqazda qüvvələr balansını Gürcüstanın xeyrinə dəyişmişdir.

## Ədəbiyyat

1. Gümüş, N. (2002). Səlcuq-Gürcüstan Münasibətləri. Türklər. 4. Ankara, s.713-721.
2. Ataş, E. (2015). XII-XIII. Əsrlərdə Cənubi Qafqazda Qıpçaqlar. Ankara, 216 s.
3. Metreveli, R. (2010). Qızıl əsr: 11-ci əsrdən 13-cü əsrin birinci rübünə qədər Gürcüstan. Tbilisi: Artanuji, 210 s.
4. Brosset, M. (2003). Gürcüstan tarixi. Ankara, 472 s.
5. Kırzıoğlu, F. (1992). Yuxarı Kür və Çoruk yüksəkliyində qıpçaqlar. Ankara, 278 s.
6. Sevim, A., Merçil, İ. (1995). Səlcuqlu dövlətlərinin tarixi. Ankara, 599 s.
7. Turan, O. (2009). Səlcuqlular və Türk İslam sivilizasiyası tarixi. İstanbul: Ötükən nəşriyatları, 544 s.
8. Ataş, E. (2016). Səlcuq-Gürcü mübarizələrində dönüş nöqtəsi: Didqori döyüşü (1121) və onun nəticələri. Tarix Araşdırmaları Jurnalı; 35(60), s.73-96.
9. Günəşli, R. (1994). Gürcü xalqlarının yaranması. İndiana Universiteti Nəşri, 418 s.
10. İbnul-Əsir. (1989). İslam Tarixinin Tərcüməsi Əl-Kamil Fit-Tarih. C. 10. İstanbul, 541 s.
11. Allen, W. (1932). Gürcü xalqının tarixi. London, 492 s.
12. Tellioğlu, İ. (2009). XI-XIII. Əsrlərdə Türkiyə-Gürcüstan Münasibətləri. Trabzon, 165 s.
13. Thomson, R. (1996). Qafqaz tarixinin yenidən yazılması. Nyu York, 460 s
14. Vardan, M. (2017). Türk istilaları tarixi (889-1269). İstanbul, 127 s.
15. Əyilməz, S. (2001). Səlcuq-Gürcü Münasibətləri (1060-1157). Ərzurum, 117 s.
16. Coğ, M. (2015). Orta əsrlərdə Qafqaz hövzəsində qıpçaqlar. Qara Dəniz Araşdırmaları Jurnalı; 10 (19): s.57-74.

Göndərildi: 10.02.2023 Qəbul edildi: 26.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/27-30

**Hüseyn Paşazadə**
Bakı Dövlət Universiteti
magistrant
lawyer.huseyn@gmail.com

# ƏLAVƏ DƏYƏR VERGİSİNİN TƏTBİQ OLUNDUĞU ÖLKƏLƏRDƏ SPESİFİK XÜSUSİYYƏTLƏR: MÜQAYİSƏLİ TƏHLİL

**Xülasə**

Fikrimizcə, xarici ölkələrdə olduğu kimi Azərbaycanda da iş, mal və xidmətlərə ƏDV-nin fərqli dərəcələrinin tətbiqi məqsədəuyğun olardı. Bu ilk növbədə, inflyasiyanın qarşısını alır, vergidən yayınma hallarını minimuma endirir və bununla da büdcə gəlirlərində ƏDV-nin payının artmasına səbəb olur. Göründüyü kimi, vergilər dünya ölkələrinin inkişaf səviyyəsindən və mövqeyindən asılı olmayaraq bütün ölkələrdə tutulur. Fikrimizcə, tətbiq olunacaq yeni vergilərin təsiri istehlakçılara təsir etməmək şərti ilə xarici ölkələrdə tətbiq olunan vergilər və onların xüsusiyyətləri dərindən öyrənilməli və Azərbaycanda tətbiqinə cəhd edilməlidir. Yuxarıda göstərilənlərlə yanaşı, istər inkişaf etmiş bazar iqtisadiyyatı, istər keçid iqtisadiyyatı, istərsə də inkişaf etməkdə olan ölkələr olsun, bütün ölkələr daim öz vergi sistemlərini təkmilləşdirməyə, effektiv vergi qanunlarını qəbul etməyə və yeni vergi siyasətini həyata keçirməyə çalışırlar.

***Açar sözlər:*** *əlavə dəyər vergisi, vergi, Azərbaycan Respublikasında əsas vergi növləri, vergilərin tətbiqi, vergi məcəlləsi, spesifik xüsusiyyətlər, müqayisə, inkişaf etmiş ölkələr, müqayisəli təhlil*

**Huseyn Pashazade**
Baku State University
master student
lawyer.huseyn@gmail.com

## Specific characteristics of the countries where the value added tax is applied: a comparative analysis

**Abstract**

In our opinion, it would be appropriate to apply different rates of VAT on work, goods and services in Azerbaijan as in foreign countries. First of all, this prevents inflation, minimizes tax evasion, and thereby leads to an increase in the share of VAT in budget revenues.

As it can be seen, taxes are levied in all countries, regardless of the level of development and the position of the countries of the world. In our opinion, the taxes applied in foreign countries and their features should be studied in depth and an attempt should be made to apply them in Azerbaijan, provided that the impact of the new taxes to be applied will not affect the consumers. In addition to the above, all countries, whether they are developed market economies, transition economies or developing countries, are constantly striving to improve their tax systems, adopt effective tax laws, and implement new tax policies.

***Keywords:*** *value-added tax, tax, the main types of taxes in the Republic of Azerbaijan, application of taxes, Tax Code, specific characteristics, comparison, developed countries, comparative analysis*

## Giriş

Müasir şəraitdə xarici ölkələrin vergi sistemləri müxtəlif hüquqi, iqtisadi, siyasi və sosial amillərin təsiri nəticəsində təşəkkül tapmış və inkişaf etmişdir. Azərbaycanda və xarici ölkələrdə vergilərin yığılmasında məqsəd eyni olsa da, onların sayına, strukturuna, yığılma üsullarına,

dərəcələrinə və digər əlamətlərinə görə bütün ölkələrin vergi sistemləri bir-birindən nəzərə çarpacaq dərəcədə fərqlənir. Lakin, bu fərqli cəhətlərə baxmayaraq bütün dövlətlər ölkədə aparılan vergi siyasətini düzgün istiqamətə yönəltməyə, vergi sisteminin sadələşdirilməsinə, büdcə gəlirlərində vergilərin payını azalmaması şərti ilə vergi dərəcələrinin və bununla da vergi yükünün azaldılması istiqamətində yeni yolların axtarılmasına və müasir standartlara cavab verən optimal vergi sisteminin yaradılmasına cəhd edirlər. Müasir şəraitdə əksər dünya dövlətləri üçün ən xarakterik xüsusiyyət dövlətin iqtisadiyyata müdaxiləsinin səviyyəsidir. İqtisadiyyata dövlət müdaxiləsi demək olar ki, bütün dövlətlərdə mövcuddur. Fərq isə yalnız bu müdaxilənin hansı səviyyədə olmasındadır. Dövlət müdaxiləsinin əsas məqsədi vergi siyasəti və sahibkarlığa maliyyə təsiri göstərməklə iqtisadiyyatın tənzimlənməsidir, iqtisadiyyatın dövlət tənzimlənməsi və iqtisadi artımı, məşqulluğun maksimum səviyyəyə qaldırılmasını, sosial müdafiə sisteminin möhkəmləndirilməsini, qiymətlərin stabil səviyyədə saxlanılmasını təmin etməlidir.

Fikrimizcə, bütün bunlara birdən deyil tədricən nail olmaq mümkündür. Çünki vergi siyasəti İqtisadi siyasətin elə bir qoludur ki, onun daim islahatlara ehtiyacı vardır. Beynəlxalq miqyasda ən çox dəyişikliklərə və islahatlara məruz qalan sahə məhz vergi sistemidir. Bütün ölkələrin tarixi inkişaf mərhələlərində vergi sahəsində islahatlar aparılmışdır. Məsələn, İkinci dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrindəki iqtisadi sıxıntıları aradan qaldırmaq üçün vergi islahatlarına müraciət edilmişdir. Bu dövrdə Qərbi Avropa dövlətləri daha lazımlı olan sənaye sahələrini maliyyələşdirmək üçün vergilərin xidmətindən istifadə etməyə başladılar. Bu islahatlar vergi yükünü ağırlaşdırmaq üçün aparılmırdı, əksinə onların məqsədi vergi mexanizmi vasitəsilə istehsalat sahələrinin inkişafını stimullaşdırmaq idi.

Ümumilikdə inkişaf etmiş ölkələrdə (məsələn, ABŞ-da) həyata keçirilən vergi islahatları aşağıdakı istiqamətlər üzrə aparılmışdır: korporativ və gəlir vergisinin dərəcəsinin aşağı salınması; vergitutma bazasının genişlənməsi; fiskal sistemin sadələşdirilməsi; imkanlı təbəqələrə tətbiq edilən vergi güzəştlərinin ləğv edilməsi; vergi tutulmayan hissənin səviyyəsinin yüksəldilməsi; vergi qanunvericiliyindəki boşluqların doldurulması. Göründüyü kimi, aparılmış bu islahatlar vergi sisteminin bütün sahələrini əhatə etmişdir. Almaniyada isə islahatlar üç mərhələdə aparılmışdır (1986, 1988, 1990). Birinci və ikinci mərhələlərdə vergitutmanın forma və üsulları təkmilləşdirilmiş, üçüncü mərhələdə isə korporativ vergilərin fəaliyyət dairəsi dəyişdirilmişdir. Böyük Britaniyada islahatlar əsasən 1984-cü ildən sonraya təsadüf edir, Məhz bu ildə korporativ verginin dərəcəsi birdən-birə 52%-dən 35%-ə endirilmiş və yeni yaradılan şirkətlərə fəaliyyətlərinin ilk ilinə 100% güzəşt verilmişdir.

Göründüyü kimi inkişaf etmiş ölkələrdə aparılan vergi islahatlarının əsas istiqaməti vergi dərəcələrinin aşağı salınmasına və vergi yükünü yüngülləşdirmək üçün iri miqyaslı güzəştlərin verilməsinə yönəlmişdir.

Müasir şəraitdə xarici ölkələrdə nəinki vergi sistemi, hətta tətbiq olunan vergilər də bir-birindən fərqlənir. Məsələn Böyük Britaniyada vergilər beş qrupa bölünür. Birinci qrupa gəlirdən tutulan birbaşa vergilər (gəlir vergisi, kapitaldan vergi, miras qalan əmlakdan vergi), ikinci qrupa dolayı vergilər (əlavə dəyər vergisi, aksizlər, gömrük rüsumları, qerb rüsumu), üçüncü qrupa yerli vergilər (əmlak vergisi), dördüncü qrupa işgüzar fəallığa görə vergi, beşinci qrupa isə digər vergilər daxildir (Həsənli, 1998: 122). Böyük Britaniyada vergilər dövlət büdcəsi gəlirinin 90%-ni formalaşdırır. Göründüyü kimi Böyük Britaniyada vergilər əsasən fiskal məqsədlərlə toplanılır.

Böyük Britaniyadan fərqli olaraq Fransada vergilər üç qrupa bölünür. Birinci qrupa dolayı vergilər, ikinci qrupa birbaşa vergilər, üçüncü qrupa mülkiyyət vergiləri daxildir. Fransada Mərkəzi vergilərin sayı 10-a, yerli vergilərin sayı isə 14-də çatır.

Fransanın vergi sisteminin əsas fərqləndirici xüsusiyyətləri: dolayı vergıtutmanın səviyyəsinin birbaşa vergitutmanın səviyyəsindən yuxarı olması və sosial fondlara ayırmaların yüksək olmasıdır. Belə ki, dolayı vergilər büdcə gəlirlərinin 60%-ni təşkil edir. Ümumilikdə isə Fransada əsasən mərkəzi vergilərdən ƏDV, kapitaldan daxil olan gəlirlərə görə vergi, daşınmaz əmlakdan daxil olan gəlirlərə görə vergi, səhmdar cəmiyyətlərin gəlirlərindən vergi, əmək haqqı fonduna vergi, mirasa

görə vergi, gerb yığımı, yerli vergilərdən isə, yaşayışa görə vergi, mədən vergisi, torpaq vergisi, erazinin təmizlənməsinə görə vergi, yaşıllaşdırmaya görə vergi və s. tətbiq olunur.

Almaniyada isə vergilər üç büdcəyə (federal, ərazi və yerli büdcələrə ödənilir. Almaniyada tətbiq olunan vergilərdə maraqlı xüsusiyyət tətbiq olu- nan vergilərin sayının həddindən artıq çox olmasıdır. Belə ki, Almaniyada 50-ə yaxın vergi tətbiq edilir. Bunlara fiziki şəxslərdən gəlir vergisi, bəyannamə üzrə ödənilən gəlir vergisi, koorporasiyalardan vergi, əiavə dəyər vergisi, kapitaldan daxil olan gəlirlərə görə vergi, idxal dövriyəsinə görə vergi, əmlak vergisi, torpaq vergisi, torpaq sahələrinin alınması zamanı ödənilən vergi, sığorta vergisi, vərəsəlik və bağışlama vergisi, avtomobil sahiblərindən vergi, yanğından mühafizə xidmətinin saxlanmasına vergi, aksiz vergisi, ölkə ərazisində neft və qaz hasilatının inkişafına yönəldilmiş yığımlar və sair aiddir. Almaniyada olduğu kimi Rusiyada da vergilər üç büdcəyə ödənilir. Federal büdcəyə 16, regional büdcələrə 7, yerli büdcələrə isə 5 vergi və yığım ödənilir (Musayev, Kəlbiyev, Hüseynov, 2002: 112).

Yaponiyada isə 25 dövlət, 30 yerli vergi üç qrup vergilərin daxilində qruplaşmışdır: hüquqi və fiziki şəxslərdən gəlir vergisi, əmlak vergisi, birbaşa və dolayı istehlak vergiləri. Yaponiyada vergilər dövlət büdcəsinin yalnız 64%-ni təşkil edir (Yaqubov, 2001: 173).

Amerika Birləşmiş Ştatlarında dünyanın heç bir ölkəsində olmayan vergi sistemi fəaliyyət göstərir. Belə ki, ABŞ-da vergilər strukturuna görə üç yerə bölünür: federal vergilər, ştatların vergiləri, yerli vergilər. Maraqlı cəhət isə ABŞ-da eyni verginin bütün səviyyələrdə tətbiq olunmasıdır. Məsələn; gəlir vergisi, korporasiyaların gəlirlərinə görə vergi, aksiz vergisi, vərəsəlik və ya bağışlama vergisi həm federal, həm ştat, həmdə yerli vergi kimi tətbiq olunur. Belə ki, federal səviyyədə gəlir vergisi hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fiziki şəxslərdən, fərdi sahibkarlardan, müəssisələrdən, ştat səviyyəsində isə federal gəlir vergisindən fərqli və aşağı dərəcələrlə əhalidən tutulur və bununla belə ABŞ qanunvericiliyində heç kəsin ikinci dəfə eyni vergini ödəməsinə yol verilmir. Digər bir maraqlı cəhət isə ABŞ-da hələ də ƏDV-nin tətbiq olunmamasıdır. Düzdür, burada 38,25% dərəcə ilə ƏDV-yə bənzər satışdan vergi tətbiq olunur (Melnik, 1999: 20). Lakin, dərəcələrin aşağı səviyyəsi ƏDV kimi səmərə vermir.

Tətbiq olunan vergilərin müxtəlifliyinə və digər ölkələrdən fərqliliyinə görə seçilən ölkə kimi Gürcüstan daha çox diqqəti cəlb edilir. Belə ki, digər MDB dövlətlərindən fərqli olaraq bu ölkədə geniş yayılmış vergilərlə yanaşı təbii ehtiyatlardan istifadəyə görə vergi, ətraf mühitin çirkləndirilməsinə görə vergi, avtoneqliyyatın ölkə ərazisinə daxil olmasına görə vergi, mehmanxana vergisi, reklam vergisi, oyun biznesinə görə vergi və s. bu kimi maraqlı vergilər tətbiq olunur (Rzayev, 2000: 392).

Azərbaycanda olduğu kimi dünya ölkələrinin əksəriyyətində ƏDV-dövlət büdcəsinin gəlirlərinin formalaşmasında mühüm rol oynayır. Artıq Avropada ƏDV- yə xüsusi bir vergi növü kimi baxılır. 1993-cü ildə Avropa İttifaqına daxil olan ölkələr ƏDV-nin dərəcəsini yaxınlaşdırmaq üçün 15%-lik minimal səviyyə müəyyən etdi. Maraqlı cəhət budur ki, Avropa İttifaqına daxil olan ölkələrdən bir-birinə ixrac ƏDV-don azaddır.Bu məqsədlə Avropa ittifaqı daxilində ƏDV üzrə klirinq sisteminin tətbiq edilməsi nəzərdə tutulur.

Bu sistemin tətbiqində məqsəd ixrac nəticəsində ƏDV-üzrə ixracatçıların büdcələrdə yaranan itkilərin yerini doldurmaqdır. Dolayı vergilər içərisində dünyada ən çox yayılmış və tətbiq olunan vergi əlavə dəyər vergisi hesab olunur. Lakin ƏDV-in tətbiqinin bütün ölkələr üçün özünəxas xüsusiyyətləri vardır ki, bu da xarici ölkələrin vergi sistemini bir-birindən fərqləndirməyə imkan verir. Məsələn, ƏDV-in yaradıcısı hesab olunan Fransada ƏDV-in 2 dərəcəsi tətbiq olunur. Standart dərəcə 19,5% və bəzi kənd təsərrüfatı məhsullarına, ərzağa, dərmana, tibbi avadanlığa, yük və sərnişin daşınmasına tətbiq edilən azaldılmış - 5,5% dərəcə Fransanın vergi qanunvericiliyində ƏDV sahəsində xüsusi yer vergidən azad olunmalara verilir. Belə ki, Fransada ixracla bağlı bütün əməliyyatlar (sahibkarlıq subyektləri məhsul ixrac edərkən onun alınması və istehsalı zamanı ödədikləri ƏDV məbləğini geri almaq hüququna malikdirlər), bank və maliyyə fəaliyyəti, xüsusi həkim və müəllimlər, kənd təsərrüfatı və balıqçılıq, inzibati, sosial, mədəni və idman funksiyalarını yerinə yetirən dövlət müəssisələri ƏDV-dən azaddır (Qorbunov, 1993: 78).

## Ədəbiyyat

1. Həsənli, M. (1998). "Vergilər". Bakı: Şərq-Qərb nəşriyyatı, 416 s.
2. Musayev, A., Kəlbiyev, Y., Hüseynov, A. (2002). Azərbaycan Respublikasının vergi xidməti islahatlar və nəticələr. Bakı: "Təfəkkür" NPM, 324 s.
3. Yaqubov, S. (2001). Azərbaycan iqtisadiyyatı: inkişaf meyli, strategiyası və problemləri. Bakı, 173 s.
4. Melnik, D. (1999). Vergi idarəçiliyi. Moskva: Maliyyə və statistika, 125 s.
5. Rzayev, R. (2000). "Pul, kredit və banklar". Bakı: "Qanun" nəşriyyatı, 392 s.
6. Qorbunov, A. (1993). Vergi planlaşdırılması və maliyyə itkilərinin azaldılması. Moskva: BIZ, 78 s.

Göndərildi: 14.02.2023 Qəbul edildi: 31.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/31-34

**Rəşad Bəhramlı**
Bakı Dövlət Universiteti
magistrant
rashad.bahramli@outlook.com

# MÜQAVİLƏNİN STANDART ŞƏRTLƏRİ

## Xülasə

Təqdim olunan məqalədə müqavilə anlayışı, onun əsas tərkibi, mahiyyəti, şərtləri təhlil edilmişdir. Müqavilənin standart şərtləri kateqoriyalara ayrılaraq göstərilmiş və hər biri üçün ayrılıqda izahı verilmişdir. Bununla yanaşı müqavilə şərtləri və müqavilə müddəaları arasındakı fərqlər də qeyd edilərək, anlayışlar arasındakı əlaqələr müəyyənləşdirilir. Müqavilə təşkili adətən işgüzar münasibətlərin formalaşmasında, həmçinin ortaqlıq prinsiplərinin qorunmasında əhəmiyyətlidir. Müqavilə yazılması xüsusi diqqət və bacarıq tələb edən prosesdir. Qanunvericiliyin maddələrini nəzərə alaraq şərtlərin tələbləri maddələrlə qeyd edilməkdədir. Bu araşdırmada müqavilə bağlanmasının əhəmiyyətinə, müqavilə şərtlərinin təşkilinə, yaranacaq problemlər qarşısında hüquqi tələblərin təminatına toxunulmuşdur.

***Açar sözlər:*** *işgüzar münasibətlər, kompensasiya, müddəalar, müqavilə təşkili, qanunvericilik*

**Rashad Bahramli**
Baku State University
master student
rashad.bahramli@outlook.com

# Standard terms of the contract

## Abstract

This article is an analysis of the concept of a contract, its main components, essence, and conditions. The standard terms and conditions of the contract are defined according to categories and a separate description is given for each of these categories. However, the differences between contractual terms and conditions and contractual provisions are noted, and links are drawn between the concepts.

The form of the contract often plays an important role in the shaping of industrial relations and the maintenance of the principles of partnership. Writing a contract is a process that requires special attention and skill. The requirements of the conditions that are subject to the articles of the legislation are determined by the articles. This work considers the importance of concluding the contract, regulating the terms of the contract, and providing legal requirements in the face of emerging problems.

***Keywords:*** *labour relations, compensation, provisions, contract organization, legislation*

## Giriş

Hər hansı müqaviləni yazarkən, mövzunun mahiyyətini əsaslı anlamaq, tərkib və təşkili üçün yazılacaq planları öncədən müəyyənləşdirmək lazımdır. Bunun üçün müqavilənin yazı qaydalarını bilmək, ardıcıllığı müəyyənləşdirib və hərtərəfli düşünülmüş şəkildə tərtib etmək mütləqdir. Hüquqşünas müqavilə tərtib edərkən və ya müqaviləyə dəyişiklik edərkən müştərinin maraq və tələblərini diqqətə almalı, şərtləri düzgün şəkildə müəyyənləşdirməlidir.

Müqavilənin tərkib hissəsini təşkil edən hər hansı bir müddəa və ya termin müqavilə şərtləri adlanır. Mövcud olan şərtlərin hər biri müqavilə öhdəliyini müəyyənləşdirir və qəbul edilən bu öhdəliklərin pozulduğu zamanı məhkəmə prosesinin başlanması üçün qərar qəbul edilir. Biznesdə ən çox istifadə olunan vasitələrdən biri müqavilədir.

Biznes təşkili sırasında yaranan yeni ortaqlıq və ya razılaşmalar zamanı müqavilə şərtlərindən geniş istifadə olunur. Müqavilə şərtləri həcm baxımından geniş və ya bir neçə maddəlik yazılardan ibarət olur. Şərtlərin əsas məqsədi hər bir tərəf üçün tətbiq olunan müddəa və qaydaları müəyyənləşdirib, tərəflərə təqdim etməkdən ibarətdir (1).

Təşkil edilən şirkət müqavilələrində bir neçə kateqoriyaya bölünən əsas şərtlər olacaqdır. Həmçinin onu da qeyd etmək lazımdır ki, bəzi müqavilələrin təşkilində şərtlər maddəsindən də istifadə edilir.

Nümunə olaraq, kredit və səhmlərin hüquqi şəxslərdən alınmasına dair tərtib edilmiş müqavilələrdə “İlkin Şərtlər” başlığı altında qeyd olunmuş maddəyə rast gəlmək mümkündür. Qanunvericiliyin tələblərini nəzərə alaraq şərtlər maddəsini tərtib etmək lazımdır. Bunun üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 328-ci maddəsinə diqqət yetirilməlidir. Şərtlərə dair tələblər burada göstərilmişdir (Əliyev, 2017: 37).

Müqavilə şərtləri, tərəfləri qanuni olaraq bir sıra minimum öhdəlikləri yerinə yetirməyə məcbur edə bilər və bunu nəzərə alaraq tərəflər razı qalana qədər müddəa və şərtləri müzakirə etmək hüququna malikdirlər.

Müqavilə bağlandığı andan etibarən isə tərəflərin öhdəlik və hüquqları artıq qəbul edilmiş olur. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 405.1-ci maddəsinə görə, tərəflər arasında müqavilə şərtləri təsdiqlənirsə müqavilə bağlanmış olaraq qeyd edilir (3).

Sadə dillə desək, müqavilənin şərtləri son tarixlər, ödənişlər və kompensasiyalar təyin etməklə tərəflərin maraqlarını ən yaxşı şəkildə qorumaq üçün nəzərdə tutulmuşdur. Bir sıra müqavilələrdə müəyyən standart müddəalar mövcuddur və müxtəlif müqavilələrdə də rast gəlinə bilər (4).

Müqavilə ifadələri tez-tez hər bir tərəfin düzgün hüquqi şərtləri bildiyinə zəmanət vermədən istifadə olunur. Müqavilə şərtlərinin növlərini üç kateqoriyaya bölürlər: şərtlər, zəmanətlər və ya müddətsiz şərtlər.

1. Şərtlər – tərəflər arasında razılıq əldə edildiyi halda yerinə yetirilmirsə, mövcud vəziyyətə bağlı olaraq səbəbkar tərəf müqaviləni pozmuş hesab olunacaq və bununla da qarşı tərəfə müqaviləni ləğv etmək, həm də zərərin qarşılığı olaraq təzminat tələb etmək hüququ verəcəkdir.

2. Zəmanət. Bu kateqoriyaya daxil olan müqavilə şərtinə görə, qarşı tərəf müqaviləni pozursa, buna həll üsulu olaraq günahsız tərəfin, səbəbkar tərəfindən zərərin ödənilməsini tələb etmək icazəsi veriləcəkdir. Lakin müqavilə ləğv edilməyəcəkdir.

3. Müddətsiz şərtlər. Müddət nə şərt, nə də zəmanət olmadıqda müddətsiz olacaqdır. Qeyri-müəyyən bir müddət pozulduğu təqdirdə, günahsız tərəf üçün mövcud olan fəaliyyət növü, pozuntunun nə qədər ciddi olmasından asılı olacaqdır. Məsələn, bu pozuntu günahsız tərəfi müqavilədə göstərilən faydalardan məhrum edərsə, bu şərtlərin pozulması kimi təsnif ediləcəkdir. Günahsız tərəf daha sonra müqaviləni ləğv edə və zərərin ödənilməsini tələb edə bilər. Bununla birlikdə, pozuntu kiçikdirsə və müqaviləni pozacaq qədər əhəmiyyətli deyilsə, zəmanət pozuntusu kimi təsnif ediləcəkdir. Günahsız tərəf yalnız zərərin ödənilməsini tələb edə bilər (Allahverdiyev, 2008: 55).

Müqavilələrin təşkili və yazılması universal və hər hansı bir iş üçün, harada olursa olsun, işçiləri işə götürmək, müştəriləri cəlb etmək və satıcılarla ortaq olmaq üçün vacibdir. Ümumi müqavilə şərtləri aşağıdakı kimi verilmişdir.

1. Məxfiliyin qorunması.
2. Xitam.
3. Fors-major.
4. Mübahisə.
5. Zərər.

Müqavilələrin yazılması işgüzar münasibətlərin şərtlərini, bir qayda olaraq, hüquqi şəkildə təsvir edir. Müqavilənin təşkilində mürəkkəb terminologiyalar və formulalalar qeyd edilir. Müqavilə yazı qaydalarına əsasən bunları təhlil etmək, müqavilə müddəası kimi anlayışları, müqavilə şərtləri ilə arasındakı fərqləri bilmək əhəmiyyətlidir (Həsənov, 2013: 22).

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 417-420-ci maddələrinə əsasən müqavilənin standart anlayışı haqqında bölgü aşağıdakı kimi qeyd edilmişdir (7):

DOI: https://doi.org/10.36719/2789-6919/20/50-52

**Sənəm Alıyeva**
Sumqayıt Dövlət Universiteti
magistrant
alizdesanam501@gmail.com

# DİLÇİLİKDƏ ÜSLUB ANLAYIŞI

**Xülasə**

Dil və dili təşkil edən vahidlərin dəyişməsi gec baş verir. Bu isə dildəki dəyişmənin uzun illərə, əsirlərə, nəsillərə söykənməsi ilə ölçülür. Dili əhatə edən vasitə və vahidlər sistem halında birləşrək müəyyən qanun və normalara əsaslanır. Ədəbi dil də dilin bir hissəsini təşkil edir. Buna görə də ədəbi dilə aid olan normalar üslublara da aiddir. Ancaq üslublar fərqli sahələri ifadə etdikləri üçün onların normativliyi həmin sahələrlə müəyyən edilir. Dil özündə bir çox funksiyaları ehtiva edir. Bütün bu funksiyalar özünü insan fəaliyyətinin müxtəlif sahələrində fərqli və özünəməxsus tərzdə əks etdirir. Ünsiyyət, məlumat və təsir dilin əsas ictimai funksiyalarıdır.

***Açar sözlər:*** *dil, ədəbi dil, üslub, termin, nitq, ədəbiyyat, ritorika, ünsiyyət*

**Sanam Aliyeva**
Sumgait State University
master student
alizdesanam501@gmail.com

## The concept of style in linguistics

**Abstract**

Language and language-forming units change late. This is measured by the change in the language based on long years, captivity, and generations. The means and units surrounding the language are combined into a system and based on certain laws and norms. Literary language is also a part of language. Therefore, the norms that apply to literary language also apply to styles. However, since styles express different fields, their normativity is determined by those fields. Language includes many functions. All these functions are reflected in different and unique ways in different areas of human activity. Communication, information and influence are the main social functions of language.

***Keywords:*** *language, literary language, style, term, speech, literature, rhetoric, communication*

## Giriş

Çox geniş məzmuna malik olan üsluba incəsənətin bütün sahələrində - ədəbiyyatda, musiqidə, rəssamlıqda, memarlıqda və digərləridə rast gəlmək mümkündür. Üslubun tarixi çox qədimlərə antik dövrə qədər uzanır. Belə ki, antik dövr filosoflarının, natiqlərinin əsərlərində bu məfhuma tez-tez rast gəlmək mümkündür. Klassik dövrdə mövcud olan elmlərdə üslub ritorikanın daxilində izah edilirdi. Məhz buna görədir ki, yunanlar üsluba sübutetmə, inandırma üçün lazım olan bir vasitə kimi baxmışlar. Hindlilər isə üsluba nitqin bəzəyi, zahiri əlaməti kimi yanaşmışlar.

**Üslub anlayışı:** Üslub sözü hərfi mənada tərz, üsul, yol, metod, intizam, səliqə sözləri ilə eyniyyət təşkil edir. Üslub termini görkəmli şəxslərin tədqiqatlarının əsasını təşkil etmişdir. H. Həsənov üslub termininin tarixini araşdıraraq yazır: "Üslub və üslubiyyat terminləri antik dövrdən müvazi şəkildə işlədilir. Bu terminlərin işlədilmə və tətbiqolunma sahələri geniş və müxtəlifdir. Hələ qədim dövrlərdə romalılar dil məsələləri ilə məşğul olarkən üslub və üslubiyyat problemləri onların diqqətindən yayınmamışdır" (Ağakişiyeva, 2008: 136).

Romada istifadə olunan stil sözü üslub anlayışının əvəzində işlənmiş və yazı manerası anlamını ifadə etmişdir. Sonradan-sonraya üslub yazı forması, yazılı nitq mənasında istifadə edilməyə

başlamışdır. "Deməli, üslub sözü adı altında danışmaq və yazmaq manerası başa düşülürdü. Bu manera praktik olaraq bir sıra qaydalar kimi dillə ifadənin vahid formasına uyğun gəlirdi. Üslub bu formada bütün Avropa dillərinə keçmişdir. Antik üslubiyyatın vəzifəsinə ifadənin gözəlliyini və münasdiblini öyrənmək daxilidi. Natiqin niyyətinə uyğun gələn ifadə ideal üslub sayılırdı. Buradan da üslubun obyektiv kateqoriya olması ortalığa çıxır" (Bayramov, Rüstəmov, 2016: 360).

Antik ritoriklərə görə üslub dinləyicilərə psixoloji cəhətdən güclü təsir göstərən, onları ram etmək, inandırmaq kimi xüsusiyyətləri özündə birləşdirir. Nitqin xüsusi növü olan üslub antik ritorika və poetikanın tərkib hissəsi kimi öyrənilmişdir. Üslubun əsas funkusiyası onun aydın, anlaşıqlı, başa düşülən tərzdə ifadə olunmasıdır. Natiqlər və ritorların nitqində bütün bu meyarların gözlənilməsi vacib məsələ idi. Çünki onlar bir çox məsələlərin həllində xüsusi usluba malik nitqləri ilə qarşısındakıları inandırmağı bacarmalı idi.

"Üslub bu və ya digər ümumxalq, ümumilli təsir dairəsində işlədilən nitq vasitələrinin seçilməsi və birləşməsi, o xalqın ictimai təcrübəsində başqa vəzifə daşıyan, başqa məqsədə xidmət edən ifadə vasitələri ilə nisbi müqayisədə götürülən priyomların ictimaiyyət tərəfindən dərk edilmiş, təkmilləşmiş və funksional cəhətdən sərtləşmiş, daxilən birləşmiş məcmusudur" (Ağakişiyeva, 2008: 136).

Baş verən yeniliklər, inkişaf və dəyişmələr nitqin ümumi mənasının dəyişməsinə səbəb olur. Bununla da ritorika ədəbiyyata təsir göstərərək XVIII əsrin sonuna qədər onunla əlaqədə inkişaf edir, XIX əsrdən başlayaraq ritorika zəifləyərək vacibliyini itirir. Beləliklə üslubun öyrənilməsində digər ellər aktuallıq qazanır. Bu sahədə filologiya elmlərinin mühüm rolu danılmazdır. İlk vaxtlar üslub anlayışı ədəbiyyat və ədəbiyyat nəzəriyyəsinin tərkibində geniş şəkildə istifadə edilirdi və onun bir hissəsi hesab edilirdi. Ancaq tədricən dilin üslubi xüsusiyyətlərinin öyrənilməsinə maraq artdıqca üslub dil vahidlərini izah etməyə başladı.

**Dilçilikdə üslubların formalaşması.** "Dildə üslubların meydana gəlməsi, öz vahidlərini standartlaşdırması və normalarını müəyyənləşdirməsi milli dilin zənginliyindən xəbər verir. Hər hansı bir milli ədəbi dilin əsas xüsusiyyətlərindən biri funksional üslubların bütünlükdə meydanda olmasıdır" (Cəfərova, 2008: 148).

İnsan fəaliyyətinin demək olar ki, bütün sahələrində ünsiyyət əsas elementdir. Ünsiyyətin kökündə isə dil amili dayanır. Cəmiyyət daxilində insanlar bir-birlərinə fikirlərini, duyğularını çatdırmaq üçün dil vasitələrindən məqsədyönlü şəkildə seçib işlədirlər ki, bunun nəticəsində isə dilin üslubları yaranır. Üslublar inkişaf edən cəmiyyətin konkret bir dövründə yarandığı üçün onların tarixi elə dil yaranmağa başlayanda başlamış hesab edilir. Onların formalaşmasında mövud dil xüsusiyyətləri nəzərə alınır.

Cəmiyyətin tarixi inkişafı ilə bağlı olaraq ədəbi dil üslubi cəhətdən şəkillənir. Üslublar ədəbi dilin müxtəlif ictimai-mədəni həyatının inkişafına uyğun təşəkkül taparaq genişlənir. Ədəbi dilin ictimai vəzifəsini həyata keçirilməsində dilin üslubları sistemli şəkildə fəaliyyət göstərir. Bunun nəticəsində müxtəlif üslublar yaranır və cəmiyyətə dilin təsiri bu prosesdən başlayır.

"Ədəbi dil bir sıra spesfik xüsusiyyətləri ilə fərqlənən və belə xüsusiyyətlər, əlamətlər sistemi ilə də qollara ayrılan vahid ümumxalq dilinin ali forması kimi anlaşılmalıdır. Bu isə o deməkdir ki, ədəbi dilin əsasını ümumxalq dili vahidləri hamı üçün ümumi olan cəhətlər təşkil edir. Lakin bununla yanaşı olaraq bir sıra məhdud sahələrlə əlaqədar spesifik cəhətlərə malik olduğundan ədəbi dil ifadəlilik vasitələri sisteminə görə müxtəlif qollara ayrılır ki, buna da ümumiləşdirilmiş halda ədəbi dilin üslubları deyilir" (Dəmirçizadə, 1962: 272). Bu mülahizələr ədəbi dil və üslublar haqqında Ə.Dəmirçizadənin fikirlərinin ümumiləşdirilmiş formasıdır.

Üslubları təsnif edərkən onların əlamə, keyfiyyət və kəmiyyət göstəricilərinə diqqət yetirilməsi zəruri məsələlərdən biridir. Dünya dilçilik elmində ədəbi dilin funksional üslublarının qərarlaşdırılmasında və qruplaşdırılmasında müəyyən çətinliklər özünü göstərir. Bir çox səbəblər bu çətinliklərin yaradır. Məhz buna görədir ki, üslubların müəyyən bir sistemə əsaslanaraq hərtərəfli öyrənilməsi üçün dilçilik elmində konkret meyarlar mövcud deyil. Amma bununla birlikdə müxtəlif dövrlərdə üslubların müəyyənləşməsində bəzi zəruri əlamətlər başlıca götürülmüşdür.

"Dünya dillərində təşəkkül tapmış hər bir funksional üslub tədricən zənginləşmə və təkmilləşmə yolu keçir. Funksional üslubların inkişaf tarixi ümumxalq dilinin ədəbi qolunun tarixi ilə bağlı olur. Üslubların inkişafına dildaxili amillərlə bərabər dilxarici amillər də öz təsirini göstərir. Dilxarici amillər – dil kontaktları, əlaqələr, qarşılıqlı təsir bu prosesdə xüsusi rol oynayır. Dil, dövlət quruluşu, siyasət üslubların formalaşmasına öz təsirini göstərir" (Qurbanov, 2019: 512).

## Nəticə

Dildə mövcud olan üslubların yaranması, inkişafı və fəaliyyət dairəsi müxtəlif olur. Belə ki, onlardan biri tez, biri gec yaranır və ya paralel şəkildə inkişaf edir. Bir üslub həmişə daha fəal, aktiv və istiqamətverici keyfiyyətləri ilə digərlərindən fərqlənərək onlara da öz müsbət təsirini yansıdır. Bu hal dilə dinamiklik və yenilik qazandırır. Dildə mövcud olan milli xüsusiyyətlər üslubların formalaşmasına birbaşa təsir göstərir. Milli mədəniyyət və ənənə, dini təbliğat, dövlətin strukturu, dil siyasəti və dil kontaktı kimi faktorlar dilin funksional üslublarının təşəkkül tapmasına, formalaşmasına spesfiklik qazandırır. Üslublardan danışarkən onu da qeyd etmək lazımdır ki, dilin funksional üslubları o dildə danışan şəxslərin iradəsindən asılı olmayaraq formalaşır.

## Ədəbiyyat

1. Ağakişiyeva, Ş. (2008). "Ədəbi dilin normaları və üslubları". Bakı, 136 s.
2. Bayramov, A., Rüstəmov, Ə. (2016). "Azərbaycan dili və nitq mədəniyyəti" (dərslik), Sumqayıt: "Zəka Print" mətbəəsi, 360 s.
3. Cəfərova, Z. (2008). "Rəsmi-inzibati üslub". Bakı, 148 s.
4. Dəmirçizadə, Ə. (1962). Azərbaycan ədəbi dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 272 s.
5. Qurbanov, A. (2019). "Ümumi dilçilik". III cild (3 cilddə). Bakı, 512 s.

Göndərildi: 22.02.2023 Qəbul edildi: 05.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/53-56

**Rövzə Şaməmmədli**
Bakı Dövlət Universiteti
magistrant
rovzash@gmail.com

# TURİZM SFERASINDA İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ ƏSASLARI

**Xülasə**

Müasir texnologiyalar, ilk növbədə informasiya və rabitə texnologiyası (İKT), turizm sənayesinin gələcək istiqamətinin və inkişaf tempinin müəyyən edilməsində, aparıcı rola malikdir. İKT turizm bazarında tələb və təklif tərəfləri arasında yeni əlaqələrin qurulmasında yaxından iştirak edir. İKT-nin turizm sənayesinə inteqrasiyası turizm müəssisəsinin uğuru üçün vacibdir. İKT fərdin istənilən vaxt istənilən yerdən turizm məhsulları haqqında məlumat əldə etməsinə şərait yaradır. Əslində, İnformasiya Texnologiyaları təkcə turizmin inkişafında mühüm rol oynamayıb, həm də turizm fenomenini dünyanın hər yerinə yayaraq səyahəti daha təhlükəsiz etmişdir. Turizm müəssisələri mobil kompüterlər, veb texnologiyaları və s. meydana çıxdıqdan sonra klaviaturada bir kliklə bütün dünya üzrə hədəf müştərilərə çata bilirlər. Turizm sənayesinin yayılması, təhlükəsizliyi və digər aspektləri baxımından inkişaf etmiş İnformasiya Texnologiyalarının rolu bu məqalədə nəzərdən keçirilir.

***Açar sözlər:*** *informasiya texnologiyaları, internet, turizm sənayesi, səyahətçi, inkişaf*

**Rovza Shamammadli**
Baku State University
master student
rovzash@gmail.com

## Fundamentals of application of information technologies in the sphere of tourism

**Abstract**

Modern technologies, primarily information and communication technology (ICT), have a leading role in determining the future direction and pace of the tourism industry development. ICT is closely involved in establishing new relationships between supply and demand parties in the tourism market. The Integration of ICT in the tourism industry is an essential for success of tourism enterprise. ICT facilitates an individual to access the tourism products information from anywhere any time. In fact, Information Technology or IT has played a critical role not just in the advancement of tourism, but it has helped inspreading the phenomenon of tourism to every part of the world and has made travel safer. Tourism enterprises can also reach the targeted customers across the globe in a single click on the keypad after emergence of mobile computers, web technologies etc. The role of Information Technologies which has developed in terms of the tourism industry's proliferation, safety and other aspects are overviewed in this paper.

***Keywords:*** *information technology, internet, tourism industry, traveller, development*

## Giriş

Müasir dövrdə informasiya texnologiyalarının inkişafı və eləcə də tətbiqi cəmiyyətin müxtəlif sferalarında mühüm əhəmiyyət kəsb edən mövzulardan biridir. Bu hal özünü turizm sferasında da göstərir. Belə ki, turizm günümüzə qədər həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr tərəfindən xüsusi diqqət göstərilən və daim inkişaf etdirilən bir sahədir.

Turizmin anlayışına beynəlxalq sənədlərdə və ayrı-ayrı dövlətlərin milli qanunvericiliklərində müxtəlif formalarda qarşılaşmaq mümkündür. "Turizm haqqında" Azərbaycan Respublikası

Qanununun 1-ci maddəsi əsas anlayışlara həsr olunmuşdur. Həmin maddədə turizmə - fiziki şəxslərin getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, mədəni, tarixi və təbii irslə tanışlıq, sağlamlıq, bərpa və digər məqsədlərlə daimi yaşadığı ölkənin (yerin) hüdudlarından kənara müvəqqəti səyahəti kimi anlayış verilmişdir (1).

Turizm dünyanın ən böyük xidmət sənayesi kimi tanınır. Turizm istər konkret turizm məkanları və mərkəzlərinin gətirdiyi gəlirlər, istərsə də onunla əlaqəli digər sahələrdən əldə olunmuş vəsaitlər baxımından geniş iqtisadi əhəmiyyətə malikdir. İqtisadi fenomen kimi turizm inkişaf etməkdə olan iqtisadiyyatlar və ölkələr üçün böyük imkanlar təqdim edir. Belə ki, o, yeni iş yerləri yaradır, yerli iqtisadiyyatı gücləndirir, yerli infrastrukturun inkişafına töhfə verir, təbii mühitin, mədəni sərvətlərin və ənənələrin qorunmasında, yoxsulluğun və bərabərsizliyin azaldılmasında xüsusi əhəmiyyət kəsb edir. Hazırkı dövrdə turizmin belə bir əhəmiyyətli mövqeyə gəlib çıxmasında müasir texniki vasitələrin inkişafının və onların bu sahədə tətbiq olunmasının mühüm rolu vardır. Bu baxımdan beynəlxalq turizmin təşkil olunmasında müasir informasiya texnologiyalarının rolunun aydınlaşdırılması və tətbiqinin öyrənilməsi maraq doğuran məsələlərdəndir.

İnformasiya texnologiyaları dedikdə hesablama texnikası əsasında məlumatların toplanması, saxlanılması, axtarışı, işlənmə üsullarının müəyyən sıralanması başa düşülür. İnformasiya texnologiyaları ilə idarəetmə texniki və proqram mühitinin ayrılmaz hissəsidir. İnformasiya və kommunikasiya texnologiyalarının təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə etmişdir. Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun, bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur.

İnformasiya texnologiyaları turizm sənayesində tələbin artırılmasında yeni üsul kimi mühüm rol oynayır ki, bu da öz növbəsində turizm sənayesini daha da inkişaf etdirməklə yanaşı, daha çox turist cəlb edir və daha çox gəlir əldə edir. Turizm 30 ildən artıqdır ki, informasiya texnologiyalarının inkişafı ilə sıx bağlıdır. 1970-ci illərdə Kompüter Rezervasiya Sistemlərinin (CRS), 1980-ci illərin sonunda Qlobal Paylama Sistemlərinin (GDSs) və 1990-cı illərin sonunda internetin yaradılması turizmdə əməliyyat və strateji təcrübələri kəskin şəkildə dəyişdirdi. Beləliklə, müştərilər turizm sənayesində nümayiş etdirilən təklifə birbaşa daxil olmaq imkanı əldə etdilər. 1980-ci illərdən etibarən İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) dünya miqyasında turizm sənayesinə imkan yaratmışdır. Səyahət və turizm sənayesi bütün dünyada 198 milyondan çox iş yeri yaratmış və 2002-ci ildə bir çox ölkələrin ümumi milli məhsulunun 10%-ni təşkil etmişdir. Hal-hazırda İnternet və İKT bütün operativ, struktur, strateji və marketinq səviyyələrində dünya üzrə təchizatçılar, vasitəçilər və istehlakçılar arasında qlobal qarşılıqlı əlaqəni asanlaşdırmaq üçün aktualdır.

Turizm üzrə ixtisaslaşmış beynəlxalq təşkilat olan Ümumdünya Turizm Təşkilatı iddia edir ki, "uğurun açarı istehlakçı ehtiyaclarının tez müəyyən edilməsində və potensial müştərilərə hərtərəfli, fərdiləşdirilmiş və müasir informasiya ilə çatmaqdadır". Müasir səyahətçilər təqdim olunan turizm məhsulunun həm həcmi, həm də keyfiyyəti baxımından daha əlverişli vasitə olan informasiya texnologiyalarının geniş tətbiq olunduğu turizm şirkətlərinə üz tuturlar (WTO, Guidelines for the transfer of new technologies in the field of tourism, 1988).

Turizm sənayesində informasiya texnologiyalarının istifadəsi həm turizm tələbinin ölçüsünün və mürəkkəbliyinin inkişafı, həm də mini-bazar seqmentlərinə müraciət edən yeni turizm məhsullarının sürətli genişlənməsi və təkmilləşməsi ilə şərtlənir. Belə ki, yeni, təcrübəli, inkişaf etmiş, tələbkar səyahətçilər xüsusi ehtiyaclarını və istəklərini təmin edən daha ekzotik istiqamətlər və orijinal təcrübələr haqqında məlumat axtarır, həmçinin tədarükçülərlə qarşılıqlı əlaqə qurmağı tələb edirlər. Turizm tələbatını ödəmək və uzunmüddətli perspektivdə sağ qalmaq üçün texnologiyanı birləşdirmək və bazarla interaktivliyi artırmaq gərəklidir. İnformasiya texnologiyaları səyahətçilərə etibarlı və dəqiq məlumat əldə etməyə, həmçinin ənənəvi üsullarla tələb olunan vaxt, xərc və narahatlığa görə rezervasiyaları daha rahat üsullarla həyata keçirməyə imkan verir. Müştəri məmnuniyyəti təyinatların əlçatanlığı, imkanları, attraksionları və fəaliyyətləri haqqında xüsusi məlumatların dəqiqliyi və əhatəliliyindən çox asılıdır. Bundan əlavə, informasiya texnologiyaları bir

sıra digər amilləri ilə istehlakçıların məmnunluğunu artırır. Yəni, istehlakçılara daha çox seçim imkanı təqdim etməklə, informasiya mübadiləsi yaradır, bürokratiyanın və kağız işinin azaldılması ilə müştərilərə xidmət üçün vaxta qənaət etmək imkanı yaradır; loyallıq sxemləri tərəfindən toplanmış kəşfiyyat məlumatlarından istifadə etməklə məhsulun fərdiləşdirilməsini reallaşdırır; yeni xidmətlər göstərir (məsələn, uçuşda və ya otaqda əyləncə və məlumat kanalları); əməliyyat tapşırıqlarını asanlaşdırır (məsələn, otaqda televizorun yoxlanılması); fərdi xidmətlər həyata keçirir (məsələn, telefon operatoru qonağı öz adı ilə tanıyır) və nəhayət, daha yaxşı xidmət üçün təşkilatların şöbə və funksiyalarının daha yaxşı inteqrasiya edir (Egger, Buhalis, 2008).

Turizmdə tələbin idarəedilməsi üçün güclü CRS-lərin (kompüter rezervasiya sistemləri) tətbiq edilməsi artıq məcburi xarakter daşıyır, çünki internetdən istifadə, turistik xidmətləri onlayn sifariş edən müştərilərin sayında artım nəzərə çarpmaqdadır. Kompüter Rezervasiya Sistemləri (CRS) və getdikcə artan İnternet provayderləri şəffaf və müqayisəsi asan məlumatlara rahat giriş üçün istehlakçı ehtiyaclarını ödəyir. Komputer rezervasiya sistemləri müştərilərin gediləcək yer, səyahət paketləri, səyahət, mehmanxana və əyləncə xidmətləri, qiymətlər və s. kimi mövzularda ehtiyaclarını qarşılayır. Bu sistemlər müştərilərə son dəqiqə rezervasiya etmə imkanı və çeviklik təqdim edərək, həmin dəqiqə rezervasiya təsdiqi və sürətli məlumatlandırma kimi məsələlərdə müştərilərin geniş faydalanmasına şərait yaradır (4).

İnformasiya texnologiyalarının təsiri özünü həm özəl, həm də dövlət sektorunun turizm istehsalı, marketinqi, paylanması və əməliyyat funksiyalarında göstərir. İdarəetmə münasibətinin yeni biznes mühitinə uyğunlaşdırılması və fövqəladə imkanlardan istifadə etməsi şərti ilə informasiya texnologiyaları həmçinin işçilərin mənəviyyatını, idarəetmə effektivliyini, məhsuldarlığını və nəticədə turizm təşkilatlarının gəlirliliyini artıra bilər.

Turizm sənayesi beynəlxalq səyahət sənayesinin ən az avtomatlaşdırılmış seqmentidir. Ön ofis, satış, planlaşdırma və əməliyyat funksiyalarını asanlaşdırmaq üçün Əmlakın İdarə Edilməsi Sistemləri (PMS) tətbiq edilmişdir. Bu, bütün rezervasiyalar, tariflər, doluluq və ləğvlərlə məlumat bazasını idarə etməklə əldə edilmişdir. Turizm təşkilatları inventar idarəçiliyini təkmilləşdirmək, istehlakçılarla qarşılıqlı əlaqə qurmaq və əməliyyat xərclərinin bir hissəsini azaltmaq üçün getdikcə daha çox komputerləşdirilmiş sistemlərdən istifadə edirlər. İKT turizm agentliklərinin daxili təşkilində böyük təkmilləşdirmələr təqdim etdi. Səyahət agentlikləri öz bek-ofislərini (məsələn, mühasibat uçotu, komissiya monitorinqi və işçi heyəti) və ön ofis (müştərilərin tarixi, marşrutun inkişafı, bilet satışı və təchizatçılarla əlaqə) funksiyalarını birləşdirərək, əhəmiyyətlilik, səmərəlilik və xərclərə qənaət əldə etmişlər. Filiallarda aparılan əməliyyatlar avtomatik olaraq baş ofisə bildirilə bildiyi üçün daha sərt maliyyə nəzarətinə nail olmaq mümkün olmuşdur.

Fərdi səviyyədə CRM sistemləri agentliklərə onların səmərəliliyi, nəzarəti və rəqabət qabiliyyətinin fəaliyyətini izləməkdə dəstək verir. Məlumat anbarında məlumatların saxlanması, həmçinin onlara xüsusi məhsullarla fərdi müştəriləri hədəfləmək, bununla da hər bir müştəriyə təklif olunan əlavə dəyər xidmətlərini artırmaq və vasitəçiliyin aradan qaldırılmasından qorunmaq üçün proaktiv marketinq alətlərini inkişaf etdirməyə kömək edə bilər. Beləliklə, agentliklər yenilənmiş İKT-dən təchizatçılar və müştərilərin istifadəsi ilə bərabər istifadə etməlidirlər (E-tourism. Information technology for strategic tourism management, 2003).

## Nəticə

Təhlillərdən belə nəticəyə gələ bilərik ki, İKT turizmin inkişafında böyük rol oynayır və buna görə də turizm sənayesinin genişlənməsinin qaçılmaz hissəsidir. Otel və turizm təşkilatlarının əksəriyyəti ən son İKT tendensiyaları ilə təkmilləşdirilməlidir. Səyahət turizmdə vacib ünsürlərdən biridir, ona görə də onlayn rezervasiyalar, xüsusən də yaşayış üçün mühüm rol oynayır. İnformasiya texnologiyalarının inkişafına nail olmaqda əsas məqamlardan biri də turizm təhsilində İKT tendensiyalarına xüsusi əhəmiyyət kəsb etməsidir. Qeyd etmək olar ki, bu, turizm sənayesində biznes qurmağın ən səmərəli yolu informasiya texnologiyalarının düzgün tətbiq edilməsidir. Bu istiqamətdə, turizm təşkilatları müştərilərə daha çox xidmət göstərməlidirlər.

## Ədəbiyyat

1. "Turizm haqqında" Azərbaycan Respublikası Qanunu https://e-qanun.az/framework/49162
2. WTO, Guidelines for the transfer of new technologies in the field of tourism. (1988). Madrid: World Tourism Organisation.
3. Egger, R., Buhalis, D. (2008).
4. E-tourism case studies: management and marketing issues. Burlington: Elsevier Ltd. https://www.taylorfrancis.com/books/edit/10.4324/9780080942865/etourism-case-studies-roman-egger-dimitrios-buhalis
5. E-tourism. Information technology for strategic tourism management. (2003). Prentice Hall Buhalis.

Göndərildi: 22.02.2023 Qəbul edildi: 02.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/57-60

**Orxan Quluzadə**
Azərbaycan Dövlət Neft və Sənayə Universiteti
magistrant
quluzadeorxan099@gmail.com

# BİZNES FƏALİYYƏTİNDƏ UĞURLU STRATEGİYALAR

**Xülasə**

Mövzunun tədqiqində məqsəd öz biznes fəaliyyətlərində böyük uğurlar qazanan şirkətlərin tətbiq etdiyi müxtəlif metod və yanaşmaları, strategiyaları dəyər-ləndirərək biznez fəaliyyətlərini böyütmək istəyən sahibkarlara diqqət etməli olduqu nüansları və öz biznes strategiyalarını yaratmaqda ilham ala biləcəyləri uğurlu biznes strategiyalarını çatdırmaqdan ibarətdir.Tədqiqat zamanı beş böyük biznes müəssisə sinin tətbiq etdiyi strategiyalara toxunulmuşdur. Bunlar Tesla, Toyota, Spotifay, Amazon və Starbuck şirkətləridir. Qeyd olunan müəssisələrin uğurunun açarı olaraq, apardıqları analizlərdən gəldiyi nəticələrlə tətbiq etdikləri strategiyaları qeyd etsək, yəqin ki, yanılmarıq. Hər birinin özünə xas olan metodları, taktiki gedişatları biznes dünyası üçün tam olaraq bir dərs nitəliyindədir. Bu baxımdan bu mövzunun tədqiqinin praktiki olaraq biznes fəaliyyətinə böyük töhfələri olacaqdır. Nəzərə almaq lazımdır ki, düzgün seçilmiş strategiya qarşıya qoyulan məqsədə çatmaqda açar rol oynadıqı kimi effektiv olmayan strategiya biznes fəaliyyətini uçuruma sürüklüyə bilər.

***Açar sözlər:*** *biznes, strategiya, sahibkar, metod, uğur*

**Orkhan Guluzade**
Azerbaijan State Oil and Industry University
master student
quluzadeorxan099@gmail.com

## Successful strategies in businness activity

**Xülasə**

The objective of the study is to deliver a variety of methods and approaches applied by companies that have made great strides in their business activities, the nuances that they need to focus on entrepreneurs who want to grow their business activities by valuing strategies, and successful business strategies that they can be inspired to create their own business strategies. The study touched on strategies employed by five large business enterprises. These are Tesla, Toyota, Spotifay, Amazon and Starbuck. As a key to the success of the registered agencies, we are probably not mistaken if we note the strategies they apply with the results they come from their analysis. Each of them has its own methods, tactics, and tactics. In this respect, the study of this topic will practically have a major contribution to business activity. It should be noted that a strategy that is not as effective as a properly chosen strategy plays a key role in achieving the goal ahead could drive business activity into the cliff.

***Keywords:*** *business, strategy, entrepreneur, method, success*

## Giriş

Sahibkarlıq fəaliyyətində müəyyən məqsədlərə nail olmaq üçün biznesin rəhbərliyi bir sıra fəaliyyət və seçimlər həyata keçirməklə məşğul olur. Bu isə biznes strategiyası kimi tanınır. Bu strategiyanı həyata keçirməklə, idarə öz rəqiblərini müəyyən bir işdə üstələməyə, müştərilərini qane etməyə, effektiv əməliyyatlar həyata keçirməyə, daxili idarəetməni tənzimləməyə çalışır. Rəhbərlik dəqiq seçilmiş biznes strategiyasını həyata keçirməklə potensial imkanları effektiv şəkildə tanıya,

qiymətləndirə və onlardan faydalana, gözlənilən problemləri bacarıqla idarə edə və onlara uyğunlaşa bilər (1).

Tesla avtomobil sənayəsinin mənzərəsini əhəmiyyətli dərəcədə dəyişdirmək niyyəti ilə "mürəkkəb kordinasiya" adlandırılan fərqli bir yanaşmadan istifadə edir. Onların yanaşması vahid şəkildə birləşən çoxsaylı yeni komponentlərin yaradılmasını nəzərdə tutur. Sözügedən müəssisənin marketinq, istehsal, satış və texnologiya strategiyaları digər sənayə rəqibləri tərəfindən istifadə edilənlərə müqayisədə nəzərəçarpacaq dərəcədə fərqli xüsusiyyətlər nümayiş etdirir. Teslanın avtomobil sənayəsindəki strategiyası ilkin olaraq zəngin istehlaçıları hədəf almağa diqqət yetirməklə, texnoloji məhsulların ənənəvi həyat dövrlərini təqlid etməyə əsaslanır. Daha sonra məhsul aşağı qiymət strategiyaları vasitəsilə daha böyük bazarlara nüfuz edəcəkdir. Hər bir müvafiq model üçün akkumulyator və elektrik ötürücü texnologiya-sının maliyyələşdirilməsi və təkmilləşdirilməsi əvvəlki iterasiyaların satışından əldə edilən gəlirdən asılıdır. Teslanını texnoloji strategiyası təmiz elektrik mühərriki texnologiyasının tətbiqi və inkişafına, həmçinin texnologiya sənayəsində istifadə olunan digər yanaşmaların nəqliyyat sənayəsinə tətbiqinə əsaslanır. Misal olaraq online proqram təminatının yenilənməsini göstərmək olar. Tesla öz texnoloji patentlərindən vicdanla hərəkət edən bütün şəxslər tərəfindən istifadə edilməsinə icazə verir. Digər tərəfdən Tesla, texnologiyasının birbaşa təkrarlanmasının qarşısını almaq məqsədi ilə qalan əqli mülkiyyəti, xüsusən də ticarət nişanları və ticarət sirləri üzərində səlahiyyətlərinə nəzarət edir (2).

Toyota Yaponiyanın ən böyük avtomobil korporasiyası hesab olunur. Təməl avtomobil dizaynlarının inkişafı və tanıtım kompaniyaları üçün əhəmiyyətli maliyyə resurslarının ayrılması sayəsində, münasib qiymət və yüksək keyfiyyətli avtomobillər istehsal etməklə toyota qlobal avtomobil istehlakçıları bazarında böyük bir nüfuz qazandı. Avtomobil istehsalı sahəsindəki həmkərları ilə müqayisədə toyota qiymətlərin azaldılması strategiyasını həyata keçirirdi. Toyota rəhbərliyinin fikrinə görə satın- alma funksiyası yüksək keyfiyyət standartlarına malik məhsulların istehsalına heç bir güzəşt olmadan çəkilən xərclərin minimum səviyyədə saxlanmasını təmin etməklə, uzun müddət ərzində mal və xidmətlərin satın alınmasını əhatə etməlidir. Tipik olaraq təşkilatlar nəzərdə tutulan gəliri azaltmaqa meylli deyillər və bunun əvəzinə müvafiq satış qiymətini müəyyən etmək üçün xərclərin gözlənilən mənfəətlə birləşdirilməsini nəzərdə tutan metodologiyaya riayət edirlər: maya dəyəri+mənfəət=son qiymət. Toyota öz strategiyasının formalaşdırılmasında özünəməxsus bir yanaşma tətbiq edir, bu yanaşma qiymət-xərc=mənfəət tənliyinə əsaslanır. Bu strateji idarəetmə bütün sənayələr üzrə təşkilatların əməliyyat nəticələrinə dərin təsir göstərir. Toyotaya görə şirkətin rəqabət qabiliyyəti insan kapitalı və texnoloji irəliləyişlərin inteqrasiyasından qaynaqlanır. Toyota işçi personalın toyota mədəniyyətini və dəyərlərini effektiv şəkil- də mənimsəmələri üçün qlobal təşəbbüslər həyata keçirir. Toyotanın avtomobil sə- nayəsində üstün mövqeyə sahib olmasının əsas səbəbi kimi şirkətin həyata keçirdiyi cəlbedici strateji idarəetmə siyasəti ilə əlaqələndirilir (3).

2008-ci ildə Spotify-ın istifadəyə verilməsi musiqi sənayesində paradiqma dəyişikliyinə səbəb oldu. Bu platforma Napster və The Pirate Bay kimi sələflərin musiqini paylaşmaq imkanını əhatə edən ən əlverişli cəhətlərini birləşdirdi və bu cür funksionallıqları qanuniləşdirdi. Bundan əlavə, iTunes və Pandora-nın üstün xüsusiy- yətlərini, xüsusilə eşitmə istehlakı üçün istənilən məzmunu seçmək imkanını inteqrasiya etdilər və optimal funksionallığa nail olmaq üçün onları inkişaf etdirdilər. Geniş şəkildə qəbul edildiyi kimi, yuxarıda qeyd olunan yanaşma ticarət sahəsində olduqca uğurlu bir taktika olduğunu sübut etmişdir. Spotify müştərilərini biznes strategiyanın mərkəzi aspekti kimi effektiv şəkildə prioritetləşdiridi. Əhalinin mövcud musiqi platformalarının məhdud təbiətindən narazılıq nümayiş etdirməsinin müşahi-dəsi, istehlakçıların tələb və istəklərinə əməl etməyə üstünlük verən yeni bir xidmət hazırlamaq qərarı ilə nəticələndi. Təşkilat platformanın asan və istifadəçi dostu olmasını təmin etmək üçün texnoloji irəliləyişlərə və bacarıqlı mühəndislik istedadına resurslar ayırdı. Bu tədbirlərin uğurla həyata keçirilməsi optimal istifadəçi təcrübəsini asanlaşdırdı. Spotifayın populyarlığı, arıların bala cəlb edilməsinə bənzər şəkildə yüksəldi, çünki o, fərdlərə muxtariyyət və çox arzu olunan musiqi seçimlərinə təsir göstərməyə imkan verdi. Spotifay tərəfindən qəbul edilən freemium biznes modeli onun davamlı uğurunda mühüm töhfə kimi

müəyyən edilmişdir. Xidmət təminatçısı əlavə funksiyalar və rahatlıq istəyənlər üçün premium alternativlərlə yanaşı, öz xidmətlərinin pulsuz versiyasını təqdim etdi. Bu yanaşmadan istifadə etməklə, onlar həm pulsuz, həm də abunə əsaslə istehlakçılardan gəlir əldə etməklə böyük bir istifadəçi bazasına sahib ola bildilər. Bu modelin tətbiqi Spotifyın gözlənilən biznes məqsədlərini əhəmiyyətli dərəcədə üstələyərək istifadəçi bazasının və gəlirinin sürətlə genişlənməsində mühüm rol oynadı (4).

Amazonun genişlənməsi və maliyyə qazancı baxımından əldə etdiyi nailiyyəti müəssisənin dörd əsas prinsipinə istinad etmək olar. İlkin olaraq, Bezos, üstün bazar mövqeyinə can atmaq əvəzinə, müştərilərinə optimal xidmətin çatdırılmasına üstünlük verən müştəri mərkəzli bir yanaşma nümayiş etdirir. Amazon biznes strategiyasının mühüm aspekti kimi müştəri təcrübəsinin artırılmasına böyük üstünlük verir. Bu müştərilərin ehtiyaclarını ödəməyə yönəlmiş yeni xidmət və məhsulların daimi inkişafı və innovasiyası ilə əldə edilir. İkinci olaraq, Bezos, İnnovasiya strategiyası, təkcə yara- dıcılığı nümayiş etdirmək və ya maraqlı tərəfləri təsirləndirmək məqsədi ilə deyil, ənənəvi təcrübələrdən yan keçmək üçün yeni metodologiyaların işlənib hazırlanmasına fəlsəfi yanaşmadır. Hazırda amazon həm süni intellekt texnologiyasında, həm də kosmosun tədqiqində innovasiyaları səylə davam etdirir.

Bundan əlavə onun özəl kosmik müəssisəsi müştəri məmnuniyyətini artırmaq üçün yeni yanaşmalar kəşf etməyə çalışır. Üçüncü olaraq, Bezosa görə korporativ çeviklik, təşkilatın əməliyyatlarının sürətinə və miqyasına baxmayaraq, dəyişikliklərə dərhal uyğunlaşmaq və effektiv cavab vermək qabiliyyətinə aiddir.

Biznes sferasında dəyişikliklərə çevik şəkildə uyğunlaşmaq və onlara reaksiya vermək bacarığı rəqabət üstünlüyünü qorumaq üçün çox vacibdir. Son olaraq isə Bezosa görə Optimallaşdıma, səmərəliliyin artırılmasına və müştərilər üçün üstün dəyər yaratmağa yönəlmiş proseslərin davamlı təkmilləşdirilməsinə aiddir. Problemin həlli əhəmiyyətli vaxt və resursların sərmayə- sini tələb edir. buna baxmayaraq, bu cür səylərdən əldə edilən mükafatlar uzun müddət ərzində gəlirliliyi artıraraq əhəmiyyətli ola bilər (5).

Starbuck tərəfindən tətbiq edilən biznes strategiyası məhsulun fərqləndirilməsi kimi təsnif edilə bilər. Şirkətin strategiyasına uyğun olaraq, aparıcı qəhvə zənciri müştərilərinin yüksək keyfiyyət müqabilində daha yüksək xərclər çəkməyə hazır olduğu təkliflərinin üstün standartını vurğulayır. Müstəsna müştəri xidmətlərinin göstərilməsi Starbacksın rəqabət üstünlüyünü gücləndirməkdə mühüm töhfə verən amil kimi ortaya çıxdı və beləliklə, bu qəhvə satıcısının cazibəsini yüksəltdi. Çoxmillətli qəhvəxanalar zənciri, davamlı xidmət səviyyəsini qorumaq üçün müştəri-lərlə qarşılıqlı əlaqə quran vəzifələrdə işçilərinin böyük əhəmiyyətini lazımı hörmətlə qəbul edir. Nəticə etibarı ilə, təşkilat öz işçi qüvvəsini tərəfdaşlar kimi təyin edir və Bean Stock səhm təşviqi proqramı, sağlamlıq sığortası tənzimləmələri və rəqabətə davamlı əmək haqqı paketi daxil olmaqla, geniş üstünlüklər və imtiyazlar təqdim edir (6).

## Nəticə

Aparılan tədqiqat nəticə etibarı bizlərə, doğru seçilən strategiyaların biznes fəaliyyətini nə dərəcə yüksəklərə qaldıra biləcəyini təsdiqlədi. Beş böyük müəssisənin timsalında fərqli metodlar, fərqli yanaşmalar, strategiyalar görsəkdə hər birinin tək bir ortaq nöqtəsi var, biznes bazarını çox peşəkar şəkildə araşdırıb analiz etmələri.

Doğru aparılan araşdırmalar, analizlər və bunun yanında alınan risk uğurlu strategiyanın xəbərçisidir. Bunu da nəzərə almaq lazımdır ki, haqqında danışdıqımız şirkətlərin öz biznes fəaliyyətlərinə xas seçdikləri strategiyalar, izlədikləri yollar onları bügün ki gündə uğura daşımış olsada eyni strategiyaların gələcəkdə daima uğur qazandıracaqına və həmçinin onlarda uğurlu olan strategiyanın başqa biznes fəaliyyətindədə uğurlu olacağına təminat yoxdur. O baxımdan, strategiya seçimi zamanı öz biznes fəaliyyəti- nizə, mühitinizə, imkanlarınıza uyğun strategiyaların seçilməsi və gələcək yönümlü qarşılaşa biləcəyiniz problemlərlə yenik düşməmək üçün daim alternativ strategiya- larınızın olması mütləqdir.

## Ədəbiyyat

1. https://connects.world/business-strategy/
2. https://medium.com/@timcherkasov_55909/why-investors-respect-tesla-51b36fa60796
3. https://www.ukessays.com/essays/marketing/toyota-business-strategies-analysis-marketing-essay.php
4. https://www.cascade.app/blog/the-5-best-business-strategies-ive-ever-seen
5. https://www.studysmarter.co.uk/explanations/business-studies/business-case-studies/amazon-global-business-strategy/#:~:text=Amazon's%20main%20strategy%20is%20to
6. https://research-methodology.net/starbucks-coffee-business-strategy-2/#_ftnref3

Göndərildi: 26.02.2023 Qəbul edildi: 09.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/61-63

**Ayaz Teymurov**
Baku State University
master student
upayaz9@gmail.com

# ENSURING SECURITY DURING THE CARRIAGE OF PASSENGERS BY AIR IN THE TERRITORY OF THE EUROPEAN UNION

## Abstract

It is one of the issues related to the legal regulation of problems arising during important air transportation. So there are many developments in air travel which are used by more and more people every day. Finding and implementing solutions to these problems is a very important issue for the European Union. For this purpose, the European Union has many laws and other normative acts and it is possible to ensure that their security is maintained to the maximum extent. In addition, the European Union fulfills this function by establishing a number of governing bodies. Management issues can be considered in the article. In addition, this article focuses on the investigation of the activities aimed at ensuring the security of European security and its legal aspects.

***Keywords:*** *air transport, passenger transport, liberalization, legal regulation, passenger, security*

**Ayaz Teymurov**
Bakı Dövlət Universiteti
magistrant
upayaz9@gmail.com

## Avropa ittifaqı ərazisində hava yolu ilə sərnişin daşımaları zamanı təhlükəsizliyin təmin edilməsi

## Xülasə

Hava yolu ilə sərnişin daşımaları zamanı yaranan problemlərin hüquqi tənzimlənmə vasitəsilə həll edilməsi vacib məsələlərdəndir. Belə ki, hər gün daha çox insan tərəfindən istifadə olunan hava yolu ilə səyahət zamanı bir çox problemlər yaranır. Bu problemlərin həll yollarının tapılması və tətbiq edilməsi Avropa İttifaqı üçün çox vacib məsələdir. Bu məqsədlə Avropa İttifaqı bir çox qanunlar və digər normativ aktlar qəbul edərək sərnişinlərin təhlükəsizliyinin maksimum həddə saxlanılmasını həyata keçirir. Bundan əlavə bir sıra idarəetmə orqanlarının yaradılması ilə Avropa İttifaqı bu funksiyanı yerinə yetirir. Məqalədə təhlükəsizlik məsələlərinə fikir veriləcəkdir. Bundan əlavə bu məqalədə diqqət Avropa İttifaqının sərnişinlərin təhlükəsizliyinin temininə yönəlmiş fəaliyyəti və onun hüquqi aspektlərini araşdırmağa yönəlmişdir.

***Açar sözlər:*** *liberallaşma, hava nəqliyyatı, sərnişin daşımaları, hüquqi tənzimləmə, sərnişin, təhlükəsizlik*

## Introduction

When implementing the legal regulation of air transport, the safety issue is a factor that prompts both international and European Union legislators to regulate more seriously. After the attack on the World Trade Center on September 11, 2001, the issue of security became central to air travel, and as a result, the security costs of air carriers increased dramatically. After the mentioned event, the Commission added aviation security to the regulatory scope of the European Union by adopting Regulation EC2320/2002, which established general rules for civil aviation

security and harmonization within the European Union, which was repealed by Regulation EC300/2008, which entered into force in April (Svein, 2018: 20).

Improving the protection of persons using air transport services in the territory of the European Union and constantly regulating the legal documents has never been more important than now. At the level of the European Union, the goal is to create a balance between the desire to liberalize the market, which has been far from competition for a long time, and the need to ensure the maximum possible limit of passenger protection and safety (Eyvazova, 2018: 33).

Liberalization of air transport in Europe was carried out gradually in three successive stages, culminating in the adoption of a "legislative package" in July 1992, which resulted in the full opening of the market. An important factor in the implementation of the liberalization process was undoubtedly the decision of the Nouvelles Court of Justice. Frontieres of 1986 Application of competition rules to air transport confirmed by Case . This decision eliminated the existing role of Member States in approving tariffs based on agreements between airlines and transferred this power to the European Commission in accordance with the EC Treaty. It should also be noted that it is the duty of the Commission not to apply legislation or regulatory measures contrary to the Member States . For this, there is a decision of the Court of Justice which adopted Article 4(3) of the TEU together with Article 101 of the TFEU. The first phase began in 1987 with the initial partial liberalization process of regional flights, which included a number of provisions to prevent Member States from objecting to the introduction of new tariffs . The second phase of the liberalization process ended in 1990 and allowed European airlines to carry passengers to their home countries and to European Union Member States. These permits are also called the third or fourth ICAO exemption. In addition, " Fifth-Freedom " flights, i.e. intra-European flights with the right to pick up and drop off passengers during stopovers and stopovers in a third country, were allowed more. At the same time, fare restrictions were also abolished (Francesco, 2015: 14).

Until then, all European Union air carriers were allowed to serve any international route within the European Union and were given complete freedom to set fares. In 1997, as part of the third liberalization package, cabotage rights were granted to all European Union air carriers. So, with this right, the right to operate internal routes within the entire EU was given to air carriers. All commercial restrictions, such as restrictions on routes, number of flights or setting tariffs, have been removed for airlines operating flights within the EU (Francesco, 2015: 14).

In addition, as the volume of traffic increases, safety issues come to the fore. Thus, the question remains whether the liberalization process is positive for passengers in terms of safety standards. The increase in the number of air routes within the European Union has led to a decrease in the cost of air transport and a decrease in passenger dissatisfaction with the service offered by many operators. But it should be noted that a number of problems have emerged. It is important for passengers to fully understand their rights when problems arise . To achieve this goal, the European Union Commission adopted the Charter of Passenger Rights. Transportation security in the aviation sector improvement is the main objective of the transport policy of the European Union and a safe journey is an important right for passengers (4).

To carefully study some aspects of the European Union laws and examine the following in particular : 1. The issue of passenger safety; 2. Legal liability of the air carrier during accidents; 3. Protection of the passenger's right to privacy; 4. Protection of "secondary" rights of passengers. Recently, the European Union decided to consider these aspects together, considering them all important to ensure effective protection of passengers. The aim was to fill a gap in security legislation, where the only international source had long been the 1929 Warsaw Convention for the Unification of Certain Regulations Relating to International Carriage by Air. In addition, the aforementioned Convention has been slightly improved by the Montreal Convention of 1999 with the relevant changes along with its simplifying provisions (Dam, 2011: 261).

The EU legislature's concern for passengers is evident from the work of the Commission for the Protection of Air Passengers in the European Union, where a campaign is already underway to make passengers aware of their rights. With the publication of the Charter of Passenger Rights

established by the European Union, even better conditions were created for the protection of rights . In addition, the European Union established the European Union Aviation Safety Agency (EASA) in 2002 to ensure safety during passenger transport . This Agency is responsible for safety during transport activities within the European Union plays a very important role in its protection. The European Union Aviation Safety Agency (EASA) is an agency of the European Union with responsibility for civil aviation safety. It carries out certification, regulation and also performs investigation and monitoring. It collects and analyses safety data, drafts and advises on safety legislation and co-ordinates with similar organisations in other parts of the world. The idea of a European-level aviation safety authority goes back to 1996, but the agency was legally established only in 2002; it began its work in 2003. We can say that the security measures of the European Union should be followed by all the countries of the world (6).

## Conclusion

In conclusion, we can note that the European Union tries to take maximum measures to ensure the safety of passengers. Thus, the European Union has adopted many laws and regulations to regulate security- related issues. As a result of these acts, the security during passenger transportation in the European Union has been regulated to the maximum extent. In addition, the European Union Aviation Safety Agency (EASA) was established by the European Union in relation to safety issues. As a result of the activities of this Agency, many security measures are implemented at a high level. The European Union ensures the implementation of security measures on the one hand with the licensing policy. Thus, the European Union has achieved further strengthening of security by assigning the authority to issue licenses to an authorized institution. The European Union successfully continues the policy of ensuring safety during passenger transportation both on its territory and outside its territory.

## References

1. Svein, G. (2018). European Air Transport Regulation. UK: “Scott House”, 60 p.
2. Eyvazova, S. (2018). Avropa İttifaqı və Azərbaycan Respublikası əməkdaşlığının hüquqi əsasları. Bakı: “Azərnəşr”, 33 s.
3. Francesco, R. (2015). EU Safeguarding Air Passenger Right. Italy: “Springer International Publishing”, 371 p.
4. https://www.pubaffairsbruxelles.eu/eu-institution-news/aviation-safety-commission-adopts-new-eu-air-safety-list-eu-commission-press/
5. Dam, C. (2011). Air Passenger Rights. UK: 274 p.
6. https://en.wikipedia.org/wiki/European_Union_Aviation_Safety_Agency

Göndərildi: 27.02.2023 Qəbul edildi: 03.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/64-68

**Mehin Əlihüseynli**
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
alihuseynli.mehin14@gmail.com

# BEYNƏLXALQ HAVA DAŞIMALARININ HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN VƏZİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

## Xülasə

XX əsrin sonlarında beynəlxalq hava daşımalarının hüquqi tənzimlənməsi qlobal xarakter alan və müasir dünya iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilən hava nəqliyyatı sənayesinin inkişafı ilə ziddiyyət təşkil etmişdir. Hazırda mülki aviasiya digər nəqliyyat növləri arasında analoqu olmayan, fəaliyyəti rabitə vasitələrinin xüsusiyyətlərinə görə ərazi baxımından məhdud olan qlobal beynəlxalq nəqliyyat sisteminə çevrilmişdir. Bu da öz növbəsində dövlətlər arasında geniş beynəlxalq əməkdaşlığın qurulmasını tələb etmişdir. Beynəlxalq hava hüququ beynəlxalq hüquq sisteminin vacib bir hissəsini təşkil edir. Dövlət ərazisi üzərində və ondan kənarda hava məkanından istifadə zamanı beynəlxalq hüququn və qaydanın təmin edilməsi funksiyalarını yerinə yetirən beynəlxalq hüququn bir sahəsidir. Eyni zamanda qeyd etmək lazımdır ki, beynəlxalq hava hüququ əsasən beynəlxalq uçuşları və beynəlxalq daşımaları özündə birləşdirən milli mülki aviasiyanın fəaliyyətini tənzimləyir. Bu səbəbdən də beynəlxalq hava daşımaları hazırki dövrdə araşdırılmaların aparıldığı və yeni hüquq normalarının yaradıldığı bir sahəyə çevrilmişdir. Yeni obyektiv reallığa uyğunlaşdırmaq üçün hüquq normalarının təkmilləşdirilməsi zərurəti yaranmışdır.

***Açar sözlər:*** *hava daşınmaları, hüquqi tənzimləmə, qanun, akt, beynəlxalq nəqliyyat hüququ, beynəlxalq müqavilələr*

**Mehin Alihuseynli**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
alihuseynli.mehin14@gmail.com

## Status and characteristics of the legal regulation of international air carriage

## Abstract

At the end of the 20th century, the legal regulation of international air transport conflicted with the development of the air transport industry, which became global and became one of the leading sectors of the modern world economy. Currently, civil aviation has become a global international transport system, which has no analogues among other types of transport, whose activity is limited in terms of territory due to the characteristics of communication means. This, in turn, required the establishment of extensive international cooperation between states. International air law is an important part of the international legal system. It is an area of international law that performs the functions of ensuring international law and order in the use of airspace over and beyond state territory. At the same time, it should be noted that international air law mainly regulates the activities of national civil aviation, which includes international flights and international transportation. For this reason, international air transportation has become an area where investigations are conducted and new legal norms are created. It is necessary to improve the legal norms in order to adapt them to the new objective reality.

***Keywords:*** *air transportation, legal regulation, law, act, international transport law, international agreements*

## Giriş

Bildiyimiz kimi, indiki dövr qloballaşma dövrü hesab edilir ki, bu da digər məqamlarla yanaşı, ilk növbədə beynəlxalq ticarətin inkişafında və qlobal iqtisadi sistemin stabil şəkildə fəaliyyət göstərməsinə yönəlmiş dövlətlərası sıx əməkdaşlıq tədbirlərinin tətbiqində ifadə olunur. Eyni zamanda ayrı-ayrı regionların və qitələrin beynəlxalq ticarət dövriyyəsi fərqli üsullarla: quru, hava və dəniz nəqliyyatı marşrutları ilə həyata keçirilə bilən malların transsərhəd daşınması yolu ilə təmin edilir. Məhz buna görə də iqtisadi sahədə xarici iqtisadi əlaqələrin və beynəlxalq inteqrasiya proseslərinin intensiv inkişafının müasir şəraitində nəqliyyatın mühüm rol oynadığı nəzərə çarpır.

Ötən əsrin 20-30-cu illərində beynəlxalq aləmdə mülki aviasiyanın inkişafı hava məkanından qanuni istifadə, hava gəmilərinin səmərəli fəaliyyəti, o cümlədən təhlükəsiz uçuşların və aviasiya təhlükəsizliyinin təmin edilməsi, eləcə də mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə aktlarının qarşısının alınması məqsədi ilə hava məkanından qanuni istifadə məsələlərini həll etməyə qadir olan sabit və maksimum tənzimlənən hava hüququ sisteminin yaradılmasını zəruri etmişdir. Beynəlxalq uçuşların, beynəlxalq hava daşımalarının və beynəlxalq hava əlaqəsinin müxtəlif məsələləri üzrə dövlətlər arasında əməkdaşlıq, bir qayda olaraq, beynəlxalq çoxtərəfli müqavilə formasında həyata keçirilir.

- Vergi dərəcələri qaçınılmaz olduğundan ümumi ortalamanın eyni qalması üçün daha az əhəmiyyətli mallar üçün vergi dərəcələrini aşağı salmaq, digərlərini isə artırmaq;

- Xidmətlər sahəsi ilə bağlı inkişaf etməkdə olan ölkələrə verilən xüsusi və fərqləndirici güzəşt rejiminin qarşılıqlı danışıqlarda Azərbaycana verilməsini təmin etmək. Beləliklə, müxtəlif sahələrdə yerli mütəxəssislər olduğu halda əcnəbilərin işə götürülməsinin qarşısını almaq;

- Aqrar sektorda tətbiq olunacaq subsidiyalarla bağlı danışıqlarda bu sektora illik istehsalının 10%-i həcmində subsidiya verilməsini təmin etmək və.s (Bulut, 2006: 16).

Yuxarıdakı bəyanatlardan da göründüyü kimi, DTT beynəlxalq ticarəti maksimum səviyyədə liberallaşdırmaqla azad və şəffaf rəqabət şəraitində dünyanın rifah səviyyəsini yüksəltmək məqsədi daşıyır. Azərbaycan Respublikasının müvafiq beynəlxalq təşkilata üzv olması halında əldə edəcəyi üstünlüklərə yanaşı güzəştə getməli olduğu məsələlər də mövcuddur.

**II Azərbaycanın gözlənilən qazanc və itkiləri.** Azərbaycan Respublikası Dünya Ticarət Təşkilatına üzv olduğu təqdirdə əldə edəcəyi mümkün üstünlüklərə aiddir: dəxminən yüz əlli ölkə tərəfindən qəbul edilmiş ümumi qaydalar çərçivəsində xarici ticarət əməliyyatları həyata keçirməklə dünya iqtisadi sisteminə inteqrasiyanı sürətləndirmək; başlıca ticarət birlikləri və mühüm tərəfaşlarla eyni ticarət şərtlərinə malik olmaq və fərqli tariflərlə qarşılaşmamaq; Dünya Ticarət Təşkilatına üzv olan ölkələrin öz aralarında tətbiq etdiyi güzəştlərdən faydalanmaq; İqtisadi problemlərin həllində DTT qaydalarından və beynəlxalq mexanizmindən yararlana bilmək; DTT çərçivəsində çoxtərəfli ticarət sistemini inkişaf etdirmək və bu məsələ ilə bağlı danışıqlarda iştirak etmək imkanı əldə etmək, mövcud standartları, xüsusilə də beynəlxalq tələblərə uyğunlaşdırılmaq; yeni gömrük qaydaları nəticəsində əmtəə və xidmətlərə çəkilən xərclərin azalmasının əks olunması ilə əhalinin dünya ortalamasından daha aşağı qiymətə mal və xidmətləri almaq imkanını yaratmaq; hüquqi tənzimləmələrin hazırlanması; ölkədə həyata keçirilən iqtisadi innovasiyaların düzgünlüyünün təsdiqi; qəbul edilmiş qaydalar çərçivəsində ticarət nişanları və müəllif hüquqlarının həyata keçirilməsi; artan şəffaflıq və milli rəftar qaydası nəticəsində xarici kapital axınının xüsusilə qeyri-neft sektoruna yönəlməsi, (Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün strateji araşdırmalar aparılır və proqramlar həyata keçirilir.) və.s.

- Azərbaycan Respublikasının müvafiq beynəlxalq təşkilata üzv olması halında əldə edəcəyi üstünlüklərə yanaşı nəzərə almalı olduğu riskli məsələlər də mövcuddur. Bunlara aiddir: xarici ticarətdə kəmiyyət məhdudiyyətlərinin tətbiq edilə bilməməsi; ticarətin liberallaşdırılması ilə əlaqədar kifayət qədər qoruyucu tədbirlər görülmədikdə bazarın daha ucuz xarici mallarla dolması riski; qoruyucu tədbirlərin səmərəli olub-olmamasından asılı olmayaraq, daxili bazarın bütün sahələrində azad rəqabət şəraitinin yaradılması mümkün olmadığı halda, daha güclü və təcrübəli xarici şirkətlərin üstünlük qazanması; müəyyən ediləcək keçid dövründə rəqabətədavamlı və ixracyönümlü istehsal üslubu yaradıla bilmədiyi təqdirdə, sonrakı mərhələlərdə problemlərin yaranması mümkünlüyü; kifayət qədər ixtisaslı kadrların olmaması; qoruyucu tədbirlərin aradan qaldırılması ilə tədiyyə balansındakı kəsirlərin ölkənin ehtiyatlarını əritməsi riski; gömrük və digər vergi praktikasının azalması ilə əlaqədar dövlət büdcəsinin gəlirlərinin əhəmiyyətli dərəcədə azalması, (orta hesabla 10% olan idxal gömrük rüsumlarının büdcə payı 24% təşkil edir) və.s. (Bulut, 2006: 16).

**III Azərbaycanın üzv olma prosesində nəzərə almalı olduğu məsələlər və görməli olduğu tədbirlər.** Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olması prosesində AR-in müharibə vəziyyətində olması; beynəlxalq təşkilatlarla əməkdaşlıq və ikitərəfli əlaqələr nəzərə alınmalıdır. Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20%- nin işğal edilməsinə və çoxsaylı qaçqın və köçkünün daimi yaşayış yerlərindən qovulmasına baxmayaraq Dünya Ticarət Təşkilatının üzvləri Ermənistanın Təşkilata üzv olmasına razılıq vermişdir. Üzvolma prosesində AR-in təkidi ilə bu ölkə öz üzərinə bir sıra öhdəlik götürmüşdür. Xüsusən də. «Azərbaycan Respublikasının üzvlüyünə maneə törətməmək və eləcə də, işğal edilmiş ərazilərə Təşkilatın qaydalarının tətbiq olunmasına çalışmamaq» öhdəliyi qeyd olunmalıdır. Digər tərəfdən, istər üzvolma ərəfəsində, istərsə də sonra artıq bərqərar olmuş praktikaya uyğun olaraq AR Dünya Ticarət Təşkilatında Ermənistanla heç bir danışıqlara getməyəcək və Dünya Ticarət Təşkilatı sazişlərini tətbiq etməmək hüququnu təmin edən Mərakeş təsis Sazişinin XIII maddəsindən istifadə edəcəkdir (Sadıqov, 2008: 389).

Dünya Ticarət Təşkilatına qoşulma prosesi nə qədər siyasi arqumentə söykənsə də Təşkilatda iqtisadi məzmun üstünlük təşkil edir. Bu və ya digər dövlətin qarşılıqlı tanınmasından, diplomatik əlaqələrdən asılı olmayaraq üzvlüyün reallaşdırılması mümkündür. Əgər bir dövlət digərini tanımırsa onlar Dünya Ticarət Təşkilatının təsis edilməsi haqqında Sazişin XIII maddəsindən istifadə edirlər. (5) Hazırkı mexanizm Təşkilatın bir üzvünün digər üzvünə qarşı onun bütün qaydalarının tətbiq edilməməsinə imkan verir. Dolayısı ilə GATT-m XXXV maddəsi də həmin mövqedən çıxış edir. Bu məsələ Ermənistan tərəfindən de fakto təcavüzə məruz qalmış AR üçün də xüsusi əhəmiyyət kəsb edir. Belə ki, AR-dən öncə Təşkilata üzv olmasına baxmayaraq qeyd etdiyimiz qaydaya əsasən Ermənistan Azərbaycan Respublikasının üzvlüyünü maneələndirmək imkanına malik deyil (Sadıqov, 2008: 389).

Dünya Ticarət Təşkilatına yeni üzv ölkələrin qoşulmasının əsas şərtlərindən biri onların milli qanunvericiliyinin və təcrübələrinin Dünya Ticarət Təşkilatı hüququna uyğunlaşdırılması təşkil edir. Milli qanunvericiliyin unifikasiyası məsələsi Dünya Ticarət Təşkilatının təsis edilməsi haqqında Sazişin XVI maddəsinin 4-cü bəndindən irəli gəlir. Həmin maddəyə görə, hər bir iştirakçı dövlət öz qanunlarını, normativ aktlarını və öhdəlikləri ilə bağlı inzibati qərarlarını müvafiq müqavilələrə uyğunlaşdırmaq vəzifəsi daşıyırlar. GATT-ın XXIV maddəsinin 12-ci bəndinə uyğun olaraq dövlətdaxili qanunvericilik aktlarının Dünya Ticarət Təşkilatının norma və prinsiplərinə uyğunlaşdırılınası ilə yanaşı, həm də AR- in digər beynəlxalq təşkilatlarla da əməkdaşlığının hüquqi-qanunvericilik aspekti Dünya Ticarət Təşkilatının ümumqəbul edilmiş standartlarına müvafiq olmalıdır. Qanunvericiliyin Dünya Ticarət Təşkilatı prinsip və qaydalarına uyğunlaşdırılmasında əsas məsələlər sırasında gömrük işi, tarif tənzimlənməsi və müdafiə tədbirləri qeyd edilməlidir. AR-də tarif tənzimlənməsinin qanunvericilik bazası kimi Gömrük tarifi haqqında AR-in (1995) Qanunu, Gömrük Məcəlləsi (2001) və d. aktlar bir tərəfdən beynəlxalq ticarətin liberallaşdırılmasını nəzərdə tutmalıdırsa. digər tərəfdən, milli bazarın gömrük-tarif üsulu ilə müdafiəsini təmin etməlidir. AR də daxil olmaqla Dünya Ticarət Təşkilatına üzvlük neft-ixrac edən ölkələr üçün fərqli xarakterik cəhətlərə malikdir. Bu ölkələrin iqtisadiyyatında əsasən bir xammalın ixracı və iqtisadiyyatın digər önəmli sahələri, o cümlədən, kənd təsərrüfatına zəif diqqət verilməsi müəyyən problemlər yaradır. Bu ölkələr də ixracda Dünya Ticarət Təşkilatı qaydalarının qoyduğu tələbləri qəbul etmək məcburiyyətindədirlər.

## Nəticə

Dünya Ticarət Təşkilatına qoşulmaq istəyən Azərbaycan Respublikası bunun nəticəsində əldə olunacaq imkanları və itkilərin riskini hərtərəfli analiz etməlidir. Bundan sonra, müvafiq itkilərin maksimum azaldılması və ya tamamilə aradan qaldırılması üçün iqtisadi, hüquqi və sosial tədbirlər həyata keçirməlidir. Bu istiqamətdə Azərbaycanın qarşısında duran əsas vəzifə isə milli qanunvericiliyin və təcrübələrinin Dünya Ticarət Təşkilatı hüququna uyğunlaşdırılmasından ibarətdir.

## Ədəbiyyat

1. https://www.wto.org/english/thewto_e/whatis_e/tif_e/org6_e.htm
2. Məmmədquluyev, M. (2005). Azərbaycanın DTT-yə qəbulu: mövcud tendensiyalar. Ekspert İqtisadiyyat Jurnalı, 7 s.
3. Bulut, C. (2006). Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlüyünün dəyərləndirilməsi. 16 s.
4. Sadıqov, Ə. (2008). Beynəlxalq iqtisadi hüquq. 389 s.
5. https://www.wto.org/english/docs_e/legal_e/04-wto_e.htm

Göndərildi: 09.02.2023 Qəbul edildi: 07.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/98-102

**Bəkir İsmayılov**
Bakı Dövlət Universiteti
magistrant
smaylov.bkir@bk.ru

# TRANSGENDER FƏRDLƏRİN İDMAN YARIŞLARINDA İŞTİRAKININ HÜQUQİ TƏNZİMLƏNMƏSİ

**Xülasə**

Olimpiya xartiyasına əsasən hər bir insanın idmanla məşğul olmaq hüququ var. Hər bir fərd heç bir ayrı-seçkiliyə məruz qalmadan qarşılıqlı anlaşma tələb edən birlik, dostluq, və ədalətli oyun ruhu ilə idmanla məşğul olmaq imkanına malik olmalıdır. Bu zaman insanların dil, irq, rəng, din, cins, cinsi oriyentasiya, siyasi və ya digər əqidəsi, milli və ya sosial mənsubiyyəti, həmçinin başqa statusları nəzərə alınmamalıdır. Yəni insanlar heç bir ayrı-seçkilik olmadan bu hüquqlarından istifadə etməlidirlər. Qeyd olunanları nəzərə alaraq, idmançılar qadın və kişi olmaqla 2 kateqoriyada yarışlarda iştirak edirlər ki, bunun səbəb kimi qadınların hüquqlarının müdafiəsinin təmin edilməsi məqsəd kimi göstərilir. Belə ki, kişi idmançıların bioloji xüsusiyyətlərindən asılı olaraq qadın idmançılardan fiziki baxımdan üstün olması qadınların ədalətli rəqabət şəraitində yarışmaq hüququnu pozur. Həmçinin bu kateqoriyalar tərkibində də müəyyən alt-qruplar (çəki, yaş, fiziki imkanların məhdudluğu və s.) yaradılır ki, bunun da səbəbi idmanla məşğul olan istənilən şəxsin yarışlarda qalib gəlmək imkanına şərait yaradılmasıdır.

Lakin trangender şəxslərin yarışlar zamanı kişi, yoxsa qadın kateqoriyasında çıxış etməli olması müəyyən fikir ayrılıqlarına səbəb olur. Bu hal ən çox “kişi” kimi dünyaya gəlib sonradan “qadın” olan şəxslərə şamil olunur. Belə ki, həmin şəxslərin orqanizmində təbii olaraq yüksək miqdarda əmələ gələn testosteron hormonunun yarışlarda rəqibləri üzərində üstünlük yaratdığı hesab olunur.

Bu məqalə transgender şəxslərin idman yarışlarında hansı şərtlər əsasında iştirak etməsi qaydalarının təhlilinə yönəlmişdir.

***Açar sözlər:*** *Beynəlxalq Olimpiya Komitəsi, Dünya Atletikası, testosteron hormonu, Olimpiya Oyunları, Olimpiya Xartiyası*

**Bakir Ismayilov**
Baku State University
master student
smaylov.bkir@bk.ru

## Legal regulation of transgender persons participation in sports competitions

**Abstract**

According to the Olympic Charter, every person has the right to engage in sports. Every individual should be able to engage in sports in a spirit of unity, friendship, and fair play that requires mutual understanding without discrimination. In this case, people's language, race, color, religion, gender, sexual orientation, political or other beliefs, national or social affiliation, and other statuses should not be considered. That is, people should use these rights without any discrimination. Considering the above, athletes participate in competitions in 2 categories, male and female, and the reason for this is to ensure the protection of women's rights. Thus, the fact that male athletes are physically superior to female athletes, depending on their biological characteristics, violates the right of women to compete in fair competition. Also, within these categories, specific subgroups (weight, age, limited physical capabilities, etc.) are created, the reason for which to create conditions for any person involved in sports to win competitions.

However, whether transgender persons should perform in the male or female category during competitions causes specific differences of opinion. This situation mainly applies to people born "male" and later became "female." Thus, it is considered that the testosterone hormone, which is naturally produced in high amounts in the body of those people, gives them an advantage over their competitors in competitions.

This article focuses on analyzing the rules under which transgender people can participate in sports competitions.

***Keywords:*** *International Olympic Committee, World Athletics, testosterone hormone, Olympic Games, Olympic Charter*

## Giriş

2020-ci ildə Tokioda keçirilən Olimpiya və Paralimpiya Oyunlarında transgenderlərin iştirak etməsi müəyyən müzakirələrə səbəb oldu. Beynəlxalq Olimpiya Komitəsinin 2004-cü ildən transgenderlərin olimpiya oyunlarında iştirak etməsinə icazə verməsinə baxmayaraq, bu hal onların Olimpiya oyunlarında iştirak etdiyi ilk hal kimi tarixə düşdü (1). Transgender idmançılardan danışarkən, ilk növbədə, bu anlayışın nə ifadə etdiyinə diqqət yetirmək lazımdır. Tamcinslik (ingiliscə "cinsgender") və transgender bir-birlərinə zidd anlayışlardır. Belə ki, tamcinslik, insanın doğulduğu zaman aid olduğu bioloji cinsin xüsusiyyətlərinə malik olmasıdırsa, transgenderlik insanın cinsi kimliyinin aid edildiyi bioloji cinsin xüsusiyyətlərinə zidd olmasıdır. Bəzi fərdlər özlərini psixoloji olaraq qarşı cinsin nümayəndəsi hesab etsə də, bir qrup şəxs doğuşdan "ikili cinsiyyət"-ə malik olmaqla, hər iki cinsin xüsusiyyətlərini daşıyırlar. Lakin bu şəxslər "transgender", deyil "interseks fərdlər" adlanırlar. Transgender şəxslərin bir hissəsi cinsiyyəti dəyişmə əməliyyatı keçirməklə qarşı cinsin nümayəndəsi olurlar ki, bu, idmanda fiki ayrılıqlarına səbəb olan məsələlərdən biridir. Onların tərəfdarları transgenderlərin cinsiyyətini dəyişdikdən sonra aid olduqları cinsi kateqoriyada yarışmalarını uyğun görürlər. Əleyhdarları isə onların cinsiyyətini dəyişmələrinə baxmayaraq, əvvəlki bioloji cinsin xüsusiyyətlərini daşıdıqlarına görə dünyaya gəldikləri zaman aid olduqları cinsi kateqoriyada yarışmalarını doğru hesab edirlər.

Tarixə nəzər yetirdiyimizdə beynəlxalq yarışlarda transgenderlərin iştirak etməyə başlamaları 1936-cı ildə Berlində keçirilən Yay Olimpiya Oyunlarına təsadüf edir. Hündürlüyə tullanma üzrə yarışlarda iştirak edən və dördüncü yeri tutan Dora Ratjen 1938-ci ildə Vyanada keçirilən Avropa çempionatında rekord qırdı. Həmin il o, yoxlamalara cəlb edilmiş və kişi olduğu, əsl adının isə Heinrich Ratjen olduğu məlum olmuşdur (2). Heinrich izahatında qadınlarla birlikdə yarışmağa nasistlər tərəfindən məcbur edildiyini bildirmişdir.

Həmin dövrdən etibarən ədalətli yarışların təşkil olunması üçün beynəlxalq idman təşkilatları və federasiyalar tərəfindən müxtəlif qaydalar müəyyən edilməyə başladı. Müxtəlif qısamüddətli cinsi yoxlama təcrübələrindən sonra Dünya Atletikası 1948-ci ildə qadın idmançıların yarışlarda iştirak etmək üçün "qadın" olduqlarını sübut edən tibbi arayış təqdim etmələrini tələb kimi müəyyənləşdirdi. Arayışın məzmunu, yəni "qadınlığın" hansı şərtlər əsasında müəyyən olunması hər bir xalqın özünəməxsus sosial normaları ilə əsaslandırılırdı. 1960-cı illərdə isə məcburi cinsiyyəti yoxlama testləri keçirilməyə başlamışdır. Artıq qadın idmançıların beynəlxalq yarışlarda iştirak etməsi üçün onların anadangəlmə, əyinlərində hər hansı geyim olmadan parad şəklində keçidinin təşkilinə və cinsiyyət orqanlarının fiziki müayinəsinə başlanıldı. Parad zamanı yoxlama aparan komissiya üzvlərinin kişilərdən ibarət olmasını isə utancverici hal idi. 1968-ci il Mexiko Yay Olimpiya Oyunları zamanı "Barr cisimciyi" ("Barr body") üsulundan istifadə etməklə xoromosom testləri keçirildi. Lakin daha sonra bu üsulla əldə olunan nəticələrin dəqiq olmadığı müəyyənləşdirildi və 1990-cı illərdə həm qadın, həm də kişilərin hərtərəfli tibbi müayinəsi keçirilməyə başlanıldı. 1992-ci ildə Dünya Atletikası bu prosesin xərclərinin çox olması səbəbindən "ehtiyac görüldüyü təqdirdə" tibbi müayinənin keçirilməsinə dair qərar qəbul edildi. Həmçinin Dünya Atletikasının ekspert komissiyası tərəfindən 1990-cı ildə qəbul edilən tövsiyə bu təşkilatı qeyd olunan problemi həll edən ilk beynəlxalq təşkilat olaraq müəyyənləşdirdi. Tövsiyəyə əsasən cinsi yetişkənlik dövründən əvvəl cinsiyyətini dəyişən şəxslər dəyişiklikdən sonrakı cinsiyyətlərinə

uyğun olaraq yarışlarda iştirak etməlidirlər. Cinsi yetişkənlik dövrünü keçdikdən sonra cinsiyyətini dəyişən şəxslər isə cinsi dəyişkənlik dövründə hormonların təsiri altında olduğundan onların yoxlanılması fərdi qaydada aparılmalı idi. Bu hal ən çox kişi cinsi yetişkənlik dövrünü keçən şəxslərə aid idi. Belə ki, həmin şəxslər testosteron hormonunun təsirinə məruz qaldığından bu halın onları rəqibləri ilə mübarizədə daha üstün vəziyyətə gətirdiyi bildirilirdi.

BOK tərəfindən cinsiyyəti xromosomlar əsasında müəyyən etmə testləri sonuncu dəfə 1996-cı ildə Atlantada keçirilən Yay Olimpiya Oyunlarında aparılmışdır. Həmin ildə Beynəlxalq Olimpiya Komitəsi (BOK) "Qadınlar və sağlamlıq haqqında" Ümumdünya Konfransında Olimpiya Oyunları zamanı tətbiq olunan cinsiyyəti yoxlama siyasətini dayandırmaq barədə qərar qəbul etdi. 1999-cu ildə isə BOK-un İcraiyyə Komitəsi Seulda keçirilən sessiyasında 2000-ci ildə Sidneydə keçiriləcək Yay Olimpiya Oyunlarında bütün qadın idmançıların cinsiyyət müayinəsinin laboratoriya əsasında aparılmayacağına dair qətnaməni ratifikasiya etdi, həmçinin bildirdi ki, bu qərar yalnız Sidney Yay Olimpiya Oyunlarında tətbiq olunacaq və daha sonra cinsiyyəti yoxlama siyasəti yenidən müəyyənləşdiriləcək.

2003-cü ildə BOK Stokholmda keçirilən konsensusda idmançıların yarışlarda iştirak etmələrinə dair uyğunluq qaydaları müəyyənləşdirmişdir. Belə ki, BOK 1990-cı ildə Dünya Atletikasının ekspert komissiyası tərəfindən irəli sürülən tövsiyə əsasında qadın olaraq doğulan, lakin sonradan cinsiyyətini dəyişən, həmçinin kişi olaraq doğulan və cinsi yetişkənlik dövrünə qədər cinsiyyətini dəyişərək qadın olan idmançıların hər hansı yoxlamalara məruz qalmadan yarışlarda iştirak etmələrinə dair tövsiyəni bir daha ifadə etmişdir. Ancaq cinsi yetişkənlik dövrünü "kişi" olaraq keçən, lakin sonradan "qadın" olan idmançıların kişi və ya qadın kimi yarışlarda iştirak etmələri üçün aşağıdakı şərtləri müəyyənləşdirmişdir (3):

1. Xarici cinsiyyət orqanlarında dəyişikliklər və axtalanma daxil olmaqla cərrahi anatomik dəyişikliklərin həyata keçirilməsi;
2. Müvafiq rəsmi orqanlar tərəfindən onun sonrakı bioloji cinsiyyəti tanınmalıdır;
3. Təyin edilmiş cinsə uyğun hormonal terapiya, idman yarışlarında Cinsiyyətlə əlaqədar üstünlükləri minimuma endirmək məqsədilə yoxlanılması mümkün ola biləcək şəkildə və kifayət qədər uzun müddət ərzində sonradan aid olduğu bioloji cinsə uyğun olaraq hormonal müalicənin həyata keçirilməsi.

Həmçinin idmançının yarışlarda iştirak etmək üçün müəyyən olunan qaydalara uyğunluğunun yoxlanılmasına axtalanmadan sonra 2 ildən tez olmayaraq başlanılmalıdır.

2006-cı ildə Dünya Atletikası "Cinsiyyəti yoxlama siyasəti"ni qəbul etmişdir. Bu sənəddə cinsiyyəti yoxlamaya dair Dünya Atletikasının mövqeyi aşağıdakı qaydada müəyyənləşdirilmişdir

1. Dünya Atletikasının rəhbərliyi altında keçirilən yarışlarda standart, davamlı və məcburi cinsiyyəti yoxlama testləri aparılmayacaq;
2. Cinsiyyətin müəyyən edilməsi yalnız laboratoriya yoxlamaları ilə müəyyən edilməyəcək;
3. Bu məsələ əsas çempionatlarda dopinq nəzarəti zamanı tibb/dopinq nümayənələri tərəfindən, idmançının sağlamlığının yoxlanılması zamanı isə milli komandanın həkim heyəti tərəfindən həyata keçiriləcək;
4. İdmançının cinsiyyətinə dair hər hansı şübhənin yarandığı halda, müxtəlif ixtisaslı həkimlərdən (endokrinoloq, ginekoloq, psixoloq, cinsiyyət məsələləri üzrə ekspert və s.) ibarət komissiya yaradılacaq;
5. Cinsiyyəti dəyişdirmə əməliyyatları, habelə müvafiq hormonal terapiya cinsi yetişkənik yaşına çatmamışdan əvvəl aparılırsa, idmançıya qadın kimi yarışmağa icazə verilir;
6. Cinsiyyət dəyişikliyi və hormonal terapiya cinsi yetişkənlik dövründən sonra aparılırsa, idmançı axtalanmadan sonra fiziki və endokrinoloji müayinə üçün iki il gözləməlidir.

Qaydalarda həmçinin fərdlərdə mövcud olan, lakin digər qadın idmançılarla müqayisədə üstünlük yaratmayan hallar və bir sıra üstünlüklər yaratsa belə, qəbul oluna bilən şərtlər nəzərdə tutulmuşdur.

2015-ci ilin noyabrında BOK "Cinsiyyətin dəyişdirilməsi və hiperandrogenizm üzrə" konsensus yığıncağı keçirmişdir. Bu yığıncaqda BOK 2003-cü il Stokholm konsensusundan bəri dünyada

cinsiyyətin dəyişdirilməsi əməliyyatının geniş yayıldığını və bir sıra dövlətlərin qanunvericiliyinin belə əməliyyatlara icazə vermədiyini nəzərə alaraq yeni qaydalar müəyyənləşdirmişdir. Bu qaydalara əsasən:

1) Cinsiyyətini dəyişərək kişi olan qadınlar kişi kateqoriyasındakı yarışlarda hər hansı məhdudiyyətlə üzləşmədən yarışa bilərlər;

2) Cinsiyyətini dəyişərək qadın olan kişilər isə qadın kateqoriyasındakı yarışlarda iştirak etmək üçün aşağıdakı şərtlərə əməl etməlidirlər:

a) İdmançı cinsi mənsubiyyətinin qadın olduğunu bildirməlidir. Bu bəyan etmə idman məqsədləri üçün ən azı dörd il müddətinə dəyişdirilə bilməz.

b) İdmançı ilk yarışından əvvəl ən azı 12 ay ərzində ümumi testosteron səviyyəsinin 10 nmol/L-dən aşağı olduğunu nümayiş etdirməlidir (bu müddətin qadın qadın kateqoriyasında yarışlarda hər hansı üstünlüyü minimuma endirmək üçün kifayət qədər vaxt olub-olmadığını nəzərə alaraq hər hansı daha uzun müddətin tələbi hər bir hal üzrə konfidensial qiymətləndirməyə əsaslanmalıdır).

Transgender idmançıların hüquqlarının müdafiə edilməsi istiqamətində atılan addımlar nəticəsində 2020-ci il Tokio Yay Olimpiya Oyunlarında 4 transgender idmançı qadın kateqoriyasında yarışlarda iştirak etdi (5).

Bunlar Yeni Zelandiyanı təmsil edən ağırlıqqaldıran Laurel Hubbard, motokros velosiped idman növündə yarışan amerikalı Chelsea Wolfe, amerikalı skeytboardinq idmanı üzrə yarışlarda iştirak edən Alana Smith and kanadalı futbolçu Quinn idi. Quinn qızlardan ibarət Kanada milli yığma komandasının tərkibində Olimpiya Oyunları tarixində qızıl medal qazanan ilk transgender idmançı kimi tarixə düşdü.

## Nəticə

İdman yarışlarının ədalətli rəqabət mühitində təşkil edilməsi hər bir fərdin idmanla məşğul olmaq hüququnun təmin edilməsi bərabər həyata keçirilməlidir. Belə ki, BOK tərəfindən 2003-cü ildə Stokholmda imzalanan sənəd qadın olaraq yarışlarda iştirak etmək istəyən kişilərin cərrahi əməliyyat olunmalarını və sonrakı cinsiyyətlərinin rəsmi qurumlar tərəfindən təsdiqlənməsini tələb edirdi.

Lakin bir sıra dövlətlərin qanunvericiliyi belə əməliyyatın həyata keçirilməsini qadağan edirdi. Buna misal olaraq, İngiltərədə 2004-cü ildə qəbul olunan "Cinsiyyətin tanınması Akt"ını göstərmək olar. Bu sənəd İngiltərədə cinsiyyəti dəyişdirmək üçün cərrahi əməliyyatı şərt kimi müəyyənləşdirilməmişdir. Bunları nəzərə alaraq BOK 2015-ci ildə yeni qaydalar bütün transgenderlərə deyil, yalnız cinsiyyətini dəyişərək qadın olan fərdlərə şamil olunurdu. Qaydalara əsasən cərrahi əməliyyatın həyata keçirilməsi şərti aradan qaldırılsa da, bir sıra əlavə şərtlər müəyyənləşdirmişdir.

Lakin tarixdə ilk dəfə olaraq transgender idmançıların iştirak etdiyi 2020-ci il Tokio Yay Olimpiya Oyunlarında bu idmançıların hər biri heç də uğurlu nəticə qazanmamışdır. Belə ki, ağırlıqqaldıran Laurel Hubbard üç cəhdin heç birində müəyyən edilən ağırlığı qaldıra bilməmiş (6), həmçinin skeytboardinq idmanı üzrə yarışlarda iştirak edən Alana Smith yarışların nəticəsinə əsasən 20-ci yerə layiq görülmüşdür (7).

Nəticə olaraq qeyd edə bilərik ki, fərdlərdə testosteron hormonunun miqdarının normadan artıq olması heç də həmin fərdlərin idman yarışlarında hər zaman uğurlu nəticə qazanmalarına dəlalət etmir.

## Ədəbiyyat

1. https://www.olimpiyatkomitesi.org.tr/Upload/Menu/624923_ioc_antlasmasi.pdf
2. https://olympics.com/en/athletes/dora-ratjen
3. https://stillmed.olympic.org/Documents/Reports/EN/en_report_905.pdf
4. https://unique-sportstime.de/site/wp-content/uploads/iaaf_policy_on_gender_verification.pdf
5. https://www.insider.com/tokyo-2020-4-transgender-athletes-talk-about-their-olympics-experience-2021-8

6. https://olympics.com/en/olympic-games/tokyo-2020/results/weightlifting/women-s-over-87kg
7. https://olympics.com/en/athletes/alana-smith

Göndərildi: 11.02.2023 Qəbul edildi: 07.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/103-106

**Tural Əhmədli**
Bakı Dövlət Universiteti
magistrant
ahmadlitural70@gmail.com

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU

**Xülasə**

Məqalədə korrupsiyanın qarşı mübarizədə beynəlxalq təşkilatların fəaliyyətindən bəhs edilir. Korrupsiyanın artıq transmilli xarakter aldığını nəzərə alaraq effektiv mübarizə üçün beynəlxalq əməkdaşlıq zəruri olmuşdur. Beynəlxalq əməkdaşlığın ən səmərəli forması isə beynəlxalq təşkilatlar çərçivəsində birləşərək həyata keçiriləndir. Beynəlxalq təşkilatların fəaliyyəti inkişaf etməkdə olan və ya inkişaf etməmiş ölkələr üçün böyük əhəmiyyət kəsb edir. Bu təşkilatların verdiyi maddi, texniki və strateji dəstək korrupsiyaya qarşı mübarizənin davamlı və sistemli olmasına şərait yaradır. Beynəlxalq təşkilatların verdiyi ən mühüm töhfə korrupsiya ilə mübarizədə hüquqi bazanı formalaşdırılmasıdır. Bunun nəticəsində, çox geniş tətbiq dairəsi olan beynəlxalq aktlar yaranmışdır.

***Açar sözlər:*** *korrupsiya, rüşvətxorluq, korrupsiyaya qarşı mübarizə, beynəlxalq əməkdaşlıq, beynəlxalq təşkilatlar*

**Tural Ahmadli**
Baku State University
master student
ahmadlitural70@gmail.com

## The role of international organizations in the fight against corruption

**Abstract**

The article talks about the activities of international organizations in the fight against corruption. Taking into account that corruption has already become transnational, international cooperation has become necessary for an effective fight. The most efficient form of international cooperation is realized by joining within the framework of international organizations. The activities of international organizations are of great importance for developing or underdeveloped countries. The material, technical and strategic support provided by these organizations creates conditions for the fight against corruption to be continuous and systematic. The most important contribution made by international organizations is the formation of the legal framework in the fight against corruption. As a result, international acts with a very wide scope of application have been created.

***Keywords:*** *corruption, bribery, fight against corruption, international cooperation, international organizations*

## Giriş

Son dövrlər dünyada bir çox sahədə qloballaşmanın şahidi oluruq. Bu, öz növbəsində cinayətkarlığın da qlobal səviyyədə inkişafına gətirib çıxarmışdır. Korrupsiya cinayətləri də cinayətlərin bir növü olaraq sərhədləri aşaraq ümumdünya maraqlarına zərbə vurur və onunla mübarizədə beynəlxalq əməkdaşlıq vacibdir. Korrupsiya ilə mübarizədə beynəlxalq təşkilatların rolu çox mühümdür. Bu kimi təşkilatlar dövlətlərin bir çox sahədə korrupsiya ilə mübarizədə dövlətlərin kompleks tədbirlər görməsinə şərait yaradır.

**Korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşkilatların rolu.** Beynəlxalq təşkilatların funksionallığı barədə danışarkən qeyd etmək lazımdır ki, onlar korrupsiya ilə mübarizədə hüquqi bazanın və effektiv tədbirlərin formalaşdırılmasını həyata keçirirlər. Bununla yanaşı, beynəlxalq təşkilatlar korrupsiya ilə mübarizədə dövlətlətlərin fəaliyyətini koordinasiya və monitorinq etmək funksiyasına da malikdir.

Bildiyimiz kimi, beynəlxalq təşkilatlar fəaliyyət dairəsinə görə universal və regional təşkilatlara ayrılırlar. Korrupsiyaya qarşı mübarizədə həm universal, həm də regional təşkilatların aktiv rolu vardır.

Universal təşkilatlardan söhbət edən edən zaman bir çox sferada olduğu kimi burada da Birləşmiş Millətlər Təşkilatının (BMT) adını qeyd etmək lazımdır.

BMT-nin korrupsiya qarşı mübarizədə fəaliyyəti çoxşahəlidir. Belə ki, təşkilat davamlı olaraq dövlətləri korrupsiyaya qarşı mübarizə istiqamətində siyasət müəyyən etməsinə, əhalinin maarifləndirilməsi, vəzifəli şəxslər üçün anti-korrupsiya davranış qaydalarının müəyyən edilməsinə təşviq edir və özü də proseslərdə aktiv iştirak edərək dəstək verir. Bundan əlavə, təşkilat digər beynəlxalq təşkilatlar arasında ən mühüm beynəlxaql aktor olmaqla, baş verən proseslərə münasibəti, xüsusilə də, qəbul etdiyi qətnamələr, heç şübhəsiz, dövlətlərin siyasətinə də yön verir. Məsələn, BMT-nin hazırki baş katibi Antonio Quterreş təşkilatın bir müddət öncəki iclasında çıxışı zamanı korrupsiyanı publik etimada qarşı kriminal və əxlaqa zidd davranış adlandırmışdır. Baş katib çıxışı zamanı korrupsiyanın fəsadları barədə xəbərdarlıq edərək dövlətləri dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün beynəlxalq mexanizmlərdən istifadəyə və görülən işlərə daha böyük dəstək göstərməyə çağırmışdır.

BMT-nin korrupsiya ilə mübarizədə 2002-ci ildə yeni ad altında yaradılmış BMT Narkotik və Cinayətkarlıqla Mübarizə Ofisinin (UNODC) xüsusi rolu vardır.

Ofisin əsas rolu transmilli cinayətkarlıqla ilə mübarizədə dövlətlərarası əməkdaşlığı təmin etmək və bu istiqamətdə görülən işlərə dəstək verməkdir.

Hələ 1999-cu ildə başladılmış "Korrupsiyaya qarşı Qlobal Mübarizə Proqram"-ında bu istiqamətdə dövlətlər üçün bəzi təkliflər irəli sürülmüşdür. Bu təkliflərə beynəlxalq səviyyədə tanınmış yüksək bacarıqlı ekspertlər qrupunun yaradılması, şəffaflıq və monitorinq mexanizmlərinin formalaşdırılması, korrupsiya üzrə beynəlxalq informasiya bazasının yaradılması, beynəlxalq hüquqi alətlərin korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə ön plana çəkilməsi və s. daxildir (United Nations, 1999).

Ümumilikdə isə BMT və onun strukturuna daxil olan qurumların fəaliyyəti bununla bitmir. Onların fəaliyyəti, eyni zamanda, beynəlxalq birliyin çoxluqla iştirak etdiyi sənədlərin hazırlanması ilə də əlaqədardır. Bunlara misal kimi BMT Baş Assambleyası tərəfindən 31 oktyabr 2003-cü il tarixli 57/169 nömrəli Qətnamə ilə qəbul edilən Korrupsiya əleyhinə Konvensiyanı göstərmək olar (2).

Korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşkilatlardan biri də Korrupsiya qarşı olan Ölkələr Qrupudur (GRECO – The Group of States against Corruption). GRECO 1999-cu ildə Avropa Şurası tərəfindən üzv dövlətlərin korrupsiya ilə mübarizədə şuranın müəyyən etdiyi beynəlxalq standartlara əməl edilib-edilməməsinə nəzarət etmək məqsədilə yaradılmışdır. GRECO-nun Avropa Şurasının korrupsiya ilə mübarizə üzrə müəyyən etdiyi standartlara əməl etməyən ölkələrə qarşı təsir mexanizmi yox dərəcəsindədir. Təşkilatın əsas funksiyası bu standartlardan və ya üzv dövlətlərin Şura çərçivəsində götürülmüş digər beynəlxalq öhdəliklərdən irəli gələn fəaliyyətini monitorinq etmək və bu barədə Şuraya hesabat təqdim etməkdən ibarətdir. Bu cür hesabatların hazırlanması ilə birlikdə GRECO korrupsiya ilə mübarizədə ən effektiv təcrübələrin də diqqətə çatdırılmasını təmin edir (Karakaş, Çak, 2007: 15).

Korrupsiya ilə mübarizədə fəaliyyət göstərənq təşkilatlardan biri olan Transparency İnternational müstəqil və beynəlxalq qeyri-hökumət təşkilatı kimi 1993-cü ildə Berlində təsis edilmişdir. Təşkilatın təşkilati-hüquqi forma nöqteyi-nəzərdən beynəlxaq səviyyədə öncül olan yeganə təşkilat olduğunu desək, yanılmarıq. Təşkilatın tərəfindən hər il dərc edilən "qlobal korrupsiya hesabatı" ilə ölkələrdə korrupsiyanın səviyyəsi ictimai sorğular əsasında əks etdirilir.

Hesabatda korrupsiyanın cəmiyyətlər üzərində təsiri və onun inkişaf tempi göstərilir. Təşkilatın tərəfsiz və müstəqil olduğunu nəzərə alsaq, onun hesabatlarının korrupsiyaya qarşı mübarizə aparan dövlətlər üçün önəmli olduğunu başa düşmək olar (Çakır, 2013: 22).

Bundan başqa, təşkilat tərəfindən hər il "korrupsiya qavrama indeksi" adı altında dərc olunan il üçün ölkələrin korrupsiya ilə mübarizədə mənfi və ya müsbət inkişaf dinamikası göstərilməklə hər ölkə qiymətləndirilir. Bu qiymətləndirmə əsasında, ölkələrdə korrupsiyanın səviyyəsi üzrə sıralama aparılır. Bu sıralama xarici investorların da investisiya fəaliyyəti üçün çox mühüm mənbə hesab olunur.

Bundan əlavə, Təşkilat tərəfindən davamlı olaraq, korrupsiyaya qarşı mübarizədə insanların maarifləndirilməsi məqsədilə internet resurslarında və ya digər mənbələrdə nəşrlər yayımlanır.

Xarici investorların cəlb olunması iqtisadi əlaqələrin inkişafına töhfə verməklə bütövlükdə iqtisadi vəziyyətin yaxşılaşmasına xidmət edir. Heç şübhəsizdir ki, korrupsiyanın dağıdıcı təsirlərinin ən çox hiss olunduğu sahələrdən biri də iqtisadi sahədir. Bu təsirlər investisiya xərclərinin çoxalması, süni bahalaşma və rəqabətin zəifləməsi kimi bir çox hallarda özünü əks etdirir. Bu səbəbdən iqtisadi sferada fəaliyyət gösətərən beynəlxalq təşkilatların da korrupsiyaya qarşı səssiz qalması mümkün deyildir (Dünya Bank, 1997: 24).

İlk növbədə, bu istiqamətdə Dünya Bankının fəaliyyətini qeyd edə bilərik. Dünya Bankının bir çox ölkələrdə birgə layihələr həyata keçirməsi və həyata keçirilən layihələrin Bank tərəfindən maliyyələşdirilməsi səbəbilə maliyyə vəsaitlərinin şəffaf surətdə istifadə olunması Bank üçün xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən də Bank ölkələrdə korrupsiyaya qarşı mübarizə proqramlarını dəstəkləyir. Dünya Bankının dəstəyi ilə 1996-cı ildən bəri korrupsiyaya qarşı mübarizə üzrə 600-dən çox layihə icra edilmişdir. Korrupsiyaya qarşı mübarizədə Dünya Bankı tərəfindən 5 əsas prinsip rəhbər tutulur:

1) Korrupsiyaya görə siyasi məsuliyyətin artırılması;
2) Korrupsiya ilə mübarizədə qeyri-hökumət təşkilatlarının aktivliyinin artırılması;
3) Özəl sektorda rəqabət mühitinin yaradılması;
4) Bu istiqamətdə dövlət orqanlarının imkanlarından maksimum yararlanmaq;
5) Dövlət vəsaitlərinin səmərəli idarə olunması (6).

Dünya Bankı tərəfindən göstərilən prinsiplər əsasında həyata keçirilən fəaliyyət əksər hallarda inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutulmuşdur.

Beynəlxalq hökümətlərarası maliyyə qurumu olan FATF-ın (Financial Action Task Force) fəaliyyəti korrupsiya ilə mübarizə üçün də olduqca vacibdir. Belə ki, FATF-ın əsas fəaliyyəti cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması qarşı mübarizədə dövlətlərə dəstək verməkdir. Qeyd etmək lazımdır ki, 90-cı illərin sonundan etibarən korrupsiya cinayətləri nəticəsində əldə olunan vəsaitlərin leqallaşdırılması artmağa başlamışdır. Bu öz növbəsində korrupsiya cinayətlərinin predikativ cinayət kimi ilk sıralarda olmasına gətirib çıxarmışdır. FATF tərəfindən çirkli pulların leqallaşdırılmasına qarşı dövlətlərə kömək məqsədilə 40 tövsiyə qəbul edilmişdir. Sonralar əlavə 8 tövsiyə də qəbul edilmişdir. Bu tövsiyələr ölkəmizdə də çirkli pulların leqallaşdırılmasına qarşı mübarizədə rəhbər tutulur.

Korrupsiya ilə mübarizədə iqtisadi sahədə sadalananlardan savayı müxtəlif səviyyədə olmaqla bir çox təşkilatların rolu vardır. Buraya Dünya Ticarət Təşkilatı (WTO – World Trade Organization), Beynəlxalq Valyuta Fondu (İMF – İnternational Monetary Fund), İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (OECD – Organization for Economic Cooperation and Development) kimi təşkilatlar daxildir.

## Nəticə

Fəaliyyətlərinə qısa olaraq nəzər saldığımız bəzi təşkilatların vahid məqsədlərinin olduğunu görürük. Bu məqsəd korrupsiyaya qarşı mübarizədə dövlətlərin strategiya müəyyən etməsinə, qanunvericilik sistemlərinin təkmilləşdirilməsinə və dövlətlərin öz müsbət təcrübəsinin ixracına şərait yaratmaqdır. Azərbaycan Respublikası da sözügedən mötəbər beynəlxalq təşkilatların bir çoxu ilə əməkdaşlıq edir və müasir təcrübənin tətbiqinə maraq göstərir. Hətta bəzi hallarda müsbət

təcrübəsini də digər ölkələrlə bölüşür. Məsələn, "ASAN Xidmət" modelinin tətbiqindəki uğur bu təcrübənin bölüşülməsini mümkün edir. Eyni zamanda, ölkəmiz apardığı səmərəli beynəlxalq əməkdaşlıq nəticəsində korrupsiya qarşı mübarizədə mütərəqqi beynəlxalq standartların tətbiqinə önəm verir. Hesab edirəm ki, Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2022-ci il tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" bu istiqamətdə atılmış addımdır. Qeyd edək ki, bu növbəti mərhələdə görüləcək işlər üçün sadəcə bir başlanğıcdır.

## Ədəbiyyat

1. Global Programme against Corruption: an outline for action. (1999). United Nations Interregional Crime and Justice Research Institute. February.
2. BMT-nin Korrupsiya əleyhinə Konvensiyası. https://e-qanun.az/framework/10784
3. Karakaş, M., Çak, M. (2007). Korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşkilatların rolu. Maliyyə jurnalı, 153-cü say, iyul-dekabr.
4. Çakır, Y. (2013). Korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşkilatlar. Hesablama Məhkəməsinin Jurnalı. Sayı: 91, Oktyabr-Dekabr.
5. Korrupsiyaya qarşı mübarizədə ölkələrə yardım. (1997). Dünya Bankının rolu. İlin sentyabrı
6. Korrupsiya bir fenomen kimi: səbəbləri, təsirləri və həlli yolları.

Tepav.org.trhttps://www.tepav.org.tr› filesPDFCkorrupsiya bir fenomen kimi: səbəblər, təsirlər və həll yolları – TEPAV

Göndərildi: 13.02.2023 Qəbul edildi: 11.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/107-110

**Rakhshanda Seyidzade**
Baku State University
master student
raskhandaseyidzade@gmail.com

# GENERAL FORM OF MULTISTEP METHODS AND SOME COMPARISONS OF THE VOLTERRA INTEGRAL EQUATION APPLIED TO THE SOLUTION OF THE INITIAL PROBLEM FOR FIRST-ORDER ODES

## Abstract

Some methods are considered to be a connection between Volterra integral equations and differential equations. It is about some comparison of some methods for solving the initial problem for first-order differential equations, as well as the application of the forward running method in Voltaire's integral equation.Many methods of variable boundary theory are used in solving integral equations.These methods are considered to be a link between solving ordinary differential equations and Voltaire integral equations. Forward running method, hybrid method, etc. methods are special methods for solving these equations. There are many methods for solving Volterra-type equations.However, a numerical method that can ensure the reliability or regularity of the obtained results has not yet been. Therefore, it is important to establish some routine methods. Many transformations related to the calculation of the integral kernel are known. İt is possible to view some of them.

***Keywords:*** *ODEs, Volterra type integral equation, hybrid method, forward running metod, quadrature method, first-order differential equations*

**Rəxşəndə Seyidzadə**
Bakı Dövlət Universiteti
magistrant
raskhandaseyidzade@gmail.com

## Birinci dərəcəli əmsallar üçün ilkin məsələnin həllinə tətbiq edilən çoxmərhələli metodların ümumi görünüşü və Volterra inteqral tənliyinin bəzi müqayisələri

## Xülasə

Bəzi üsullar Volterra inteqral tənlikləri ilə diferensial tənliklər arasında əlaqə hesab olunur. Söhbət birinci dərəcəli diferensial tənliklər üçün ilkin məsələnin həlli üçün bəzi üsulların bəzi müqayisəsindən, həmçinin Volterin inteqral tənliyində irəliyə doğru qaçış metodunun tətbiqindən gedir. İnteqral tənliklərin həllində dəyişən sərhəd nəzəriyyəsinin bir çox üsullarından istifadə olunur.

Bu üsullar adi diferensial tənliklərlə Volter inteqral tənliklərinin həlli arasında əlaqə hesab olunur. İrəli qaçış üsulu, hibrid metod və s. üsullar bu tənliklərin həlli üçün xüsusi üsullardır. Volterra tipli tənliklərin həlli üçün bir çox üsullar mövcuddur.

Lakin əldə edilən nəticələrin etibarlılığını və ya qanunauyğunluğunu təmin edə bilən ədədi üsul hələ də mövcud deyildir. Buna görə də bəzi rutin metodların yaradılması vacibdir. İnteqral nüvənin hesablanması ilə bağlı bir çox çevrilmələr məlumdur. Onlardan bəzilərinə baxmaq mümkündür.

***Açar sözlər:*** *ODE-lər, Volterra tipli inteqral tənlik, hibrid metod, irəli qaçış metodu, kvadratura metodu, birinci dərəcəli diferensial tənliklər*

## Introduction

Let's assume that Voltaire's integral equation of the second kind is given:

$$y(x) = f(x) + \int_{x_0}^{x} K\big(x,t,y(t)\big)dt \quad x_0 \le x \le X \qquad (*)$$

Since then, many scientists have tried to find approximate solutions of equation (*). We know that it is not easy to find the exact solution of equation (*). Recently, its numerical solutions have been much investigated Suppose that the equation (*) has a unrepeatable continuous solution on the segment $[x_0, X]$. To find the numerical solution of equation (*), we divide the segment into n equal parts. $x_m = x_0 + mh \;\; h > 0$. (Mehdiyeva, Imanova, 2019).

Quadrature method and its modifications are used in the numerical solution of many problems. Constant coefficients were established for the solution of equation (*). Sometimes such methods are used that it is possible to make a calculation by yourself. First the kernel of the integral is investigated. It is easy to see that if the integral's kernel, the function $K(x, y, z)$, is independent on x , the finding of the solution of equation (*) will be equivalent to finding of the Cauchy problem for first order ordinary differential equations (Mehdiyeva, Imanova, Ibrahimov, 2013: 4875-4890).

As you know, there are some classes of methods for solving the initial problem for first-order ODEs. Among them, the most popular numerical methods are Runge-Kutti methods, multi-step methods, forecast-correction methods, methods with anticipation, hybrid methods. Note that each of these methods is a separate object of research. Considering that in applications of multi-step methods, it is very often necessary to build stable methods with high accuracy. Some authors suggest using numerical methods with second derivatives. One of the simplest methods with second derivatives is the following method (Gear, 1965: 69-85).

$$y_{n+1} = y_n + \mathrm{h} y_n^{\iota} + h^2 y_n^{\iota\iota}, \quad (1)$$

Which, when applied to the initial problem:

$$y^{\iota} = f(x,y), \;\; y(x_0) = y_0, \;\; x_0 \le x \le x\,, \qquad (2)$$

Recorded

$$y_{m+1} = y_m + \mathrm{h}\, f(x_m + y_m) + \frac{h^2}{2}\mathrm{g}(x_m + y_m), \qquad (3)$$

It follows that when calculating the values of the function g (x, y), the number of computational work is doubled. But, the accuracy of the method increases by one, since method (1) has an accuracy of p>2, which follows from the expansions of the function in a Taylor series. Indeed, consider the following Taylor expansion:

$$\mathrm{y}\,(\mathrm{x}+\mathrm{h}) = \mathrm{y}(\mathrm{x}) + h^{\iota}\mathrm{y}'\,(\mathrm{x}) + \frac{h^2}{2} y^{\iota\iota}\,(\mathrm{x}) + \mathrm{O}(\mathrm{h}^3),$$

It is known that in this expansion the first two terms coincide with the known Euler method, so the local error of the Euler method is equal to $O(h^2)$. And the local error of method (1) is equal to $O(h^3)$ (Mehdiyeva, Ibrahimov, 2013: 314).

If we generalize method (1), then in one version we get:

$$\sum_{j=0}^{k} a_j y_{m+j} = h \sum_{j=0}^{k} b_j f_{m+j} + h^2 \sum_{j=0}^{k} c_j g_{m+j} \qquad (4)$$

Here coefficients $a_i b_i c_i$(0,1,2.......n) are some real numbers. Note that method (4) is usually studied in two forms. Methods with second derivatives in the general form are used in the form (4). However, depending on the tasks to be solved, this method can be represented as the following method:

$$\sum_{j>0}^{k} a_j y_{m+j} = h^2 \sum_{j>0}^{k} b_j g_{m+j} \quad . \qquad (5)$$

Note that the properties of methods (4) and (5) do not match. Therefore, they are a separate object of research.

The simplest method obtained from formula (5) can be written in the following form:

$$y_{m+1} = y_m + h^2 \mathrm{g}(x_m, y_m), \qquad (6)$$

As is known, one of the popular numerical methods for solving the Volterra equation is the quadrature method. However, like many other methods, the quadrature method also has some drawbacks. In their application to the solution of an integral equation of the Volterra type, the amount of computational work increases when moving from one point to the next. Here, a specially constructed method is proposed for solving integral equations freed from the above drawbacks (Mehdiyeva, Imanova, Ibrahimov, 2014: 352-356).

Consider the following non-linear Volterra equation:

$$y(x) = f(x) + \int_{x_0}^{x} K\big(x, s, y(s)\big) ds \quad (6)$$

It is clear that if we apply the quadrature method to the solution of the equation, we get:

$$y(x_m) = f(x_m) + h \sum_{j=0}^{m} b_j K(x_m, x_j, y_j) + P_n(x_m) \quad (7)$$

If we set up this method for calculations, we get:

$$y(x_{m+1}) = f(x_{m+1}) + h \sum_{j=o}^{m+1} b_j K(x_{m+1}, x_j, y_j) + P_n(x_{m+1}) \qquad (8)$$

Using comparisons of these methods, we observe that the number of calculations increases each time we move from one point to another. However, there are methods in which the number of uses does not increase in the calculation of the function when using it. For this purpose, consider the following method (Linz):

$$\sum_{m=0}^{k-l} a_i y_{n+m} = h \sum_{m=0}^{k} \sum_{j=m}^{k} b_m^j \, K(x_j, x_m, y_m) \ (9)$$

Note that if , method ( 9 ) is considered an obvious method , if , then method ( 9 ) is usually called non-obvious , if .

These methods use data from current and previous split points. Recently, however, methods have been used that use information about the solution at later points. When there are these methods, it is called forward running method derived from method (9). However, this does not mean that forward running methods are a special case of implicit or explicit methods. Note that forward running methods are an object of free research In this method, it is easy to determine that the values of the solution of the problem studied at the previous, current and subsequent points are used.

Thus, we observe that the point where we are looking for the value of the solution of the studied problem depends on the value of the function at the previous and subsequent points, that is, these values are located symmetrically. This method was applied to the solution of the model integral equation for example. The obtained result is consistent with the theoretical ones (Butcher, 1965: 124-135).

## Conclusion

The aim of this work is to apply the method of constructing solutions to equation (*), the study of the solution of integral equations of Volterra type with symmetrical borders,to get more accurate results it is necessary to use secret methods, but their application to the solution of specific equations have difficulty choosing appropriate methods of forecasting.as a result, application to solving of integral equations with symmetric variable boundaries method for constructing solutions to the equation does not take place mechanically. According to this we consider the use of multistep methods with constant coefficients to solving integral equations with symmetric boundaries of Volterra type (Yanenko, 1967).

## References

1. Mehdiyeva, G., Imanova, M. (2019). On the construction of the advanced Hybrid Methods and application to solving Volterra Integral Equation,WSEAS Weak transactions on systems and control, V.14
2. Mehdiyeva, G., Imanova, M., Ibrahimov, V. (2013). A way to construct an algorithm that uses hybrid methods. Applied Mathematical Sciences, HIKARI Ltd, Vol. 7, no. 98, p.4875-4890.
3. Gear, C. (1965). Hybrid methods for initial value problems in ordinary differential equations. SIAM, J. Numer. Anal. v. 2, p.69-85.
4. Mehdiyeva, G., Ibrahimov, V. (2013). On the research of multi-step methods with constant coefficients. Monograph, Lambert. acad. publ., 314 p.
5. Mehdiyeva, G., Imanova, M., Ibrahimov, V. (2014). Some application of the hybrid methods to solving Volterra integral equations Advances in Applied and Pure mathematics, Proceedings of 2 Intern. Conf. On Math. Comp and Aqtatist. Science (MCSS), p.352-356.
6. Linz, P. Linear Multistep methods for Volterra Integro-Differential equations, Journal of the Association for Computing Machinery, Vol.16.
7. Butcher, J. (1965). A modified multistep method for the numerical integration of ordinary differential equations. J. Assoc. Comput. Math., v.12, p.124-135.
8. Yanenko, N. (1967). Riyazi fizikanın çoxölçülü məsələlərinin həlli üçün fraksiya addımları metodu, “Nauka” nəşriyyatı – Sibir filialı Novosibirsk.

Received: 20.02.2023 Accepted: 10.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/111-113

**Aysun Badalova**
Baku State University
master student
aysun.badaloova@gmail.com

# THE ADVANTAGES AND DISADVANTAGES OF MEDIATION PROCESS

## Abstract

One of the alternative dispute resolutions is mediation. Mediation is a very practical and flexible method for resolving disputes. It has a special superiority when the parties have ongoing relations that must continue after the dispute is managed. Because the settlement agreement is by consent and none of the parties should have reason to feel they are the losers. Despite the fact that mediation provides the basis for the restoration of relations after a specific issue is resolved, it is actually a method that is not often used by disputing parties. So, the main purpose of researching the characteristic features of the mediation process as one of the alternative dispute resolutions is to show the advantages of this procedure and perspective of applying to a mediator for resolution of disputes without going to court. As well, besides all these positive aspects, showing the negative aspects of the mediation process that may arise in some cases.

***Keywords:*** *alternative dispute resolution, mediation session, mediator, independence, voluntary, confidentiality, advantage, disadvantage*

**Aysun Bədəlova**
Bakı Dövlət Universiteti
magistrant
aysun.badaloova@gmail.com

## Mediasiya prosesinin müsbət və mənfi cəhətləri

## Xülasə

Qarşı tərəf öz öhdəliyini yerinə yetirmədikdə bank qarşı tərəfin kredit riskinə məruz qala bilər. İpoteka bankçılıq fəaliyyəti ilə bağlı qarşı tərəflərə broker-dilerlər, müxbir kreditorlar, özəl ipoteka sığortaçıları, satıcılar, sub-servislər və kredit bağlama agentləri daxildir (FFIEC, 2010: 42). Qarşı tərəf maliyyə cəhətdən qeyri-sabit olarsa və ya əməliyyatla bağlı çətinliklər yaranarsa, bank debitor borclarını yığa bilməyəcək və ya başqa yerdə xidmət axtarmağa məcbur ola bilər. Buna görə də, bank mütəmadi olaraq qarşı tərəflərin hərəkətlərini izləməli və maliyyə sabitliyinin müvafiq təhlilini aparmalıdır.

*Faiz Riski*

Faiz dərəcəsi riskinin qiymətləndirilməsi mürəkkəb, qeyri-likvid hedcinq strategiyalarının və ya məhsulların təsirini, həmçinin faiz dərəcələrindəki dəyişikliklərə həssas olan komissiya gəlirlərinə potensial təsirini nəzərə almalıdır. Müvafiq olaraq, effektiv risklərin idarə edilməsi təcrübələri və aktiv və öhdəlik komitəsi və ya oxşar panel tərəfindən nəzarət yaxşı idarə olunan ipoteka bankçılığı əməliyyatının vacib hissəsidir (OCC Bulletin, 2011-6: 17).

Artan faiz dərəcələri ev alanların daşınmaz əmlak kreditini maliyyələşdirmək istəyini və ya qabiliyyətini azalda bilər. Daha yüksək dərəcələr kreditlərin verilməsinin həcminə mənfi təsir göstərə bilər və gəlirliliyə mənfi təsir göstərə bilər. Bununla belə, artan faiz dərəcələri və onu müşayiət edən aşağı ilkin ödənişlər xidmət gəlirlərini və ipoteka xidmət aktivləri (Management and Supervision, qısaca MSA) portfelinin dəyərini artıra bilər.

MSA-lar mənfi qabarıqlıq adlanan şeyi nümayiş etdirir, yəni İdarəetmə və Nəzarət -nın dəyəri faiz dərəcəsi dəyişiklikləri ilə xətti əlaqədə hərəkət etmir. Faiz dərəcələri aşağı düşdükdə, əvvəlcədən ödəmə sürəti artır və MSA dəyərlərinin azalmasına səbəb olur. Dərəcələr yüksəldikdə, MSA dəyərləri dərəcələr azaldıqda azaldığı qədər artmır (asimmetrik təsir). Faiz dərəcələrindəki dəyişikliklərin MSA-ların ədalətli dəyərinə və bazar qiymətinə təsiri həm dərəcənin dəyişməsinin şiddətindən, həm də MSA dəyər dəyişikliklərinin asimmetrik xarakterindən asılıdır. Faiz dərəcələrinin aşağı düşməsi və ipotekanın yenidən maliyyələşdirilməsi satan bankı mükafatın geri qaytarılmasına məruz qoya bilər. Satıcı bank müəyyən müddət ərzində (investor müqaviləsində göstərildiyi kimi) yenidən maliyyələşdirilən kreditlərin satışından əldə etdiyi mükafatları müsadirə etməli ola bilər.

*Likvidlik riski*

İpoteka bankçılığında kredit və əməliyyat riskinin zəif tərəfləri, əgər bank investorların və ya sığortaçıların tələblərinə uyğun olaraq kreditləri təmin etmədikdə və ya onlara xidmət göstərmədikdə likvidlik problemlərinə səbəb ola bilər. Nəticədə, bank ipoteka inventarını və ya xidmət hüquqlarını sata bilməyəcək. Bundan əlavə, investor bankdan uyğun olmayan şəkildə sığortalanmış və ya xidmət göstərilmiş kreditlərin ödənilməsini və ya geri alınmasını tələb edə bilər. Xidmətçilər kreditin defolt vəziyyətinə düşdüyü əmlakların ləğvi prosesi zamanı əsas borcun və faizlərin investorlara davamlı köçürülməsini tələb edən yüksək səviyyəli defolt kreditləri səbəbindən artan likvidlik riski ilə üzləşirlər.

*Qiymət riski*

Qiymət riski alqı-satqı alətlərinin dəyərinə təsir edən bazar amillərindəki dəyişikliklərə (məsələn, faiz dərəcələri, bazar likvidliyi və dəyişkənlik) diqqət yetirir. Faiz dərəcələrindəki dəyişikliklər anbar kreditlərinin və boru kəməri öhdəliklərinin dəyərinə təsir edə bilər və adekvat şəkildə hedcinq edilmədikdə, bazar itkilərinə səbəb ola bilər. Faiz dərəcələrində dəyişikliklərin MSA-ların ədalətli dəyərini aşağı salması riski adətən faiz dərəcəsi riski hesab edilir. Bununla belə, əgər bank öz MSA-larını aktiv şəkildə alıb-satırsa, bu, qiymət riski hesab edilə bilər.

Faiz dərəcələrinin aşağı düşməsi borcalanların daha sərfəli şərtlər axtarmasına və kreditlər bağlanana qədər kredit ərizələrini geri götürməsinə səbəb ola bilər. Müştərilər kredit müraciətlərini bağlamırlarsa, adətən uğursuzluq kimi tanınır, bank məcburi forvard satış öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər kredit verə bilməyəcək. “Düşmə” səbəbindən bank təkrar bazarda daha yüksək qiymətlərlə əlavə kreditlər almalı ola bilər. Alternativ olaraq, bank, adətən cütləşmə razılaşması kimi tanınan, qarşı tərəfə haqq ödəməklə, ipoteka kreditlərinin çatdırılması üzrə satış öhdəliyinə xitam verə bilər. Artan dərəcələr kifayət qədər boru kəməri hedcinqi mühafizəsi olmadan daha çox kreditin bazardan aşağı faizlə bağlanmasına səbəb ola bilər. Bu kreditlər adətən zərərlə satılır. Boru kəməri menecerləri gələcək dərəcələrə qərəzli baxışlarına əsaslanaraq uyğun olmayan risk mövqeləri tutduqları zaman məzənnə dəyişkənliyi əhəmiyyətli risk yarada bilər.

*Əməliyyat riski*

İpoteka bankçılığı biznesinin həcmi, dövri xarakteri və mürəkkəbliyi əməliyyat sistemlərinin, proseslərin və personalın imkanlarını gərginləşdirə bilər. Əməliyyat riski daxili nəzarət, informasiya sistemləri, işçilərin bacarığı və dürüstlüyü və ipoteka bankçılıq əməliyyatında iştirak edən əməliyyat proseslərinin funksiyasıdır.

Müvəffəqiyyətli olmaq üçün ipoteka bankçılıq əməliyyatı böyük həcmdə kreditlər üzrə ödənişləri səmərəli şəkildə yaratmalı, satmalı, xidmət göstərməli və emal etməlidir. Uğurlu ipoteka bankçılıq əməliyyatının hər hansı funksiyası şirkət daxilində və ya üçüncü tərəflə müqavilə əsasında həyata keçirilə bilər. Nəzarət olunmayan əməliyyat riskləri banka əhəmiyyətli itkilərə səbəb ola bilər.

İnvestorların rəyləri kreditin düzgün tərtib edilmədiyini göstərirsə, bank krediti geri almalı və ya investorları itkilərə görə kompensasiya etməli ola bilər. Əməliyyat riskini idarə etmək üçün ipoteka bankı şirkəti səriştəli idarəetmə və işçi heyətini işə götürməli, effektiv əməliyyat sistemlərini və daxili nəzarəti təmin etməli və hərtərəfli MIS-dən istifadə etməlidir. Back-ofis emal funksiyaları qeyri-adekvat və ya zəif təlim keçmiş işçilərə qarşı həssasdır və səmərəsizdir. Çatışmayan girov sənədlərinin həddən artıq həddən artıq olması aktivin keyfiyyətinə, toplana bilmə qabiliyyətinə və satış qabiliyyətinə xələl gətirə bilən əməliyyat riskinin digər mənbəyidir. Rəhbərlik bu riski düzgün müəyyən edən və idarə edən nəzarət sistemləri yaratmalı və saxlamalıdır. Bankın çoxlu sayda sənədləri çatışmayan kreditləri varsa, bu kreditləri endirimlə satmaq lazım ola bilər (OCC Bulletin 2011-12: 7).

İpoteka xidmətçiləri əmanət hesablarını idarə edərkən, ödənişləri sıfırladıqda, ödənişləri emal etdikdə və sənədlərin saxlanması fəaliyyətlərini yerinə yetirdikdə əhəmiyyətli əməliyyat riskinə məruz qalırlar. təmin etməlidir.

Əməliyyat riskini məhdudlaşdırmaq üçün bankın məlumat və uçot sistemləri böyük həcmdə məlumatları dəqiq və səmərəli şəkildə emal edə bilməlidir. İT əməliyyat riskinin həm kəmiyyətinə,

həm də keyfiyyətinə təsir göstərə bilər. Çox sayda sənədlərin olması və əməliyyatların yüksək həcminə görə, təfərrüatlı yardımçı kitablar bütün baş kitab hesablarını dəstəkləməlidir.

*Uyğunluq Riski*

Banklar ipoteka məhsulu seçimi etməzdən əvvəl istehlakçıların ipoteka kreditləri, o cümlədən qeyri-ənənəvi və yüksək keyfiyyətli ipoteka məhsulları haqqında aydın və balanslaşdırılmış məlumata malik olmasını təmin etməlidir. Bank həmçinin öz nümayəndələrinin və ya agentliklərinin istehlakçının hər hansı konkret ipoteka məhsuluna düzgün istiqamət verməməsini təmin etməlidir. Təqdimat materialları, satış nümayəndəlikləri və digər məhsul təsvirləri istehlakçılara ipoteka məhsullarının dəyəri, şərtləri, xüsusiyyətləri və riskləri haqqında məlumat verməlidir ki, bu da istehlakçılara məhsul seçimi qərarlarında kömək edə bilər.

*Strateji Risk*

İpoteka bankçılığında strateji risklərin idarə edilməsi üzrə qeyri-adekvat təcrübələr bankı məhsulların kəmiyyət və ya keyfiyyətindəki dəyişikliklər, idarəetməyə nəzarət, hedcinq qərarları, alışlar, rəqabət və texnologiya nəticəsində yaranan maliyyə itkilərinə məruz qoya bilər. Bu risklər adekvat şəkildə dərk edilməzsə, ölçülməzsə, izlənilməzsə və idarə olunmazsa, onlar yüksək mənfəət dəyişkənliyi ilə nəticələnə bilər.

Rəhbərlik strateji riski məhdudlaşdırmaq üçün sənayenin iqtisadi dinamikasını və bazar şərtlərini başa düşməlidir. Buraya təşəbbüslərin əsaslı məlumatlara əsaslanmasını təmin etmək üçün ipoteka bankçılıq əməliyyatlarının hər bir əsas seqmentinin xərc strukturunun və gəlirliliyinin başa düşülməsi daxildir (OCC Bulletin, 2013-29: 64).

*Reputasiya riski*

Bankın ipoteka bankçılıq fəaliyyətinin hər hansı bir hissəsində əməliyyat pozğunluğu və ya ümumi zəiflik bankın nüfuzuna xələl gətirə bilər. Məsələn, üçüncü tərəf investorları üçün kreditlərə xidmət göstərən bir ipoteka bankı investorlar və borcalanlar adından ehtiyatlı davranmaq üçün əməliyyat və inzibati məsuliyyət daşıyır. Müvafiq nəzarət və monitorinq sistemləri olmadan, təhriflər, vəzifə pozuntuları, inzibati xətalar, ödənişlərin toplanması və emalında səhvlər, konfidensial müştəri məlumatlarının açıqlanması və maraqların toqquşması baş verə bilər (Munro, 2005: 248). Bu əməliyyat pozğunluqlarından hər hansı biri biznesin itirilməsi, məhkəmə çəkişmələri, maliyyə itkisi və ya bankın reputasiyasının zədələnməsi ilə nəticələnə bilər.

Ayrı-seçkilik və ya soyğunçuluq praktikası ilə məşğul olan və ya digər şəkildə tətbiq olunan istehlakçı qanun və qaydalarına əməl etməyən banklar ciddi reputasiya riskinə məruz qalırlar. Haqsız və ya aldadıcı kreditvermə praktikasına dair iddialar, hətta üçüncü tərəflər kredit riskini mənimsəsə belə, arzuolunmaz reklam, müştəri şikayətləri və ya məhkəmə çəkişmələrini cəlb edə bilər. Kredit satışı və qeyri-ənənəvi və ya yüksək səviyyəli ipoteka kreditlərinin sekuritləşdirilməsi, əgər borcalanlar və ya investorlar bu kreditlərin risklərini başa düşmürlərsə, reputasiya riskini artıra bilər (9).

Təkrar bazara kredit verən və satan banklar bazarda öz nüfuzlarını qorumaq və gələcək kredit satışlarını dəstəkləmək üçün effektiv anderraytinq və sənədləşdirmə standartlarına əməl etməlidirlər. İnvestisiya hovuzunda olan əhəmiyyətli sayda kreditlər defolt vəziyyətinə düşdükdə, təkrar bazar həmin bank tərəfindən verilən bütün kreditlərlə bağlı narahatlıq yarada bilər (10).Bu defoltlar bankın təkrar bazarda yeni kreditlər satma qabiliyyətinə mənfi təsir göstərə bilər.

Eynilə, qeyri-düzgün icra edilən girovlar dövlət və federal qanunların pozulması ola bilər və nəticədə bankın reputasiyasına mənfi təsir göstərə bilər. Banklar, adətən, bankın kredit verib-verməməsindən və ya hazırda kreditə xidmət göstərməsindən asılı olmayaraq, girov hərəkətləri ilə bağlı mənfi reklamlarla üzləşirlər (11). Çox sayda girovlar, hətta düzgün icra olunsa belə, reytinq agentliyi tərəfindən bankın reputasiyasına və xidmət reytinqinə mənfi təsir göstərə bilər.

## Nəticə

Beynəlxalq standartlar hər bir bankdan onun ölçüsünə və əməliyyatlarının mürəkkəbliyinə uyğun effektiv risk idarəetmə sistemini tətbiq etməklə riski müəyyən etməyi, ölçməyi, izləməyi və nəzarət etməyi gözləyir. İpoteka bankçılığı müəssisəsinin uğuru aydın şəkildə ifadə olunmuş

effektiv risk idarəetmə sistemlərindən, o cümlədən düzgün korporativ idarəetmədən, effektiv siyasətlərdən, güclü daxili nəzarətdən, effektiv uyğunluğun idarə edilməsi proseslərindən, müvafiq strateji planlardan və hərtərəfli MIS-dən asılıdır. İpoteka bankçılıq risklərinin idarə edilməsi bankın ümumi risklərin idarə edilməsi çərçivəsinə inteqrasiya edilməlidir. Bu kritik sahələrdən hər hansı birində zəifliklər bankın dəyişən bazar şərtlərinə tez reaksiya vermək qabiliyyətini azalda bilər və bankın maliyyə vəziyyətini təhlükə altına qoya bilər (12).

Düzgün korporativ idarəetmə bankın ipoteka bankçılığı və ipoteka xidməti biznesinin təhlükəsizliyi və möhkəmliyi üçün çox vacibdir. Müvafiq təşkilati struktur, ünsiyyət və hesabat bankın korporativ idarəetməsinin effektivliyini müəyyən edən əsas aspektlərdir. Vəzifələrin bölgüsü həm korporativ idarəetmənin, həm də daxili nəzarətin mühüm xüsusiyyətidir.

## Ədəbiyyat

1. Syz, J. Vanini, P., Salvi, M. (2008). Property derivatives and index-linked mortgages. Journal of Real Estate Finance and Economics 36 (1).
2. Journal of Finance (2019). 76 (3), p.1091-1143. December.
3. Drechsler, I., Savov, A. Schnabl, P., (2021). Banking on deposits: Maturity transformation without interest rate risk.
4. FFIEC. (2010). “The Detection and Deterrence of Mortgage Fraud Against Financial Institutions: A White Paper”. February.
5. OCC Bulletin. (2011). “SAFE Act Mortgage Loan Originator Registration Requirements: Notice of Initial Registration Period” (February 3, 2011)
6. OCC Bulletin 2011-12, “Sound Practices for Model Risk Management” (April 4, 2011)
7. 7OCC Bulletin 2013-29, “Third-Party Relationships: Risk Management Guidance” (October 30, 2013)
8. Munro, M., Ford, J., Leishman, C., Karley, N. (2005). Lending to higher risk borrowers:subprime credit and sustainable home ownership. York: JRF
9. https://www.investopedia.com/articles/mortgages-real-estate/10/5-risky-mortgage-loans.asp
10. https://www.oreilly.com/library/view/mortgage-backed-securities-products/9781118044711/h3.html
11. https://www.sciencedirect.com/science/article/abs/pii/S0378426616300590
12. https://fcnb.ca/en/guides/consider-the-risks-of-private-mortgages

Göndərildi: 16.02.2023 Qəbul edildi: 12.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/156-158

**Aysun Badalova**
Baku State University
master student
aysun.badaloova@gmail.com

# THE ESSENCE OF THE SETTLEMENT AGREEMENT CONCLUDED IN THE MEDIATION PROCESS

## Abstract

If the parties reach a consent as a result of the mediation process, a settlement agreement is signed. A settlement agreement is an indication of the dispute resolution. The requirements of the legislation should be followed when drafting this agreement, which is concluded through the helping of a mediator. In addition to the rules for concluding a settlement agreement, attention should also be paid to its implementation procedure. Because sometimes in practice, despite the fact that the agreement was concluded based on the consent of both parties, there are cases of refusal to implement it. Therefore, since it is one of the actual issues, in this researching, the nature of the settlement agreement concluded as a result of the mediation process, what powers the agreement gives to the parties and what obligations it imposes have been determined. In addition, what rules should be followed when the agreement is concluded and the implementation stage of the agreement after the conclusion was also touched up on.

***Keywords:*** *mediation session, mediator, settlement agreement, implementation, voluntary*

**Aysun Bədəlova**
Bakı Dövlət Universiteti
magistrant
aysun.badaloova@gmail.com

## Mediasiya prosesində bağlanan barışıq sazişinin əhəmiyyəti

## Xülasə

Mediasiya prosesi nəticəsində tərəflər razılığa gəldikləri təqdirdə barışıq sazişi imzalanır. Barışıq sazişi mübahisənin həll edilməsinin göstəricisidir. Mediatorun vasitəçiliyi ilə bağlanan bu razılıq tərtib olunan zaman qanunvericiliyin tələblərinə riayət olunmalıdır. Barışıq sazişininin bağlanma qaydaları ilə yanaşı, onun icra proseduruna da diqqət yetirilməlidir. Çünki bəzən praktikada sazişin hər iki tərəfin razılığına əsasən bağlanmasına baxmayaraq, onun icrasından boyun qaçırma hallarına rast gəlinir. Odur ki, aktual məsələlərdən olduğu üçün bu araşdırmada mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin xarakteri, müqavilənin tərəflərə hansı səlahiyyətləri verdiyi və üzərlərinə hansı öhdəliklər qoyduğu müəyyən edilmişdir. Bununla yanaşı, saziş bağlanan zaman hansı qaydalara əməl edilməli və bağlandıqdan sonra razılaşmanın icrası mərhələsinə də toxunulmuşdur.

***Açar sözlər:*** *mediasiya sessiyası, mediator, barışıq sazişi, icra, könüllük*

## Introduction

Mediation is one of the alternative and flexible dispute resolution procedures. The mediator's role is to guide the parties achieving the solutions in disputable matter. Through joint meetings with the parties and separate groups, the mediator helps both parties to clearly define the issues, understand each other's position and approach a solution which is available for two sides. The mediator has only an auxiliary role in this process and their opinions are not binding on the parties. However, if the parties come to an agreement with the proposal of the mediator, a settlement agreement is signed between the parties, directed to implementation and the implementation of this

agreement is mandatory for the parties, as it implies liability for the parties in case of voluntary non-performance.

In the article 1.0.7 of the Law on Mediation of Azerbaijan Republic defines the settlement agreement and states that this act is a written agreement reached between the parties as a result of the mediation process. It is known from the given definition, that the settlement agreement is concluded in written form. Concluding the settlement agreement in written form is one of the main requirements of the law. Failure to comply with this requirement may make it difficult to enforce the agreement in the future (Law on Mediation of Azerbaijan Republic, 2019).

Besides, the requirements can be different depending on the legislation of states. For example, according to German law mediation settlement agreement reached with the assistance of a certified mediator takes the legal nature of a private contract. The mediation code does not contain any requirements regarding the form of this contract. Therefore, an oral agreement is possible according to German law. In practice every mediation settlement agreement is in written form. This is to avoid the inevitable difficulties arising after one party challenges the content of the settlement in the aftermath. Only if the settlement agreement itself is about a legal transaction that legally requires a certain form which the settlement agreement must be signed in this form. For example, the settlement agreement by which one party agrees to transfer or acquire ownership of a plot of land must be recorded by a notary (Wilking, 2020: 14).

In addition to this requirement that the agreement be in writing, common practice stipulates a number of elements that must be specified in the agreement. Some of them are these:

- Identification of the parties: the names, addresses, communication ways of the parties to the disputable matter;
- Summary of the dispute: a brief description about the scope of the dispute;
- Requisites of the mediator: information about the mediator's identity and which organization he or she is a member of;
- Terms of settlement: the specific terms and conditions under which the parties have resolved their differences;
- Payment provisions: details of any payments that must be made by one party to the other;
- Confidentiality provisions: a clause restricting the parties from disclosing the agreement's contents to third parties and determining the liability for violation of breaching the settlement agreement conditions;
- Requisite blocks: space for signitures of parties and date of agreement (3).

The legislation of Azerbaijan Republic, The Law on Mediation is determining the all compulsory elements for the settlement agreement structure. According to article 33 of this law, the settlement agreement structure contains the following information:

- date and location where the contract is drawn up;
- the identity information about the parties;
- subject of the dispute;
- information about the mediator (mediators) and the mediation organization if the mediation process is carried out through a mediation organization;
- conditions accepted by the parties in the direction of dispute settlement, methods and terms of fulfilling those conditions;
- the consequences of non-implementation or improper implementation of the terms of the settlement agreement;
- other conditions in accordance with the Civil Code of Azerbaijan Republic, this Law and other normative legal acts (4).

After the conclusion of the settlement agreement, the next main stage is its implementation and monitoring of the implementation process. For this, first of all, it should be possible to fulfill the obligations in the settlement agreement. For example, if one of the parties undertakes an obligation that is dependent on a third party, prohibited by law or otherwise impossible to perform, problems may arise in the implementation of such a settlement agreement.

It is recommended to consider the quantification of obligations in the settlement agreement. For example, the funds that the parties have to pay must be clearly stated. The settlement agreement should also specify the period of performance of the obligations, so that there is no dispute about this in the future. For example, if one party undertakes to make any payment or perform any work, for the agreement to be valid it must be clear and specify the amount of the payment and the period within which it is to be paid (Smith, 2008: 56-57).

As well, one of the main issues to be noted is how to regulate the implementation of the settlement agreement. Although the settlement agreement is signed by the parties and the mediator, it is the duty of the parties to ensure the implementation of the settlement agreement. At the same time, the mediator must follow the procedure of implementation of the agreement. Unless otherwise stipulated in the contract, the settlement agreement becomes binding for the parties from the day of its signing. The settlement agreement must be executed voluntarily. If the settlement agreement does not specify a separate period between the parties, the settlement agreement must be executed voluntarily within 10 days from the day of signing.

## Conclusion

It can be noted as a result for the relevant case, if the parties reach an agreement at the end of the mediation process, the voluntary signing of the reconciliation agreement concluded with the help of the mediator, the importance of following the rules for the structure when the agreement is concluded, and the fact that the agreement is binding for the parties from the moment of signing were taken into account. At the same time, it was tried to determine the period for the voluntary execution of the agreement, and in case of refusal to voluntarily execute it, it creates liability for the parties determined by the legislation.

## References

1. Law on Mediation of Azerbaijan Republic. (2019). March 29, No. 1555-VQ, https://www.e-qanun.az/framework/41828
2. Wilking, F. (2020). WLKFEL001 Master of Dispute Resolution, The enforcement and setting aside of mediation settlement agreements: A comparison between German and international commercial mediation.
3. https://www.contractscounsel.com/t/us/mediation-settlement-agreement
4. https://www.e-huquq.az/az/news/mediation/35844.html
5. Smith, L., David, R., Smock. (2008). Managing Mediation Process, United States Institute of Peace, Washington, D.C. ISBN 978-1-60127-037.

Received: 01.03.2023 Accepted: 10.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/159-163

**Rövzə Şaməmmədli**
Bakı Dövlət Universiteti
magistrant
rovzash@gmail.com

# MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARININ HÜQUQİ BAZASININ TƏHLİLİ

**Xülasə**

XXI əsrin əvvəllərindən informasiya kommunukasiya texnologiyaları cəmiyyətin və iqtisadiyyatın inkişafına təsir göstərən əsas amillərdən biridir. İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının əsas göstəricilərindəndir. İKT-nin tətbiqinin mühüm istiqamətlərindən biri hüquqi-inzibati tənzimləmənin qanunvericilik əsaslarının yaradılmasıdır. İnformasiya qanunvericiliyi, informasiyanın istehsalı, istifadəsi və informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində qanun, normativ aktların və digər hüquqi nizamlama sənədlərinin məcmusundan ibarətdir. İnformasiya texnologiyalarının geniş tətbiqinin həm mənfi, həm də müsbət xüsusiyyətləri müşahidə edilir. Yeni texnoloji nailiyyətlər informasiya hüququ sahəsinin predmetini genişləndirmiş, informasiya texnologiyaları sahəsində normativ-hüquqi bazasının öyrənilməsini vacib etmişdir. Məqalədə informasiya texnologiyalarının beynəlxalq və milli səviyyələrdə mövcud normativ-hüquqi bazası araşdırılır.

***Açar sözlər:*** *informasiya texnologiyaları, qanun, hüquqi baza, idarəetmə, inkişaf*

**Rovza Shamammadli**
Baku State University
master student
rovzash@gmail.com

## Analysis of the legal basis of modern information technologies

**Abstract**

From the beginning of the 21st century, information communication technologies and the economy are one of the influencing factors. The application of information and communication technologies is one of the main mechanisms for the development of every high-level intellectual and scientific potential, public administration and democracy. One of the important directions of the application of ICT is the creation of legislative bases of legal-administrative regulation. Information legislation consists of a set of laws, normative acts and other legal regulatory documents in the field of information production, use and application of information and communication technologies. Both negative and positive features of the wide application of information technologies are observed. New technological achievements have expanded the subject of the field of information law and made it important to study the normative-legal basis in the field of information technologies.

The article examines the existing normative-legal basis of information technologies at the international and national levels.

***Keywords:*** *information technology, law, legal framework, management, development*

## Giriş

Son illər informasiya-kommunikasiya texnologiyaları (İKT) ölkəmizdə və dünya dövlətlərinin əksəriyyətində sürətlə inkişaf edərək bütün sahələrdə və eləcə də gündəlik həyatda insan fəaliyyətinin, sosial-iqtisadi münasibətlərin əsas hissəsini təşkil etmişdir. İKT-nin ən yeni

nailiyyətləri idarəetmə, təhsil, səhiyyə, biznes, turizm və bank xidməti kimi sahələrdə tətbiq edilərək cəmiyyətin hər bir üzvünə mövcud imkanlardan faydalanmağa şərait yaratmışdır.

İKT sferası infrastukturunun effektiv formalaşması və idarə olunması xüsusiyyətləri AMEA İnformasiya Texnologiyaları İnstitutunda tətqiq olunur. İnstitutun əsasını 1971-ci ildə AMEA Kibernetika İnstitutunun nəzdində yaradılmış Avtomatlaşdırılmış İdarəetmə Sistemləri Şöbəsi (AİS Şöbəsi) təşkil edir. 1982-ci ildən AİS Şöbəsi sərbəst hüquqi şəxs kimi fəaliyyət göstərir. 1997-ci ildə AİS Şöbəsinin əsasında İnformasiya-Telekommunikasiya Elmi Mərkəzi (İTEM) yaradılmışdır. 21 may 2002-ci ildə İTEM-nin əsasında İnformasiya Texnologiyaları İnstitutu təşkil olunmuşdur. İnstitutun əsas fəaliyyət istiqamətlərinə informasiya cəmiyyətinin elmi-nəzəri problemlərinin araşdırılması, informasiya mədəniyyətinin formalaşması problemləri, informasiya təhlükəsizliyinin təmin olunması problemləri, informasiya müharibəsi texnologiyalarının araşdırılması və s. aiddir (1).

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi sübut edir ki, elm, təhsil və iqtisadiyyatı əhatə edən sistemli siyasət hər bir ölkənin davamlı və dayanıqlı inkişafının başlıca təminatçısıdır. Bu siyasətin aparıcı qüvvəsi olan informasiya-kommunikasiya texnologiyaları (İKT) son illər sürətlə inkişaf edərək bütün sahələrdə və gündəlik həyatda insan fəaliyyətinin, sosial-iqtisadi münasibətlərin tərkib hissəsinə çevrilmişdir. İKT-nin ən yeni nailiyyətləri idarəetmə, təhsil, səhiyyə, biznes, turizm və bank xidməti kimi sahələrdə tətbiq edilərək cəmiyyətin hər bir üzvünə mövcud imkanlardan faydalanmağa şərait yaradır. Bu baxımdan yeni texnologiyalar üzrə dövlət siyasəti cəmiyyətin ictimai və siyasi təfəkkürünü qabaqlamalı, yaxın onilliklər üçün bu istiqamətdə görüləcək işlərin strateji xəttini müəyyənləşdirməlidir. Azərbaycan Respublikasında da İKT sahəsinin inkişaf etdirilməsi üzrə dövlət siyasəti bu prinsip üzərində qurulur və beynəlxalq təcrübəyə əsaslanır (2). Azərbaycanda XXI əsrdə informasiya cəmiyyətinə keçid və onun yaradılması, elektron hökumətin formalaşdırılması və intellektual səviyyənin inkişafı sayəsində neft sektorundan sonra prioritet sahə hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi ölkənin sosial-iqtisadi həyatına son illər daha ciddi nüfuz etmişdir. Müasir rabitə və informasiya texnologiyaları, ölkənin müxtəlif sferalarının inkişafı, əhalinin intellektinin yüksəldilməsi, həmçinin dünyada baş verən inteqrasiya proseslərinə daha aktiv cəlb olunması istiqamətində respublikamızın qarşısında yeni imkanlar yaratmışdır (3).

İnformasiya texnologiyalarının belə sürətli inkişafı halında onun hüquqi bazasının öyrənilməsi ən vacib məsələlərdəndir. Bu minvalla dövlətin qarşısında duran əsas məqsədlər kimi İKT sahəsində hüquqi bazanın yaradılması, insan faktorunun inkişafı, vətəndaşların məlumat almaq, onu yaymaq və istifadə etmək hüquqlarının əldə edilməsi, elektron hökumətin, elektron biznesin formalaşması, ölkənin iqtisadi, sosial və intellektual imkanlarının təkmilləşdirilməsi, biliklərə əsaslanan, rəqabətə davamlı istehsalın qurulması kimi əsas məsələlər daxildir. Respublikada rabitə və informasiya texnologiyaları sahəsinin inkişafının sürətləndirilməsi, bu sahə üzrə normativ-hüquqi bazanın təkmilləşdirilərək Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğunlaşdırılması, telekommunikasiya və poçt xidmətləri bazarının daha da liberallaşdırılması və özəl sektorun inkişafı məqsədilə mühüm işlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2005-ci il tarixli Sərəncamı ilə «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı» («Elektron Azərbaycan») təsdiq edilmişdir. Dövlət proqramının məqsədi Milli Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi, İKT-nin inkişafını və geniş tətbiqini təmin etmək yolu ilə informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması və inkişaf etdirilməsi üçün zəminin formalaşdırılması, dövlət idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılması və qərarların qəbulu prosesində vətəndaşların və sosial institutların iştirakı imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya məhsulu və xidmətlərinə olan tələbatının dolğun ödənilməsidir. Dövlət Proqramında qoyulmuş məqsədlərə çatmaq üçün aşağıdakı məsələlərin həlli nəzərdə tutulmuşdur:

- respublikada müasir informasiya və kommunikasiya infrastrukturunun inkişaf etdirilməsi, fiziki və hüquqi şəxslərin dövlət orqanlarının fəaliyyəti haqqında məlumatlara, həmçinin

dövlət, ictimai və sahə informasiya resurslarına çıxışının genişləndirilməsi, informasiya və kommunikasiya xidmətlərinin genişləndirilməsi və onların keyfiyyətinin artırılması;
- dövlət idarəçiliyinin bütün səviyyələrində İKT həllərinin tətbiqi, dövlət informasiya sistemləri və resurslarının formalaşdırılması və inkişaf etdirilməsi;
- vahid texnoloji standartlar əsasında dövlət informasiya resursları və sistemlərinin inteqrasiyasının təmin edilməsi, dövlət orqanları arasında etibarlı və təhlükəsiz informasiya mübadiləsinin həyata keçirilməsi üçün vahid konfidensial multiservis şəbəkəsinin inkişaf etdirilməsi, təşkilati-texniki, texnoloji tədbirlərin həyata keçirilməsi və müvafiq mühitin formalaşdırılması;
- dövlət orqanlarının göstərdiyi xidmətlərin operativliyinin və keyfiyyətinin, habelə dövlət idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılması üçün "E-hökumət" həllərinin geniş tətbiqi, "bir pəncərə" prinsipi əsasında elektron xidmətlərin təşkili;
- müasir inkişaf tələblərinə uyğun olaraq, sahə üzrə normativ hüquqi bazanın - təkmilləşdirilməsi;
- sahə üzrə standartlaşdırma və sertifikatlaşdırmanın beynəlxalq təcrübəyə uyğun həyata keçirilməsi;
- müasir İKT ixtisasları üzrə mütəxəssis hazırlığının keyfiyyətinin artırılması;
- İKT xidmət və məhsullarının istehsalının inkişaf etdirilməsi və ixrac potensialının artırılması;
- yeni texnika və texnologiyaların tətbiqi, sahə üzrə xidmətlərin, o cümlədən poçt və telekommunikasiya (o cümlədən peyk rabitəsi) xidmətlərinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi;
- poçt şəbəkəsi vasitəsilə poçt-maliyyə xidmətlərinin həyata keçirilməsinin inkişaf etdirilməsi;
- e-ticarət, e-səhiyyə kimi mütərəqqi fəaliyyət formalarının inkişaf etdirilməsi;
- "rəqəmsal geriliyin" azaldılması üçün tədbirlərin həyata keçirilməsi;
- informasiya cəmiyyətinin qurulması istiqamətində vahid elmi-texniki və innovasiya siyasətinin həyata keçirilməsi;
- informasiya cəmiyyətinin qurulması üzrə görülən işlərə ictimai nəzarətin təmin edilməsi (4).

İnformasiya texnologiyalarının hüquqi bazasından danışarkən qanunvericiliyimizdə İKT sahəsində qəbul edilmiş hüquqi aktları qeyd etmək zəruridir. Belə aktlara aşağıdakıları aid etmək olar:

- “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”
- Azərbaycan Respublikasının Qanunu;
- “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu;
- “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu;
- “Kütləvi İnformasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanunu;
- “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu;
- “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Republikasının Qanunu;
- “Ətraf mühitə dair informasiya almaq haqqında” Azərbaycan Republikasının Qanunu və s.

İnformasiya texnologiyalarının dövlətin və cəmiyyətin müxtəlif sferalarında geniş şəkildə tətbiq edilməsi zamanı yaranan münasibətlərin tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edir. AR Prezidenti, Nazirlər Kabineti və digər müvafiq mərkəzi icra hakimiyyəti orqanları səviyyəsində "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı bu sahədə qəbul edilmiş ən önəmli sənədlərdən biri hesab olunur. Milli Strategiya informasiya və kommunikasiya texnologiyalarından istifadə və onun genişləndirilməsi sahəsində dövlətin siyasətini əks etdirir, əsas məqsəd və vəzifələri, prioritetləri və fəaliyyətin əsas istiqamətlərini müəyyən edir. Strategiya cəmiyyətin tələblərini, qabaqcıl dünya təcrübəsini nəzərə alır və ölkənin inkişafına, demokratik cəmiyyət quruculuğuna, Azərbaycanın beynəlxalq aləmə inteqrasiya olunmasına xidmət edir.

Milli Strategiyanın əsas məqsədi informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafına kömək etmək və informasiya cəmiyyətinə keçidi təmin etməkdir. Milli Strategiyanın əsas vəzifələri sırasında aşağıdakıları qeyd etmək olar:

- informasiya cəmiyyətinin hüquqi əsaslarının yaradılması və inkişaf etdirilməsi;
- cəmiyyətdə insan amilinin inkişaf etdirilməsi, vətəndaşların keyfiyyətli təhsil, tibbi
- xidmət və sosial təminatlar alması üçün əlverişli şəraitin yaradılması;
- vətəndaşların və sosial institutların məlumat almaq, onu yaymaq və istifadə etmək
- kimi hüquqlarının təmin edilməsi üçün müvafiq mühitin yaradılması;
- effektiv, şəffaf və nəzarət oluna bilən dövlət idarəetməsi və yerli özünüidarəetmənin
- həyata keçirilməsi, elektron hökumətin yaradılması, elektron ticarətin
- formalaşdırılması və inkişaf etdirilməsi;
- ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndrilməsi, informasiya
- və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması, informasiya və bilik
- bazarının yaradılması və inkişaf etdirilməsi;
- xalqın tarixi, ədəbi və mədəni irsinin qorunub saxlanması və onun geniş təbliği;
- inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması, vahid
- milli elektron informasiya məkanının formalaşdırılması, informasiya və
- kommunikasiya xidmətlərinin genişləndirilməsi;
- ölkənin informasiya təhlükəsizliyinin təmin olunması;
- ölkənin ümumdünya elektron informasiya məkanına inteqrasiyası;
- milli proqram vasitələrinin yaradılması, informasiya və kommunikasiya texnologiyaları məhsullarının istehsalının (İKT-sənayesinin) inkişaf etdirilməsi;
- ölkənin "rəqəmsal geriliyinin" aradan qaldırılması (5).

İnformasiya texnologiyalarının tənzimlənməsi sahəsində milli qanunvericiliklə yanaşı, beynəlxalq və regional təşkilatlar tərəfindən qəbul olunan konvensiyalar, bəyannamələr, xartiyalar, direktivlər, model qanunlar da dövlətin informasiya təhlükəsizliyi sahəsində hüquqi siyasətinin müəyyən olunmasında mühüm əhəmiyyətə malikdir. Belə sənədlər sırasında aşağıdakıları göstərmək olar:

- BMT-nin Ümumdünya insan hüquqları Bəyannaməsi (1948)
- KİV və insan hüquqları haqqında Avropa Şurası Bəyannaməsi (1970)
- Yeni informasiya texnologiyaları sahəsində Avropa siyasəti haqqında Bəyannamə ( AŞ,1999)
- İnternetdə informasiya mübadiləsi azadlığı haqqında Bəyannamə (AŞ,2003)
- Rəqəmsal irsin mühafizəsi haqqında Xartiya (YUNESKO, 2003)
- İnternet iqtisadiyyatının gələcəyinə dair Seul Bəyannaməsi (İƏiT, 2008)

## Nəticə

Sonda belə nəticəyə gələ bilərik ki, İKT sahəsində hüquqi bazanın təkmilləşdirilməsi, digər dövlətlərlə beynəlxalq əməkdaşlığın təmin edilməsi, bu sahədə yaranan münasibətlərin tənzimlənməsində səmərəliliyi artıracaq, İKT-nin dövlətin əksər sektorlarında tətbiqini genişləndirəcəkdir.

## Ədəbiyyat

1. https://science.gov.az/az/institutes/3
2. Abbasov, Ə. (2009). Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları naziri, Azərbaycan. 8 may, 5 s.
3. Azərbaycan Respublikası Prezidentin İşlər İdarəsi Prezident Kitabxanası. https://www.preslib.az/
4. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010 - 2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://e-qanun.az/framework/19936

5. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://e-qanun.az/framework/1969

Göndərildi: 12.02.2023 Qəbul edildi: 08.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/164-167

**Firuzə Bağırova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
fbaqirova2014@gmail.com

# PEDAQOJİ ÜNSİYYƏT, ONUN SOSİAL-PSİXOLOJİ MEXANİZMLƏRİ VƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİ

**Xülasə**

Məqalədə pedaqoji ünsiyyət mövzusu əhatəli şəkildə araşdırılmış və diqqət daha çox ona yönəldilmişdir ki, düzgün qurulmayan pedaqoji ünsiyyət qorxu, inamsızlıq yaradır, diqqətin, hafizənin, iş qabiliyyətinin zəifləməsinə səbəb olur. Müəllif araşdırmasında qeyd etmişdir ki, pedaqoji ünsiyyət şübhəsiz tətbiq olunan vasitələrin səmərəliliyndən də asılıdır. O vasitələr elə seçilməlidir ki, ünsiyyətin məqsədini həyata keçirməyə imkan verməklə yanaşı, qarşılıqlı münasibətin və təsirin səmərəliliyini təmin etsin, fikir mübadiləsinə və qarşılıqlı anlamaya şərait yaratsın.

***Açar sözlər:*** *pedaqoji ünsiyyət, müəllim, şagird, təlim, psixoloji bağ*

**Firuza Baghirova**
Under the Azerbaijan State Pedagogical University
Azerbaijan State Pedagogical College
fbaqirova2014@gmail

## Pedagogical communication, its social-psychological mechanisms and teacher-student relationships

**Abstract**

In the article, the topic of pedagogical communication is comprehensively investigated and attention is focused on the fact that improper pedagogical communication creates fear, mistrust, and weakens attention, memory, and work ability. The author noted in his research that pedagogical communication undoubtedly depends on the efficiency of the applied tools. Those tools should be chosen in such a way that, in addition to enabling the realization of the purpose of communication, they ensure the efficiency of mutual relations and influence, create conditions for exchange of ideas and mutual understanding.

***Keywords:*** *pedagogical communication, teacher, student, training, psychological bond*

## Giriş

Pedaqoji ünsiyyət müəllimin şagirdlərlə təlim və tərbiyə prosesində həyata keçirdiyi peşə ünsiyyətidir. Bu cür ünsiyyət hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün şərait yaradılmasına yönəlmiş olur, kollektivdəki sosial-psixoloji prosesləri idarə etməyə və səmərəli psixoloji iqlim yaratmağa imkan verir. Ona görə də hər bir müəllimin pedaqoji ünsiyyətin mahiyyəti, onun sosial-psixoloji mexanizmləri ilə dərindən tanış olması və şagirdlərlə birgə fəaliyyəti zamanı ondan lazımi şəkildə istifadə etməsi zəruridir.

Pedaqoji ünsiyyət ümumiyyətlə ünsiyyətin bütün xüsusiyyətlərini özündə əks etdirir. “Ünsiyyətin əsas xüsusiyyətləri isə bunlardır:

1) adamlar arasında informasiya mübadiləsi; 2) adamlar arasında qarşılıqlı təsir prosesi; 3) adamların bir-birini qavraması və bunun əsasında bir-birini anlaması” (1).

Pedaqoji ünsiyyət müxtəlif məqsədlər daşıya bilər: fərdi-idraki (nə isə yeni bir şeyi öyrənmək, təlimat almaq), emosional (qiymətləndirmək, münasibəti bildirmək, təəssüratı bölüşmək). Pedaqoji ünsiyyət zamanı məqsəd sadəcə olaraq elə ünsiyyətə girişmək, ünsiyyət saxlamaqdan da ibarət ola

bilər (məsələn, kiminləsə birgə olmaq, söhbət etmək). Bu cəhət şagirdlərin ünsiyyət fəaliyyətində özünü aydın şəkildə göstərir. Psixoloji tədqiqatlar göstərmişdir ki, kiçik məktəblilər üçün müəllim və yoldaşları ilə ünsiyyət xatirinə ünsiyyətə girmək xarakterik haldır.

Onlarda ünsiyyət kifayət dərəcədə seçici xarakter daşımır. Kiçik məktəblilər heç də həmişə ünsiyyətlərinin məqsədini dərk edə bilmirlər. Yuxarı siniflərə keçdikcə şagirdlərin ünsiyyətində seçicilik müşahidə olunmağa başlayır.

Pedaqoji ünsiyyətin məzmununa gəldikdə bunu ünsiyyət prosesində müəllim və şagirdin bir-birilə informasiya mübadiləsi təşkil edir. Ünsiyyətin məzmunu təlim prosesində müəllimin qarşıya qoyduğu məqsədlə müəyyən edilir. Ünsiyyət vahid məqsədə yönəlmədən, vahid məqsəd güdmədən səmərəli nəticə verməyəcəkdir.

“Pedaqoji ünsiyyətin səmərəliliyi onun motivlərindən də asılıdır. Motivin düzgünlüyü və dərk edilmiş xarakter daşıması pedaqoji ünsiyyətin gedişini şərtləndirir. Pedaqoji ünsiyyət, şübhəsiz tətbiq olunan vasitələrin səmərəliliyindən də asılı olur. O vasitələr elə seçilməlidir ki, ünsiyyətin məqsədini həyata keçirməyə imkan verməklə yanaşı, qarşılıqlı münasibətin və təsirin səmərəliliyini təmin etsin, fikir mübadiləsinə və qarşılıqlı anlaşmaya şərait yaratsın” (2).

Pedaqoji ünsiyyət, şübhəsiz tətbiq olunan vasitələrin səmərəliliyindən də asılı olur. O vasitələr elə seçilməlidir ki, ünsiyyətin məqsədini həyata keçirməyə imkan verməklə yanaşı, qarşılıqlı münasibətin və təsirin səmərəliliyini təmin etsin, fikir mübadiləsinə və qarşılıqlı anlaşmaya şərait yaratsın.

Nəhayət, pedaqoji ünsiyyət müvafiq normalar çərçivəsində getməlidir. Müəyyən normaların gözlənilməməsi bir növ pedaqoji ünsiyyətin səmərəliliyini itirir və ünsiyyət istənilən nəticə vermir. İdarəetmə ilə bağlı olaraq sosial psixologiyada beş cür rəhbərlik üslubu qeyd olunur:

1. Avtokratik
2. Avtoritar
3. Demokratik
4. Laqeyd (etinasız, liberal)
5. Qeyri-sabit (ardıcıl olmayan) rəhbərlik üslubu.

Adətən, avtokratik və avtoritar rəhbərlik üslubuna malik olan müəllimlər pedaqoji ünsiyyətin təşkilində demək olar ki, eyni mövqe tuturlar. Bu cür rəhbərlik üslubuna malik olan müəllimlər şagirdlərə yalnız obyekt kimi yanaşırlar. Şagird ünsiyyətin bərabər hüquqlu tərəf müqabili kimi qəbul edilmir. Belə müəllimlər həmişə hökmran olmağa çalışırlar. Onlarla ünsiyyət zamanı şagirdlər təşəbbüskarlığı itirirlər. Bu cür ünsiyyət üsuluna malik olan müəllimlər ünsiyyət zamanı şagirdlərin fərdi xüsusiyyətlərini göstərsələr də, tamamilə qeyri-real model qurur, həmin fərqi olduqca şişirdir, real hesab edirlər. Şagird başqalarına nisbətən bir qədər fəal olduqda, müəllimin gözündə iğtişaşçı kimi, bir qədər passiv olduqda isə tənbəl, avara kimi görünür. Belə müəllimlər üçün neqativ ustanovka, başqa sözlə şagirdə qarşı qeyri-şüuru, pis münasibət xarakterik haldır. Bu cür müəllimlər ünsiyyətdə seçici, qiymətləndirmədə isə subyektiv olurlar. Ona görə də bu cür ünsiyyət üslubu səmərəli xarakter daşıya bilmir.

“Bu sahədə tədqiqat aparan alimlərin əksəriyyəti ən səmərəli ünsiyyət üslubu kimi demokratik üslubu qeyd edirlər. Belə rəhbərlik üslubunda şagird obyekt kimi qavranılır. Bu cür rəhbərlik üslubuna malik olan müəllim şagird kollektivi ilə razılaşır. Qərar qəbul edərkən kollektiv və onun liderinin təklifini nəzərə alır. Məktəblilərin müstəqilliyini boğmur, şagirdlərə daima xahiş, məsləhətlə yanaşır, müsbət emosional əlaqəyə üstünlük verir. Bu cür ünsiyyət üslubuna malik olan müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini və şəxsi təcrübələrini, fəallıq və tələbatlarını nəzərə almağa çalışırlar. Belə müəllimlərdə neqativ hal olmur və ya onu təzahür etdirmirlər. Onlar qiymətləndirmədə obyektiv təmas yaratmaqda isə təşəbbüskardırlar. Təcrübə göstərir ki, şagirdlərlə qarşılıqlı münasibətdə pedaqoji ünsiyyətin demokratik üslubundan istifadə edən müəllimlərlə şagirdlər arasında olduqca səmərəli təmas yaranır. Şagirdlər bu cür müəllimlərlə ünsiyyətə can atır, onlardan hər cür köməklik gözləyirlər” (3).

Məlum olduğu kimi müasir dövrümüzdə müəllimin ənənəvi fəaliyyətində dəyişikliklər baş verib. İndi müəllimin mövqeyi bələdçi (fasilitor), aparıcı (istiqamətverən) bir mövqedir.

Əslində bu, müəllim liderliyinin yeni tipidir. Bu liderlik müəllimlə şagirdin təhsilin məqsədinə nail olmağa yönəldilmiş birgə fəaliyyətinə əsaslanır. Müəllim sistemli, ardıcıl və məqsədyönlü şəkildə əməkdaşlıq edir: problemli vəziyyəti təşkil edir, tədqiqat məqsədlərinin qoyulmasında şagirdlərə istiqamət verir, bunların həllində metodik kömək göstərir, biliklərin əldə edilməsi və mənimsənilməsi yollarını öyrədir. Şagird isə müəllimin istiqamətinə əsasən fəaliyyət göstərir. O, fəaliyyətə məcbur edilmir, sadəcə təhrik olunur. Onun mövqeyi kəşf edən, tədqiqatçı xarakteri daşıyır. Ona görə də müəllimin istiqaməti üzrə kiçik tədqiqatlara qoşulur, araşdırmalar aparır, konkret nəticələrə gəlir. Şagird gəldiyi nəticələrini qiymətləndirməklə bir daha ona əmin olur.

“Müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi müasir dövrdə böyük əhəmiyyətə malikdir. Məktəblərdə illər boyu bərqərar olmuş ənənəvi “müəllim-şagird” münasibətlərinin bir çoxu müasir şəraitdə artıq öz əhəmiyyətini itirmişdir. Ənənəvi “müəllim-şagird” münasibətlərində şagird bütün yaş dövrlərində təkcə uşaq sayılmırdı. Həm də ona çox vaxt sadəcə olaraq təlim prosesinin obyekti kimi yanaşırdılar, avtoritar tərbiyə üsullarından, bu və ya digər məqsədə nail olmaq üçün müxtəlif “təzyiq vasitələrindən” istifadə edirdilər” (4).

Bu gün bərqərar olmuş pedaqoji təfəkkür baxımından şagird təlim prosesinin sadəcə olaraq obyekti deyil, həm də subyektidir. Əməkdaşlıq pedaqogikasının nailiyyətləri göstərir ki, dərsdə əsl yaradıcılıq məktəbinin əsas vəzifələrindən birinə çevrilməlidir.

Müəllim və şagird tərəf-müqabilidir. Tərbiyə işində neqativ demoqrafik təsirlərin səmərəli yollarla aradan qaldırılması məhz onların qarşılıqlı münasibətlərinin xarakterindən asılıdır. Müasir dövrdə insan amilinin xüsusi, sosial-pedaqoji əhəmiyyət kəsb etdiyi bir şəraitdə “müəllim-şagird” münasibətlərinin humanistləşdirilməsi məktəbin əsas vəzifələrindən birinə çevrilməlidir.

Şagirdlərin daxili aləmini düzgün başa düşməyən müəllimlər onların hislərini, davranış motivlərini çox vaxt yanlış, birtərəfli ölçülərlə qiymətləndirirlər. Xüsusilə, VII-VIII siniflərdə bu cəhətdən ciddi nöqsanlar özünü göstərir. Müəyyən edilmişdir ki, aşağı siniflərdə müəllimlər hislərini, davranış motivlərini nisbətən düzgün qiymətləndirməsələr də, yuxarı siniflərdə onların daxili aləmlərini başa düşmək üçün mühüm əhəmiyyətə malik olan cəhətləri səriştə ilə təhlil edə bilmirlər.

Bu təsadüfi olmayıb, ilk növbədə, onunla bağlıdır ki, şagirdlər böyüyüb, yaşa dolsalar da, müəllimlər yaşın, yaşlılıq hissinin və meylinin möcüzələri ilə hesablaşmırlar, çox vaxt IV sinifdə olduğu kimi, VII və ya IX sinif şagirdini yenə də uşaq sayırlar. Yeniyetmələrlə “uşaq formalarında” ünsiyyətə girirlər, onların davranış və rəftarını da elə bu üsullarla idarə etməyə çalışırlar. Halbuki 10-11 yaşlarında şagirdlərdə yaşlılıq hissi və meyli formalaşır. Onlar yaşlı adamlar kimi geyinməyə, bəzənməyə, danışmağa, hətta gün keçirməyə başlayırlar. Şagirdlərin mənlik şüuru, əxlaqi şüuru köklü sürətdə dəyişir, onların ünsiyyət tələbatlarında yeni cəhətlər əmələ gəlir.

Müəllimlər yeniyetməlik yaşı dövründə şagirdlərlə öz münasibətlərini yaşın özünün məntiqi əsasında qurmalıdır. Müəllimlər şagirdlərin yaşlanması prosesinin xüsusiyyətlərini nəzərə almadıqda, onların daxili aləmini başa düşə bilmir, davranış motivlərini düzgün qiymətləndirmir, bu zəmində də çox vaxt onların qarşılıqlı münasibətlərində bütövlükdə sinfin psixoloji iqliminə mənfi təsir göstərən ixtilaflar əmələ gəlir.

Təlimdə yaxşı nəticələrin əldə olunması üçün psixoloji xüsusiyyətləri dərindən bilmək vacibdir. Müəllim bütün hallarda, xüsusən “müəllim-şagird” münasibətlərinin qurulmasında pedaqoji taktı-nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə davranmalıdır.

“Müəllim və şagird arasında qarşılıqlı hörmət olmalıdır ki, müəllim şagirdə sevgi-məhəbbətlə və eyni zamanda ciddi yanaşmalıdır. Müəllim şagirdi bir şəxsiyyət kimi görməli, onun mənliyinə, şəxsiyyətinə toxunan söz deməməli, hərəkət etməməlidir. Nə qədər sözə baxmayan, nadinc şagird olsa belə, müəllim özünün pedaqoji metodlarından istifadə edib, xoş, isti münasibət yaratmalıdır” (5).

Müəllimin əsas vəzifəsi təkcə şagirdlərə öz fənnini tədris etməklə bitmir, eyni zamanda onların psixologiyasının inkişafını da sürətləndirir. Çünki müəllim pedaqoq olmaqla yanaşı, həm də psixoloqdur. Psixoloji bağların yaranmasında başlıca formalardan biri də yaş xüsusiyyətlərinin

nəzərə alinmasıdır. Hər yaş kateqoriyasının özünəməxsus davranış tərzi var. Yəni, həmin yaş xüsusiyyətinə sahib olan şagirdlərlə hansı dildə danışmaq, hansı qaydaları tətbiq etmək müəyyən yaşlarda özünü ayrı-ayrı formalarda büruzə verir.

Müəllim-şagird münasibətlərində başlıca amillər sırasında göz kontaktı da mühüm rol oynayır. Müəllim sinfə daxil olarkən şagirdin davranışından, göz kontaktından onun dərsə hazır olub-olmamasını müəyyən edə bilir.

Göründüyü kimi, müəllimlik peşəsi təkcə öz fənnini tədris etməklə bitmir. Bu peşə müəllim adını daşıyan şəxsdən pedaqoji fəaliyyət tələb etməklə yanaşı, ondan insani keyfiyyətlərinin olmasını, psixoloji biliklərə yiyələnməyi, şagirdlərlə ünsiyyətdə etik-estetik mədəniyyəti şamil etməyi tələb edir.

## Nəticə

Aparılan tədqiqat işləri göstərir ki, pedaqoji ünsiyyətin səmərəliliyi onun motivlərindən də asılıdır. Motivin düzgünlüyü və dərk edilmiş xarakter daşıması pedaqoji ünsiyyətin gedişini şərtləndirir. Pedaqoji ünsiyyət müvafiq normalar çərçivəsində getməlidir. Müəyyən normaların gözlənilməsi bir növ pedaqoji ünsiyyətin səmərəliliyini itirir və ünsiyyət istənilən nəticəni vermir. Müəllimin kommunikativ fəaliyyətinin öyrənilməsi göstərir ki, pedaqoji ünsiyyətin xarakteri və məzmunu müxtəlif amillərlə şərtlənir. Bunlardan müəllimin fərdi ünsiyyət üslubunu, mövqeyini xüsusi qeyd etmək lazımdır.

## Ədəbiyyat

1. https://lDHK.edu.az>e-IDHK>uploads>Pedaqoji
2. https://www.azkurs.org>movzu-12-ali-mekteb-muellim
3. https://kafkazh.com>pedaqoji-unsiyyetin-psixoloji-m
4. https:www.celilabad-adpu.az>movzu_13(1)
5. https://www.tehsil.biz>news>Millim-agird-mnasibtlri

Göndərildi: 20.02.2023 Qəbul edildi: 31.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/168-170

**Məlahət Əsədova**
Bakı, Azərbaycan
emalahat@gmail.com

# MARKETİNQ KONSEPSİYALARI

**Xülasə**

Məqalədə marketinq konsepsiyaları və onların düzgün həyata keçirilmə yollarından bəhs edilir. Bəzi mənbələr bu konsepsiyaların bəzilərinin artıq köhnəldiyini deyir. Amma marketoloqlar düzgün tətbiq olunduğu halda bəzi konsepsiyaların hələ də işlənə biləcəyini diqqətə çatdırır. Bu konsepsiyanın mahiyyətini bazarın, istehlakçının tələbatının, alış motivlərinin və davranışının öyrənilməsi və bu tələbatı rəqib müəssisələrə nisbətən daha dolğun ödəyə bilən məhsulların istehsal edilməsi, müəssisənin resurslarının və imkanlarının bazarın tələbatına daha effektli uyğunlaşdırıla bilməsi ideyası təşkil edir (Məmmədov, 2007: 10). Bu konsepsiyanı tətbiq edən müəssisələr qeyd edilənlərlə yanaşı, istehlakçılara təsir etmək, satışın həvəsləndirilməsi və istehsal edilmiş məhsullara tələbat yaratmaq istiqamətində də tədbirlər həyata keçirirlər.

***Açar sözlər:*** *marketinq, marketinqin əsasları, marketinq konsepsiyaları, satış, strategiya*

**Malahat Asadova**
Baku, Azerbaijan
emalahat@gmail.com

## Marketing concepts

**Abstract**

The article discusses marketing concepts and ways of their proper implementation. Some sources say that some of these concepts are already outdated. But marketers point out that some concepts can still work if applied correctly. The essence of this concept is the study of the market, consumer demand, purchase motives and behavior, and the idea of producing products that can satisfy this demand more fully than competing enterprises, and adapting the company's resources and capabilities to the market demand more effectively. In addition to the above, enterprises applying this concept also take measures to influence consumers, promote sales and create demand for manufactured products.

***Keywords:*** *marketing, basics of marketing, marketing concepts, sales, strategy*

## Giriş

Marketinq, doğru mal və ya xidmətlərin və ya ideyaların doğru yerdə, vaxtda və qiymətdə doğru insanlara çatdırılması, düzgün tanıtım üsullarından istifadə edilməsi və həmin mallar, xidmətlər və ya müştərilərə xidmət göstərmək üçün müvafiq insanlardan istifadə edilməsi prosesidir (1).

Marketinq konsepsiyası isə şirkətlərin müştərilərinin ehtiyaclarını ödəmək, satışları artırmaq, mənfəəti maksimuma çatdırmaq və rəqiblərini qabaqlamaq üçün həyata keçirdikləri strategiyadır. Marketinq konsepsiyaları bir məhsul və ya xidməti tanıtmaq üçün qəbul edilə bilən marketinqə bir neçə yanaşma və ya konsepsiyanı təsvir edən kollektiv termindir. Onlar biznesin, məhsulun və ya xidmətin təşviqinə necə yanaşmaq barədə məlumat verən marketinq fəlsəfələrini dəstəkləyirlər (2).

Ən uğurlu təşkilatlar marketinq konsepsiyasını qəbul ediblər. Marketinq konsepsiyası yalnız müştərilərin ehtiyaclarını ödəmək deyil, həm də təşkilatın məqsədlərinə çatmaq üçün marketinq strategiyalarını inkişaf etdirmək üçün müştərilərin ehtiyac və istəklərinə diqqət yetirmək üçün marketinq məlumatlarından istifadə etməkdir.

Marketinqin əsasını təşkil edən beş anlayış var:

1. İstehsal konsepsiyası
2. Məhsul konsepsiyası
3. Satış konsepsiyası
4. Marketinq konsepsiyası
5. Sosial marketinq konsepsiyası

Bu anlayışlar birlikdə müasir marketinqin əsasını təşkil edir və marketinq komandasının üzvləri beş konsepsiyanın hamısına bərabər şəkildə diqqət göstərməlidir.

Marketinqin elmi tərifinin sistemləşdirilməsi və ifadə edilməsi ilk cəhdlərindən marketinq konsepsiyası ilə bağlı olmuşdur. Hələ qırx il bundan əvvəl Felton marketinq konsepsiyasını aşağıdakı kimi müəyyənləşdirməyi təklif edirdi: "Əsas məqsəd olan uzunmüddətli mənfəət əldə etmək üçün korporasiyanın digər funksiyaları ilə qarışan, bütün marketinq funksiyalarının inteqrasiyasına və koordinasiyasına əsaslanan korporativ dünyagörüşü" (3).

Daha sonra Kotler və başqaları müəyyənedici xüsusiyyətin aşağıdakı kimi olduğunu bildirdilər: "Marketinq konsepsiyasına görə, təşkilatın öz məqsədlərinə çatması, onun, rəqiblərinə nisbətən daha səmərəli və məhsuldar şəkildə məqsədli bazarların arzu və ehtiyaclarının müəyyənləşdirməsindən və onların təmin edilməsindən asılıdır" (Huley, Sonders, Pirsi, 2008: 25).

Sadə variantda onu belə başa düşmək olar. Marketinq konsepsiyasına görə, getdikcə daha çox rəqabətli və dinamik olan bazarlarda, müştərilərin tələbatlarını, arzularını və gözləntilərini nəzərə alan və onları rəqiblərinə nisbətən daha yaxşı ödəyən kompaniya və ya təşkilat daha əlverişli mövqelər qazanacaq. Marketinq konsepsiyasına görə, müştərinin hər hansı təşkilatın məhsulunun almasının yeganə səbəbi təklif olunan məhsulun rəqib təşkilatın təklifinə nisbətən onun arzu və tələbatları üçün daha yararlı olmasıdır.

**İstehsal konsepsiyası**. Bu konsepsiya biznesdəki anlayışların ən qədimidir. Bu konsepsiya istehlakçıların geniş yayılmış və ucuz məhsullara üstünlük verəcəyini nəzərdə tutur. Bu konsepsiyaya diqqət yetirən menecerlər yüksək istehsal səmərəliliyinə, aşağı xərclərə və kütləvi paylamaya nail olurlar. Onlar hesab edirlər ki, istehlakçılar ilk növbədə məhsulun mövcudluğu və aşağı qiyməti ilə maraqlanır. Bu oriyentasiya inkişaf etməkdə olan ölkələrdə məna kəsb edir ki, burada istehlakçılar məhsulun xüsusiyyətlərindən daha çox əldə etməkdə maraqlıdırlar.

**Məhsul konsepsiyası.** Məhsul konsepsiyası alıcıların məhsulun keyfiyyətinə, xüsusiyyətlərinə və faydalarına diqqət yetirdikləri fikrini ortaya qoyur. Məhsula yönəlmiş alıcılar yenilik və unikallıq axtarırlar, lakin qiymətin yüksək olmasının onlar üçün əhəmiyyəti yoxdur.

**Satış konsepsiyası.** Satış konsepsiyası, müştərinizin siz onları itələməyincə kifayət qədər məhsul və ya xidmətinizi almayacağı anlayışına əsaslanır. Fərziyyə budur ki, müştəriniz davamlı olacaq. Satış konsepsiyasına əsaslanan marketinq səyləri davamlı olaraq hər yerdə aqressiv reklamı əhatə edir. Bu konsepsiyadan istifadə edən şirkətlər tez-tez istəksiz alıcını pullarını ayırmağa inandırmaq üçün müxtəlif üsullara malikdirlər.

**Marketinq konsepsiyası.** Satış konsepsiyası şirkətin nə istədiyi və ya ehtiyacı olduğu ilə bağlıdır, lakin marketinq konsepsiyası müştərinin nə istədiyinə diqqət yetirir. Əgər siz onlayn marketinq qruplarında və ya sosial media səhifələrində oturmusunuzsa, davamlı biznes qurmaq üçün müştərinin probleminin həllinə diqqət yetirmək barədə müzakirələri eşitmiş olacaqsınız. Marketinq konsepsiyasından istifadə edən brendlər vaxtlarını müştərilərinin bəyəndiyi və bəyənmədiyi cəhətləri öyrənməyə sərf edirlər. Onlar gecələr müştərilərini hansı problemlərin oyaq saxladığını başa düşür və bu problemləri həll etmək üçün məhsul və xidmətlər hazırlayırlar (Məmmədov, 2007: 208).

**Sosial marketinq.** Sosial marketinq konsepsiyası marketinq konsepsiyasını daha da irəli aparır və marketinq strategiyasının işlənib hazırlanması zamanı getdikcə daha çox seçim anlayışına çevrilir.

Bu konsepsiya deyir ki, siz müştərinizin nə istədiyinə və problemini həll etmək üçün nəyə ehtiyacı olduğuna diqqət yetirməli və müştərinizə heç bir zərərin gəlməməsini təmin etməlisiniz (və ya daha yaxşısı, həlliniz bir şəkildə onlara fayda verməlidir).

## Nəticə

Marketinq anlayışlarının və təriflərinin tədqiqindən sonra belə qənaətə gəlmək olar:

1. Marketinqin əsas episentri müştəri ehtiyaclarıdır.
2. Müştərilərlə uzunmüddətli əlaqələri qoruyub saxlamaqdan ötrü gələcək ehtiyacları görüb
3. anlamaq və qabaqcadan bilmək, proqnozlaşdırmaq zəruridir.
4. Marketinq yalnız marketinq şöbəsinin deyil, həmçinin bütövlükdə bütün təşkilatın qarşısında duran vəzifədir.

## Ədəbiyyat


1. https://openstax.org/books/introduction-business/pages/11-1-the-marketing-concept
2. https://rockcontent.com/blog/marketing-concept/
3. https://www2.nau.edu/~rgm/ha400/class/professional/concept/Article-Mkt-Con.html
4. Huley, Q., Sonders, C., Pirsi, N. (2008). Marketinq strategiyası və rəqabətli növbələşdirmə, Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 764 s.
5. Məmmədov, A. (2007). Marketinq. Bakı: İqtisad Universiteti, 206 s.


Göndərildi: 11.03.2023 Qəbul edildi: 19.04.2023

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/20/171-174

**Vəfa Gözəlzadə**
Azərbaycan Tibb Universiteti
magistrant
vafagozalzada@gmail.com
UOT 621,311.22
**Sara Paşayeva**
Azərbaycan Tibb Universiteti
sarapasayeva@gmail.com
UOT 621,311.22
**Nazilə Hüseynova**
Azərbaycan Tibb Universiteti
kimya üzrə fəlsəfə doktoru
shamxal.mustafayev@gmail.com
UOT 621,311.22
**Könül Hüseynquliyeva**
Azərbaycan Tibb Universiteti
k-f-h-82@mail.ru
UOT 621,311.22
**Şəhanə Quliyeva**
Azərbaycan Tibb Universiteti
guliyevashahana86@mail.ru
UOT 621,311.22

# OLANZAPİNİN KİMYƏVİ-TOKSİKOLOJİ ANALİZİ

**Xülasə**

Benzodiazepinlərin nümayəndəsi olan olanzapin tibb təcrübəsində geniş istifadə olunur. Tərkibində olanzapin olan dərman preparatları doza həddinin aşılması zamanı zəhərlənmə və ya ölüm hallarına səbəb olduğu üçün toksikoloji əhəmiyyətə malikdir. Tədqiqat bioloji materialdan hazırlanmış model nümunələrdə olanzapinin kimyəvi-toksikoloji analizini aparmağa həsr olunmuşdur. Məqalədə olanzapinin bioloji materialdan təcrid olunması və vəsfi sübutu mərhələsinə dair aparılan tədqiqatlar təqdim edilmişdir. Olanzapinin model nümunələri əlavəetmə üsulu ilə hazırlanmışdır. Təcridetmə oksalat turşusu ilə turşulaşdırılmış etil spirtilə yerinə yetirilmişdir. Model nümunələrdən təcrid edilmiş olanzapinin vəsfi sübutu isə NTX və UB spektroskopiya üsulları ilə aparılmışdır.

***Açar sözlər:*** *benzodiazepinlər, olanzapin, bioloji material, kimyəvi-toksikoloji analiz, NTX analiz*

**Vafa Gozalzade**
Azerbaijan Medical University
master student
vafagozalzada@gmail.com
UOT 621,311.22
**Sara Pashayeva**
Azerbaijan Medical University
sarapasayeva@gmail.com
UOT 621,311.22

**Nazila Huseynova**
Azerbaijan Medical University
Ph.D in Chemistry
shamkhal.mustafayev@gmail.com
UOT 621,311.22
**Konul Huseynguliyeva**
Azerbaijan Medical University
k-f-h-82@mail.ru
UOT 621,311.22
**Shahana Guliyeva**
Azerbaijan Medical University
guliyevashahana86@mail.ru
UOT 621,311.22

## Chemical-toxicological analysis of olazapine

### Abstract

Olanzapine, a representative of benzodiazepines, is widely used in medical practice. Medical preparations containing olanzapine have toxicological significant because they cause poisoning or death in case of overdose.

The study has been dedicated to the chemical-toxicological analysis of olanzapine in model samples made from biological material. In the article, the studies conducted on the isolation stage of olanzapine from biological material and the determination stage have been presented. Model samples of olanzapine have been prepared by addition method. Isolation has been performed with ethyl alcohol acidified by oxalic acid. Determination of olanzapine isolated from model samples has been carried out by TLC and UV spectroscopy methods.

***Keywords:*** *benzodiazepines, olanzapine, biological material, chemical-toxicological analysis, TLC analysis*

### Giriş

Benzodiazepinlər ilk dəfə "Hoffman lya Roş" laboratoriyasında (L.Şternbax, L.Rondel) sintez edilmiş və 1955-ci ildən ikinci nəsil trankvilizatorlar benzodiazepinlər adlandırılmışlar. Benzodiazepinlər bir sıra üstünlüklərinə görə özlərindən əvvəlki nəsil trankvilizatorları və barbituratları tibb təcrübəsindən sıxışdırıb çıxararaq hal-hazırda bir çox ölkələrdə geniş istifadə olunurlar. Benzodiazepin törəmələrinin kimyəvi quruluşlarının əsasını yeddi üzvlü 1,4-diazepinlə benzolun kondensə məhsulu olan 5-aril-1,4-benzodiazepin təşkil edir (Qarayev, 2017: 325).




***5-aril-1,4-benzodiazepin törəməsi***

***(benzodiazepin)***




***2-metil-4-(4-metil-1-piperazinil)-10H-tieno [2,3-b][1,5]benzodiazepin***
***(olanzapin)***

Benzodiazepin törəmələrinin hər il yeni törəmələri sintez edilir. **Olanzapin tienobenzodiazepin** sinfindən olan antipsixotikdir, kimyəvi quruluşca 2-metil-4-(4-metil-1-piperazinil)-10H-tieno [2,3-b] [1,5] benzodiazepindir (2). Olanzapin 5-HT2A serotonin reseptorunun güclü antaqonistidir. Antipsixotiklər başda şizofreniya olmaqla, psixozların müalicəsində istifadə olunan dərmanlardır. Antipsixotiklərin əsas hədəfi aqressiya, düşmənçilik, hallusinasiyalar, yuxusuzluq, anoreksiya, neqativlik kimi simptomlara təsir göstərməkdir. Benzodiazepinlərin farmakodinamik fəallığı onların beş əsas təsir: anksiolitik, sedativ, yuxugətirici, miorelaksant və qıcolma əleyhinə təsir ilə əlaqədardır. Başlıca təsir anksiolitik fəallıq qəbul edilir ki, nəticədə qorxu hissi, həyəcan, narahatlılığın aradan qaldırılması və emosional gərginliyin azalması müşahidə edilir (Basic and clinical pharmacology by Bertram Katzung, Anthony Trevor, 2020: 1328). Benzodiazepinlərin təsiri onların orqanizmdə sorulması, zülallarla birləşməsi, paylanması, metabolizmə uğraması və ekskresiyası ilə əlaqədardır. Olanzapinin müxtəlif yollarla metabolizmə uğrayır. Olanzapinin metabolizmi üçün ən uyğun fermentlər uridindifosfat (UDP) qlikoziltransferaza 1A4 (UGT1A4), sitoxrom P450 1A2 (CYP1A2) və flavin tərkibli monooksigenaza 3 (FMO3)-dür. Bunlar müvafiq olaraq 10-N-qlükuronid olanzapin, N-desmetil olanzapin və N-oksid olanzapin metabolitləri əmələ gətirir. Digər fermentlər də olanzapinin (məsələn, CYP2D6 və CYP3A) metabolizmində iştirak edir, lakin görünür ümumi klirensdə az rol oynayır (4).

Benzodiazepinlərlə zəhərlənmə zamanı tədqiqat obyekti kimi mədə tutumu ilə, nazik bağırsaq tutumu ilə, beyin, qaraciyər, böyrəklər, qan, sidik, maddi sübutlar (dərman preparatları) zəhərlənmənin səbəbini dəqiq təyin etmək üçün laboratoriyaya göndərilir.

Olanzapinin psixiatriya praktikasına geniş tətbiqi ilə yanaşı, intihar, sui-qəsd məqsədi ilə də geniş istifadə olunması səbəbindən onun kimyəvi-toksikoloji analizini aparmaq olduqca vacibdir. Doza həddinin aşılması zamanı bir sıra simptomlar: şüurun pozulması, hipersalivasiya, mioz və koma müşahidə olunur. Qan zərdabında 0,1 mq/l-dən yuxarı konsentrasiya zəhərlidir, 1 mq/l-dən yuxarı konsentrasiya isə ölümcül ola bilər (5).

**Tədqiqatın məqsədi.** Tibbdə geniş istifadə olunan və toksikoloji maraq doğuran olanzapinin kimyəvi-toksikoloji analizinin müəyyən mərhələlərini tədqiq etməkdir.

**Tədqiqatın material və metodları.** Tədqiqatı yerinə yetirmək üçün qaramalın qaraciyəri, 96%-li etil spirti, oksalat turşusu, indikator kağızı, elektron tərəzi, quruducu şkaf, filtr kağızı, su hamamı, təmizlənmiş su, bölücü qıflar, kolbalar, şüşə qablar, Macherey-Nagel Alugram®Sil G/UV$_{254}$ (Almanya) NTX lövhələri, “Cary 60 UV Vis” spektrofotometri, etilasetat-xloroform-25% ammonyak məhlulu (85: 10 :5), Dragendorff reaktivi, “Zalasta” tabletləri (KRKA POLSKA, Polşa) istifadə olunmuşdur.

**Tədqiqatın gedişi.** Tədqiqat obyekti olaraq 100 qr qaramalın qaraciyəri istifadə edilmişdir. 4 ədəd qapağı kip bağlanan şüşə qab götürülmüş və müvafiq olaraq “1V”, “2V”, “3V” və “kontrol” olaraq işarələnmişdir. Bu şüşə qabların hər birinə elektron tərəzidə ölçməklə 25 qr xırdalanmış bioloji material – qaraciyər əlavə olunmuşdur. Daha sonra 5 mg dozada olan olanzapin tabletləri 1, 2 və 3 sayda götürülərək ayrı-ayrılıqda həvəngdəstədə əzilmiş və “1V”, “2V”, “3V” şüşə qablarına müvafiq sayda əlavə olunmuşdur. “Kontrol” şüşə qaba isə preparat əlavə olunmamışdır.

Hər bir şüşə qabdakı bioloji materialın üzərini örtənədək 96%-li etil spirti əlavə olunmuşdur. Materialı turşulaşdırmaq məqsədi ilə oksalat turşusunun spirtdə 10%-li məhlulu hazırlanmışdır. pH 2-3 olana qədər turşuladırılma aparılmışdır və şüşə çubuqla dövri olaraq qarışdırılmışdır. 20-25 dəqiqə sonra reaksiya mühiti yoxlanılmışdır (etil spirtinin oksalat turşusunun dissosiasiya etməsinə mane olduğu nəzərə alınaraq). Çıxarışdan spirti uzaqlaşdırmaq üçün 5 damla çıxarışda çini kasaya əlavə edilmiş, su hamamı üzərində quru qalıq alınana qədər buxarlandırılmışdır. Daha sonra quru qalığın üzərinə 5-10 damla təmizlənmiş su əlavə edilmişdir. 2-3 dəqiqədən sonra pH yoxlanılmışdır (ehtiyac yaranarsa pH 2-3 olana qədər yenidən oksalat turşsunun spritli məhlulu əlavə edilməlidir). Şüşə qabların qapağı səthi bağlanır, qızdırıcı sobada 38 $^{0}$C temperaturda bir qədər saxlanılır, daha sonra 1 gün otaq temperaturunda saxlanılır. pH-lar yenidən yoxlanılır. Əgər pH qələvi və ya neytral olarsa, yenidən turşulaşdırma prosesi aparılır. Əgər pH sabit qalarsa, bioloji materialdan çıxarış

ayrılmalı və bioloji materialın üzərinə oksalat turşusunun spirtli məhlulu əlavə edilməlidir. Proses 3-4 dəfə təkrarlanır. Çıxarışlar birləşdirilir və çini kasaya əlavə olunur. Su hamamında 38 $^{0}$C temperaturda şərbətəbənzər kütlə alınanadək qatılaşdırılır. Alınmış şərbətəbənzər kütlənin kənar qarışıqlardan təmizlənməsinə başlanılır. Şərbətəbənzər kütlənin üzərinə şüşə çubuqla qarışdırmaqla, damla-damla 96%-li etanol əlavə olunur. Etil spirti çöküntünün əmələ gəlmədi dayanana kimi əlavə olunur. Çöküntü süzgəc kağızı vasitəsilə ayrılır. Süzgəc kağızında qalan çöküntü 96%-li etanolla yuyulur və əsas filtrat ilə birləşdirilir, spirt qovulur. Proses bir neçə dəfə təkrarlanır. Şərbətəbənzər kütlə təmizləndikdən sonra üzərinə qətran, piy və yağlardan azad olunması üçün 20-25 ml qaynar su əlavə olunur, əmələ gələn çöküntü də eyni qayda ilə süzgəc kağızının köməyi ilə ayırırıq, süzgəc kağızının üzərində qalan çöküntünü isə su ilə yuyub əsas filtrata əlavə edirik. Növbəti mərhələdə ardıcıl ekstraksiya prosesləri aparılır. Turşulaşdırılan sulu çıxarış ayrıcı qıfa keçirilir və üzərinə 10 ml xloroform əlavə olunur. Bir neçə dəqiqə çalxalandıqdan sonra sakit saxlanılır, fazaların təbəqələşməsindən sonra xloroform təbəqəsi ayrılır. Hər dəfə turşulaşdırılmış sulu çıxarış 10 ml xloroformun yeni payı əlavə edilməklə ekstraksiya olunur. Xloroformlu çıxarışlar birləşdirilmiş və həcmi azaldıldıqdan sonra olanzapinin vəsfi təyininə başlanılmışdır (İsgəndərov, 2012: 671).

Olanzapinin vəsfi təyinini həyata keçirmək üçün NTX (nazik təbəqədə xromatoqrafiya) üsulundan istifadə olunmuşdur. Macherey-Nagel Alugram®Sil G/$UV_{254}$ (Almanya) NTX lövhələri götürülmüşdür. Optimal həlledici qarışıq olaraq etilasetat-xloroform-25% ammonyak məhlulu (85:10:5) istifadə olunmuşdur. Lövhə üzərindəki start xəttinə xloroformlu çıxarışdan damızdırılmış və quruduqdan sonra həlledici qarışıqla əvvəlcədən doydurulmuş kameraya salınmışdır. Həlledici qarışıq lövhə boyu qalxaraq front xəttinə çatdıqdan sonra lövhə çıxarılaraq otaq şəraitində qurudulmuşdur. Dragendorf reaktivilə aşkarlandıqdan sonra lövhə üzərində alınmış ləkənin $R_f$ göstəricisi müəyyən edilmişdir. Olanzapinin vəsfi təyinində müasir analiz üsulu kimi UB spektroskopiya istifadə edilmişdir. UB spektrdə maksimum udmalar 231 nm və 275 nm dalğa uzunluğunda müşahidə edilmişdir. Maksimum udmalar ədəbiyyat məlumatlarındaki göstəricilər ilə eynidir (Svariç, 2016: 24).

## Nəticə

Olanzapinin kimyəvi-toksikoloji analizi ilə bağlı tədqiqat işləri aparılaraq toksikoloji parametrləri araşdırıldı. Model nümunə olaraq istifadə olunan qaramalın qaraciyərində zəhərlənmə modeli yaradılmış, turşulaşdırılmış spirtlə təcridolunma aparılmışdır. Təcrid olunmuş olanzapinin vəsfi sübutunun aparılması üçün NTX və UB spektroskopiya üsullarından istifadə olunmuşdur. Bu istiqamətdə tədqiqat işləri davam etdirilir, tədqiqat obyekti olaraq bioloji mayelərdə (qan plazması, sidik) olanzapinlə zəhərlənmə modelinin kimyəvi-toksikoloji analiz sxemi araşdırılır. Olanzapinin toksikliyinin kompüter modelləşmə proqramı vasitəsilə "*in silico*" tədqiqi də aparılır.

## Ədəbiyyat

1. Qarayev, E. (2017). Sintetik üzvi zəhərlərin kimyəvi-toksikoloji analizi. Bakı: Təbib, 325 s.
2. https://www.sciencedirect.com/topics/medicine-and-dentistry/thienobenzodiazepine
3. Basic and clinical pharmacology by Bertram Katzung, Anthony Trevor. (2020). McGraw Hill Medical; 15th edition (December 5), 1328 p.
4. https://www.pharmgkb.org/pathway/PA166165056
5. https://www.researchgate.net/publication/361805839_Olanzapine_poisoning_in_patients_treated_at_the_National_Poison_Control_Centre_in_Belgrade_Serbia_in_2017_and_2018_a_brief_review_of_serum_concentrations_and_clinical_symptoms
6. İsgəndərov, Q. (2012). Toksikoloji kimya. Bakı: Təbib, 671 s.
7. Svariç, M. (2016). Olanzapinin kimyəvi və toksikoloji analizi. Əczaçılıq kimyası, farmakoqnoziya RİA-KMV MMC. Pyatiqorsk, 24 s.

Göndərildi: 01.03.2023 Qəbul edildi: 17.04.2023

**TEXNİKA ELMLƏRİ**

**TECHNICAL SCIENCES**

DOI: https://doi.org/10.36719/2789-6919/20/175-178

**Həmid Musayev**
Azərbaycan Texniki Universiteti
magistrant
hemidvsmusayev@gmail.com
**Mirsadiq Sadıqov**
Azərbaycan Texniki Universiteti
magistrant
sadiqsadiqov4@gmail.com
**Röya Quliyeva**
Azərbaycan Texniki Universiteti
magistrant
royaguliyeva762@gmail.com

# AĞILLI EV SİSTEMLƏRİ

**Xülasə**

Bu məqalədə ağıllı ev haqqında əsas məlumatlar verilmişdir. Ağıllı ev işıqlandırma, isitmə, ventilyasiya, kondisioner, təhlükəsizlik və ev əyləncəsi kimi məişət funksiyalarını avtomatlaşdırmaq və uzaqdan idarə etmək üçün internetə qoşulmuş cihazlar və sensorlardan istifadə edən yaşayış sahəsinə aiddir. Ağıllı ev sistemi adətən Wi-Fi, Bluetooth və ya Zigbee kimi simsiz protokollardan istifadə edərək evdə fərdi ağıllı cihazlarla əlaqə saxlayan mərkəzi hub və ya nəzarətçini əhatə edir.

Ağıllı cihazlardan istifadə etməklə ev sahibləri yerlərindən asılı olmayaraq, öz smartfon və ya planşetlərindən evlərinin müxtəlif funksiyalarını idarə edə bilərlər. Məsələn, onlar işıqları yandıra, temperaturu tənzimləyə, qapıları kilidləyə və ya aça, təhlükəsizlik kameralarına uzaqdan nəzarət edə bilərlər. Rahatlıqdan əlavə, ağıllı evlər, həm də enerjiyə qənaət təmin edə və ev təhlükəsizliyini artıra bilər. Ağıllı ev təhlükəsizlik sistemləri həmçinin hər hansı qeyri-adi fəaliyyət aşkar edildikdə ev sahiblərinin smartfonlarına bildirişlər göndərə bilər ki, bu da onlara dərhal tədbir görməyə imkan verir.

***Açar sözlər*****:** *ağıllı ev, sensorlar, ağıllı ev sistemləri, ağıllı ev üçün sensorlar, hərəkət* sensoru

**Hamid Musayev**
Azerbaijan Technical University
master student
hemidvsmusayev@gmail.com
**Mirsadig Sadigov**
Azerbaijan Technical University
master student
sadiqsadiqov4@gmail.com
**Roya Guliyeva**
Azerbaijan Technical University
master student
royaguliyeva762@gmail.com

## Smart home systems

### Abstract

This article provides basic information about the smart home. A smart home refers to a living space that uses internet-connected devices and sensors to automate and remotely control household functions such as lighting, heating, ventilation, air conditioning, security and home entertainment functions. A smart home system operates a central hub or controller that communicates with individual smart devices that can use wireless protocols such as Wi-Fi, Bluetooth, or Zigbee.

You can use smart devices Homeowners can control some functions of their smartphone or home, depending on their location. For example, they can turn on lights, adjust the temperature, lock or unlock doors, and remotely monitor security cameras.

In addition to convenience, smart homes can also provide energy efficiency and improve home security. Smart home security systems can also send notifications to homeowners' smartphones that detect any unusual activity, giving them control to take action.

***Keywords:*** *smart home, sensors, smart home systems, sensors for smart home, motion sensor*

### Giriş

Ağıllı ev sistemi, ev avtomatlaşdırma sistemi kimi də tanınır. Çünki, ağıllı ev sistemi mərkəzi hub və ya platforma vasitəsilə birləşdirilən və idarə olunan cihazlar, məişət texnikası və digər sistemlər şəbəkəsidir. Ağıllı ev sistemləri tapşırıqları avtomatlaşdırmaq və məişət texnikası və cihazlar üzərində uzaqdan idarəetməni təmin etməklə evləri daha rahat, səmərəli və rahat etmək üçün nəzərdə tutulub (1).

Ağıllı ev sistemləri konsepsiyası yeni deyil, lakin texnologiyada irəliləyişlər bu sistemləri evlərdə tətbiq etməyi asanlaşdırıb və daha sərfəli edib. Ağıllı ev sistemləri həm yeni, həm də mövcud evlərə inteqrasiya oluna bilər və sadə quraşdırmalardan çoxlu cihaz və komponentləri olan daha mürəkkəb sistemlərə qədər dəyişə bilər.

Ümumilikdə, ağıllı ev sistemləri istifadəçilərə geniş üstünlüklər təklif edir və texnologiya irəliləməyə davam etdikcə getdikcə populyarlaşır.

**Ağıllı ev sistemləri.** Ağıllı ev cihazları şəbəkəyə qoşulmuş elektron cihazlardır və smartfon proqramının səs əmri və ya veb interfeysi vasitəsilə uzaqdan idarə oluna bilər. Bu cihazlar ağıllı ev sistemi yaratmaq üçün birlikdə işləyir və istifadəçilərə evlərində müxtəlif tapşırıqları idarə etməyə və avtomatlaşdırmağa imkan verir. Ağıllı ev cihazlarının və komponentlərinin ən çox yayılmış növlərinə aşağıdakılar daxildir:

Ağıllı Termostatlar: Ağıllı termostat istifadəçilərə smartfon proqramı vasitəsilə evlərinin istilik və soyutma sistemini uzaqdan idarə etməyə imkan verir. Bu qurğular istifadəçinin seçimlərini öyrənə və buna uyğun olaraq temperaturu tənzimləyə, enerjiyə qənaət və daha çox rahatlığa səbəb ola bilər (2).

Ağıllı İşıqlandırma: Ağıllı işıqlandırma sistemləri istifadəçilərə smartfon proqramından və ya səsli əmrlərdən istifadə edərək evlərinin işıqlandırmasını uzaqdan idarə etməyə imkan verir.

Ağıllı Kilidlər: Ağıllı kilidlər istifadəçilərə smartfon proqramından istifadə edərək uzaqdan qapılarını kilidləməyə və açmağa imkan verir. Bəzi ağıllı kilidlər həmçinin istifadəçi əhatə dairəsində olduqda avtomatik kilidi açmaq üçün proqramlaşdırıla bilər və kimsə evə daxil olduqda və ya evdən çıxanda bildirişlər göndərə bilər (3).

Ağıllı Təhlükəsizlik Kameraları: Ağıllı təhlükəsizlik kameraları istifadəçilərə evlərini uzaqdan izləməyə və hərəkət aşkar edildikdə xəbərdarlıq almağa imkan verir. Bəzi kameralar həmçinin sifətin tanınması və iki tərəfli audio rabitə kimi funksiyaları ehtiva edir.

Ağıllı Ev Qovşaqları: Ağıllı ev mərkəzləri istifadəçilərə bir yerdən birdən çox cihazı idarə etməyə və idarə etməyə imkan verən ağıllı ev sistemi üçün mərkəzi idarəetmə vahididir. Bu mərkəzləri smartfon proqramı, səs əmrləri və ya veb interfeysi vasitəsilə idarə etmək olar.

Ağıllı Dinamiklər: Amazon Echo və Google Home kimi ağıllı dinamiklər digər ağıllı ev cihazlarını idarə edə və musiqi oxumaq, həyəcan siqnalları qurmaq və suallara cavab vermək kimi müxtəlif tapşırıqları yerinə yetirə bilən səslə aktivləşdirilən köməkçilərdir.

Hər birinin öz xüsusiyyətləri və funksiyaları olan bir çox növ ağıllı ev cihazları və komponentləri mövcuddur. Bəzi qurğular həmçinin digər ağıllı ev sistemləri ilə inteqrasiya təklif edə bilər ki, bu da istifadəçilərə daha qüsursuz və inteqrasiya olunmuş təcrübə yaratmağa imkan verir.

**Ağıllı ev sistemlərinin üstünlükləri və dezavantajları. Üstünlüklər:** Rahatlıq: Ağıllı ev sistemləri istifadəçilərə evlərindəki müxtəlif cihazları və məişət texnikasını bir yerdən uzaqdan idarə etməyə imkan verir. Bu, vaxta və enerjiyə qənaət etməklə yanaşı, tapşırıqları daha asan və səmərəli edə bilər.

Artırılmış Təhlükəsizlik: Ağıllı ev sistemlərinə oğurluqların qarşısını almağa və evləri təhlükəsiz saxlamağa kömək edə bilən ağıllı kilidlər, təhlükəsizlik kameraları və hərəkət sensorları kimi təhlükəsizlik xüsusiyyətləri daxil ola bilər (4).

Enerjiyə qənaət: Ağıllı ev sistemləri istifadəçi seçimləri və vərdişlərinə əsasən termostatları, işıqlandırmanı və digər cihazları avtomatik tənzimləməklə enerji istehlakını azaltmağa və kommunal xidmətlərə qənaət etməyə kömək edə bilər.

Artan Rahatlıq: Ağıllı ev sistemləri istifadəçi seçimlərinə əsasən işıqlandırma, temperatur və digər amilləri tənzimləməklə daha rahat yaşayış mühiti yaratmağa kömək edə bilər.

**Dezavantajları.** Mürəkkəblik: Ağıllı ev sistemləri mürəkkəb ola bilər və düzgün quraşdırmaq və qurmaq üçün müəyyən səviyyədə texniki təcrübə tələb edir. Bu, texnologiyadan məlumatı çox olmayan bəzi istifadəçilər üçün problem ola bilər.

Təhlükəsizlik riskləri: Ağıllı ev sistemləri internetə qoşulub, bu da onları xakerlik və kiberhücumlara qarşı həssas qoya bilər. İstifadəçilər ağıllı ev sistemlərini və şəxsi məlumatlarını qorumaq üçün müvafiq tədbirlər görməlidirlər.

Uyğunluq Problemləri: Bütün ağıllı ev cihazları bir-biri ilə uyğun gəlmir, bu da tam inteqrasiya olunmuş ağıllı ev sistemini yaratmağı çətinləşdirə bilər.

Xərc: Ağıllı ev sistemlərinin quraşdırılması və saxlanması bahalı ola bilər ki, bu da bəzi istifadəçilər üçün maneə ola bilər.

**Ağıllı Ev Cihazları və Texnologiyaları (5).** Ağıllı ev texnologiyası işıqlandırma, temperatur, təhlükəsizlik və əyləncə kimi evin müxtəlif aspektlərini idarə etmək üçün istifadə oluna bilən çoxlu cihaz və sistemləri əhatə edir. Budur, bəzi ümumi ağıllı ev cihazları və texnologiyaları:

Ağıllı Dinamiklər: Amazon Echo və Google Home kimi ağıllı dinamiklər, istifadəçilərə səs əmrlərindən istifadə edərək müxtəlif ağıllı ev cihazlarını və xidmətlərini idarə etməyə imkan verən səslə aktivləşdirilmiş cihazlardır.

Ağıllı Termostatlar: Nest və Ecobee kimi ağıllı termostatlar istifadəçi seçimləri və vərdişlərinə əsasən temperaturu avtomatik tənzimləmək üçün proqramlaşdırıla bilər. Bu, enerji istehlakını azaltmağa və kommunal ödənişlərə qənaət etməyə kömək edə bilər.

Ağıllı İşıqlandırma: Philips Hue və LIFX kimi ağıllı işıqlandırma sistemləri istifadəçilərə smartfon proqramından və ya səsli əmrlərdən istifadə edərək ev işıqlandırmasını idarə etməyə imkan verir. Buraya işıqların yandırılması və söndürülməsi, işıqların qaralması və cədvəllərin qurulması daxil ola bilər.

Ağıllı Kilidlər: Avqust və Yale kimi ağıllı kilidləri smartfon proqramı və ya səs əmrləri ilə idarə etmək olar. Buraya qapıların kilidlənməsi və kilidinin açılması, qonaqlara və ya xidmət təminatçılarına giriş icazəsi daxil ola bilər.

Ağıllı Təhlükəsizlik Kameraları: Nest Cam və Ring kimi ağıllı təhlükəsizlik kameraları istifadəçilərə smartfon proqramından və ya veb portaldan istifadə edərək evlərinə nəzarət etməyə imkan verir.

Ağıllı ev mərkəzləri: Samsung SmartThings və Apple HomeKit kimi ağıllı ev mərkəzləri müxtəlif ağıllı ev cihazları və xidmətləri üçün mərkəzi idarəetmə sistemi rolunu oynayır. Bu,

istifadəçilərə fərdi qaydalar yaratmağa və müxtəlif tapşırıqları avtomatlaşdırmağa imkan verə bilər (6).

Bunlar bu gün mövcud olan bir çox ağıllı ev cihazı və texnologiyasının yalnız bir neçə nümunəsidir. Ağıllı ev texnologiyası inkişaf etməyə davam etdikcə, biz gələcəkdə daha da təkmil və innovativ cihazlar və sistemlər görəcəyimizi gözləyə bilərik.

## Nəticə

Bu məqalədə araşdırdığımız kimi, ağıllı ev sistemləri sensorlar, nəzarət sistemləri daxil olmaqla müxtəlif komponentlərdən ibarətdir. Bu komponentlər istifadəçilər üçün qüsursuz və əlaqəli təcrübə yaratmaq üçün birlikdə işləyir. Bununla belə, ağıllı ev sistemləri təhlükəsizlik və məxfilik problemləri, qarşılıqlı fəaliyyət problemləri və texnoloji köhnəlmə potensialı da daxil olmaqla bir sıra problemlərlə üzləşirlər.Bu çətinliklərə baxmayaraq, ağıllı ev sistemlərinin gələcəyi parlaq görünür.

## Ədəbiyyat

1. https://www.researchgate.net/publication/296294689_SMART_HOME_SYSTEM_DOCUMENTATION
2. https://link.springer.com/chapter/10.1007/978-981-15-7961-5_103
3. https://archive.org/details/homeautomationwi0000gerh/page/n3/mode/2up
4. https://www.ajperri.com/wp-content/uploads/2018/01/b0168809-7f07-40be-9a9c-aac85cca76d2-150716032045-lva1-app6891.pdf
5. https://www.sciencedirect.com/science/article/abs/pii/S014193310200039X?via%3Dihub
6. https://ieeexplore.ieee.org/document/9008410

Göndərildi: 04.02.2023 Qəbul edildi: 23.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/179-182

**Tacir Alıyev**
Azərbaycan Texniki Universiteti
magistrant
aliyevtacir041@gmail.com

# SOSİAL MÜHƏNDİSLİK HÜCUMLARI

**Xülasə**

Bəzi mənbələrə əsasənlanaraq, biz kiberdələduzluq sahəsini fəal inkişaf etmiş kimi təsvir edirik. Bir çox mənbələrə əsaslanaraq bu sahədə olan bəzi məqamlara nəzər yetirək. Həmçinin məqalədə Amerikanın Purplesec analitik şirkətinin sosioloji araşdırmaları və tədqiqatları da yer alır. Sosial mühəndislik kompyuter informasiya sahəsində cinayətlərin törədilməsi metodu kimi baxılır. Hər bir sahənin növləri və üsulları olduğu kimi sosial mühəndislik sahəsinində bir neçə üsulları vardır. Sosial mühəndislik təcrübəsinin xüsusən səkkiz texnikası (metodları): fişinq, səsli saxtakarlıq, uydurmaq, hiyləgər, qəsbçi, həvəsləndirici bəxşiş, aldatmaq, əks sosial mühəndislik vurğulanır və təsvir olunur. Ümumiyyətlə çalışıb hakerlərin bu üsullarından uzaq durmaq lazımdır.

***Açar sözlər:*** *sosial mühəndislik, kibercinayətkarlıq, sosial mühəndislik texnikaları, kiber fırıldaqçı, sosial mühəndislik üsulları, informasiya təhlükəsizliyi*

**Tajir Aliyev**
Azerbaijan Technical University
master sudent
aliyevtacir041@gmail.com

## Social engineering attacks

**Abstract**

Based on some sources, we describe the field of cyber fraud as actively developing. Let's look at some points in this area based on many sorces. The article also includes sociological studies and research by the American analyst company Purplesec. Social engineering is viewed as a method of committing crimes in the field of computer information. Just as every field has its types and methods, there are several methods in the field of social engineering. Eight techniques (methods) of social engineering practice in particular are highlighted and described: phishing, voice spoofing, spoofing, trickery, extortion, incentive giving, deception, reverse social engineering. In general, you should try to stay away from these methods of hackers.

***Keywords:*** *social engineering, cybercrime, social engineering techniques, cyber fraudster, social engineering methods, information security*

## Giriş

Sosial mühəndislik şəxsi məlumatları, giriş və ya qiymətli əşyaları əldə etmək üçün insan səhvindən istifadə edən bir manipuliyasiya üsuludur. Kibercinayətkarlıqda bu "insanların sındırılması" prosesinə bənzədilir, zərərli proqram infeksiyalarını yaymağa və ya məhdudlaşdırılmış sistemlərə giriş imkanı verməyə sövq edir. Hücumlar onlayn, şəxəsn və digər qarşılıqlı əlaqə yolu ilə baş verə bilər. Sosial mühəndisliyə əsaslanan fırıldaqlar insanların necə düşündüyü və hərəkət etdiyi ətrafında qurulur. Beləliklə, sosial mühəndislik hücumları istifadəçilərin davranışın maipuliyasiya etmək üçün xüsusilə faydalıdır. Təcəvüzkar istifadəçinin hərəkətlərini nəyin motivasiya etdiyini başa düşdükdən sonra istifadəçini aldada və effektiv bir şəkildə manipuliyasiya edə bilər.

**Sosial mühəndislik.** Bu gün müasir həyatı informasiya-kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Bütün dünya praktiki olaraq informasiya axınları ilə

"örtülüb" və vəzifəsi məlumatın ötürülməsi, toplanması, təhlili və saxlanmasıdır. Hal-hazırda istənilən dövlətin prioritet vəzifəsi vətəndaşlarının informasiya təhlükəsizliyini təmin etməkdir.

Hər il daha çox kibercinayətlər baş verir. Rusiya Daxili İşlər Nazirliyinin statistikasına əsasən, 2017-ci ildə kompüter informasiyası sahəsində 1883 cinayət qeydə alınıb, 2018-ci ildə - 2 min 5002, 2019-cu ildə informasiya və telekommunikasiya texnologiyalarından istifadə etməklə və ya kompüter informasiyası sahəsində törədilmiş 294 min 409 cinayət, məhkəmələrə göndərilmiş cinayyətlər isə 57 min 2213, 2020-ci ilin yanvar-iyul aylarında isə 272 min 737, məhkəmələrə göndərilmiş 47 min 98, qalan 87% isə açıqlanmamış qalır.

Statistik göstəricilərə görə kibercinayətkarlıq sferasının nə qədər sürətlə inkişaf etdiyi aydın hiss olunur ki, cinayət işlərinin məhkəməyə göndərilməsinin göstəriciləri haqqında bunu demək mümkün deyil. Rusiya Daxili İşlər Nazirliyinin statistik verilənlərini təhlil etdikdən sonra, bildirirəm ki, kibercinayətlərlə bağlı cinayətlərin araşdırılması çətindir. Bunun üçün də hüquq-mühafizə orqanlarına kompüter texnologiyaları sahəsində kifayət qədər intellektual potensiala malik kadrlar lazımdır.

Şəxsi məlumat əldə etmək, nəyəsə giriş əldə etmək üçün texniki sındırma üsullarından istifadə etmədən insan psixologiyasını idarə etməyin bacarıqlı üsulu sosial mühəndislik adlanır. Sosial mühəndislik insan zəifliklərinə, maraqlarına, diqqətsizliyinə, sadəlövhlüyünə, qeyri-ciddiliyinə yönəlmişdir (Sozaev, Kunaşev, 2020: 85-88).

90-cı illərdə Məşhur kibercinayətkar Kevin Mitnik, sonradan təhlükəsizlik üzrə məsləhətçiyə çevrildi və “sosial mühəndislik” terminini ilk dəfə populyarlaşdıran şəxs olmuşdur. O hesab edirdi ki, heç bir texniki kod cinayətkarın psixoloji bacarıqları və vərdişləri kimi insanı aldada bilməz (Mitnik, Simon, 2004: 360).

Bu gün sosial mühəndislik (98%) kibercinayətkarların istifadə etdiyi üsullar arasında hələ də populyardır.

Amerikanın “Purplesec” analitik şirkəti dünya İT mütəxəssisləri arasında müsahibələr və sorğular keçirib. Onların 43%-i müxtəlif vaxtlarda sosial mühəndislik hücumlarının hədəfi olduqlarını bildirib. Respondentlərin 60%-i yeni işə qəbul edilənlərin bu cür hücumlara ən çox həssas olduğuna və işlədikləri şirkətləri riskə atdıqlarına inanırlar. Təəssüf ki, işçilərin yalnız 3%-i zərərli e-poçtları şirkət rəhbərliyinə bildirir.

Purplesec həmçinin müəyyən etmişdir ki, şirkətlərdə indiki və ya keçmiş İT mütəxəssislərinin 21%-i sosial mühəndislikdən maliyyə üstünlüyü əldə etmək, qisas almaq, maraqdan ötrü və ya əylənmək üçün istifadə edir.

Ənənəvi olaraq kriminalistikada cinayətin törədilməsi metodu dedikdə “ətraf mühit şəraiti və xassələri və şəxsiyyətin xassələri ilə müvafiq alətlərdən, vasitələrdən, yer və zaman şərtlərindən istifadə ilə əlaqələndirilə bilən müəyyən edilən ictimai təhlükəli əməlin hazırlanması, törədilməsi və gizlədilməsi üzrə hərəkətlər sistemi başa düşülür" (Zuikov, 1970: 31).

**Sosial mühəndislik üsulları**. Kibercinayətkarların ən çox istifadə etdiyi sosial mühəndislik üsullarına nəzər salaq. Bunlara əsasən aşağıdakılar daxildir:

1. Fişinq (elektron məktubların kütləvi şəkildə e-poçtlara göndərilməsi, mətn mesajları, "sualtı ovlama").

Fişinqlik sosial mühəndisliyin ən məşhur yoludur. IT sahəsində çalışan mütəxəsislərin, insanların 56%-nin fikrincə, məqsədyönlü-fişinq hücumları informasiya təhlükəsizliyi üçün əsas təhlükədir. Purplesec şirkəti dünya üzrə respondentlərin fikirlərini təhlil edib və fişinq hücumları haqqında araşdırma aparıb və belə nəticəyə gəlib ki, 2017-ci ildə respondentlərin 76%-i, 2018-ci ildə isə 83%-i fişinq hücumlarına məruz qalıb.

Zərərli əlavələrin, hansı ki, fişinq hücumları bunlar vasitəsilə həyata keçirilir ən çox yayılmış növləri bunlardır:

"ofis" - 38%;
arxiv - 37%;
PDF faylları - 14%;
icra edilə bilən fayllar - 4%

E-poçt fişinqinin məqsədi mesajı şəxsin güvəndiyi şirkət və ya təşkilat tərəfindən göndərilmiş kimi göstərmək üçün çox sayda insana e-poçt ünvanına spam mesajlar göndərməkdir. Belə e-poçtları indi tanınmış şirkətlərin əvvəlcədən hazırlanmış e-poçt şablonlarını ehtiva edən hazır "fişinq dəstləri" vasitəsilə yaratmaq asandır. Belə spam e-poçtda istifadəçi adlarını və parolları toplamaq üçün hazırlanmış fişinq saytına keçid var. Fişinq saytlarının təxminən 50%-i HTTPS texnologiyasından da istifadə edir (Hadnagy, 2010).

Fişinq SMS mətn mesajları (Smishing) planşet, smartfon və ya smart saatda yayılan bir fişinq növüdür. Belə hücumlarda qurbanlar adətən naməlum göndəricidən qalib olduqları müsabiqə haqqında hər hansı xüsusi təklif şəklində onlara məlumat verən mətn mesajı alırlar. Bu zaman həmin mətndə giriş üçün qeydiyyat verilənlərini toplamaq üçün nəzərdə tutulmuş saxta (güzgü) sayta keçid olur və bu ilk baxışdan orijinal kimi görünür.

2. Vişinq (Vishing) (səs fişinqi) zərərçəkənin şəxsi və maliyyə məlumatlarına giriş əldə etmək üçün telefon şəbəkəsində sosial mühəndislikdən istifadədir. Bu hücum həmçinin kibercinayətkarlar tərəfindən kəşfiyyat məqsədləri üçün təşkilat və ya şirkət haqqında məlumat toplamaq üçün istifadə olunur.

3. Sosial mühəndisliyin az populyar olmayan başqa bir üsulu bəhanədir. Bu, cinayətkarın hərəkətlərinin əvvəlcədən yaxşı yazılmış ssenarisidir, nəticədə 80% hallarda kibercinayətkar üçün zəruri olan informasiyanın qurbandan alınması baş verir. Bu hücumda, telefon zəngi ilə edilə bilər. (Kumar, Chaudhary, Kumar: 2015)

4. “Trojan atı” bir növ zərərli proqramdır. Kompüter troyanları dağıdıcı yükə malikdir. E-poçta gizli zərərli proqramı daxil etmək, qoşmaq Trojan formasıdır. Sosial mühəndisliyin hiyləsi ondan ibarətdir ki, zərərli faylı göndərən e-poçt etibarlı göndəricidən gəlir.

5. Qəsbçi kibercinayətkarlardan satın almaq məqsədilə faylları saxlayan (şifrələyən) zərərli proqramtəminatı növüdür. Qiymətli verilənlərini qaytarmaq (şifrəsini açmaq) istəyən insanlara cinayətkarlar onları almağı təklif edirlər (Abdelhamid, 2020).

6. Qui pro Quo (xidmətə görə xidmət). Bu hücumda kibercinayətkar texniki işçi kimi çıxış edir. Texniki dəstək işçisi kimi olan kibercinayətkar telefonla zərərçəkmişə fərdi kompüterdə proflaktik tədbirlərin görülməsinin vacibliyini bildirir və ya zərərçəkmişdən kompüterdə hər hansı problemin olub-olmadığını soruşur. Sonra cinayətkar texniki problemləri həll edir, daha sonra təcrübəsiz istifadəçiyə cinayət məqsədlərinin həyata keçirilməsi üçün bu kompüterdən məlumatları ona ötürəcək proqramı quraşdırmağı təklif edir.

7. “Yol alması” (Baiting) (ov üçün yem). Bu hücum metodunun əsasında “troya atı”nın əlamətləri dayanır. Yeganə fərq ondadır ki, bu metod hücum üçün fiziki daşıyıcını istifadə edir. Bu hücumda cinayətkarlar məqsədyönlü şəkildə fiziki daşıyıcısını maraqlı şəxslər tərəfindən tez aşkar oluna bilmələri üçün qəsdən ictimai yerlərdə tərk edirlər, qoyurlar. Bundan sonra həmin daşıyıcını aşkar edən şəxs onu kompütերə qoşan kimi informasiyanın kibercinayətkara ötürülməsi baş verir.

8. Tərs sosial mühəndislik. Bu hücumun özünəməxsus cəhəti ondan ibarətdir ki, bu hücumda kibercinayətkarlar elə vəziyyət yaradırlar ki, hər hansı bir problemi həll etmək üçün şəxs özü ona müraciət edir və ona şəxsi və ya digər məlumatlarını təqdim edir.

Yuxarıdakı siyahı hazırda kibercinayətkarlar tərəfindən istifadə edilən sosial mühəndisliyin ən populyar texnikalarını (metodlarını) ehtiva edir, lakin informasiya texnologiyalarının sürətli inkişafını nəzərə alsaq, bu, tam deyil (Salahdine, Kaabouch: 2019).

## Nəticə

Bu gün əsas vəzifələrdən biri ilkin səviyyədə hücumları müəyyən etmək üçün fərdi kompüter istifadəçilərini öyrətməkdir. Mesajlarda, e-poçtlarda və telefon danışıqlarında şübhəli açar sözlərin aşkarlanması potensial hücumun vaxtında qarşısını almağa kömək edəcək. Sosial mühəndislik bizim üçün kritik bir təhlükədir, ona görədə özümüzü və cihazlarımızı ondan qorumalıyıq. Bundan əlavə, hakerlər istifadəçinin məlumatsızlığından istifadə etməyə çalışırlar. Texnologiyanın sürəti sayəsində bir çox istehlakçılar və işçilər sürücü ilə yükləmələr kimi müəyyən təhlükələrdən xəbərsizdirlər, həmçinin çox böyük risklər edirlər.

## Ədəbiyyat

2. Sozaev, S., Kunaşev, D. (2020). Sosial mühəndislik, onun metodları və onun əks-təsirləri. Beynəlxalq "Vestnik Nauki" jurnalı. 2 (23). Cild 1, s.85-88.
3. Mitnik, K., Simon, V. (2004). Aldatma sənəti. IT şirkəti, 360 s.
4. Zuikov, Q. (1970). Cinayətin Metoduna dair Məhkəmə Tibbi Doktrina: Avtoreferat. dis. Hüquq Elmlər Doktoru, 31 s.
5. Hadnagy, C. (2010). Sosial Mühəndislik: insan hacking sənət. Art Hum. Hacking.
6. Kumar, A., Chaudhary, M., Kumar, N. (2015). "Sosial Mühəndislik Təhdidləri və Agahlıq: Asurvey," Avro. J. Adv. Eng. Texnologiya.
7. Abdelhamid, M. (2020). "Fişinq həssaslığında sağlamlıqla bağlı problemlərin rolu: Sorğu dizaynı araşdırması," J. Med. İnternet Res.
8. Salahdine, F., Kaabouch, N. (2019). Sosial mühəndislik hücumları. Sorğu. Cild 11, N 4.

Göndərildi: 02.02.2023 Qəbul edildi: 14.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/183-187

**Nurlan Arifzadə**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
nurlanarifzade@gmail.com
**Məhəmmədəli Əzimov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
azimovmehemmedeli@gmail.com
**Həmid Musayev**
Azərbaycan Texniki Universiteti
magistrant
hemidvsmusayev@gmail.com

# İoT TƏTBİQ SAHƏLƏRİ VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

**Xülasə**

| 6 | 136 | =0.11252748 | =1.7501614 | =9.583989 | -0.0030543262 | 0.015882496 | 0.012217305 |
| 7 | 48 | =-0.10534488 | =0.5363012 | =9.639056 | -0.0036651916 | 0.02687807 | 0.0036651916 |
| 8 | 54 | =-0.095768064 | =0.581791 | =9.744401 | -0.0036651916 | 0.015271631 | 0.005497787 |
| 9 | 148 | =0.33279404 | =2.1547816 | =9.43076 | -0.0061086523 | 0.01160644 | 0.007941248 |
| 10 | 168 | =0.93373865 | =2.8538885 | =9.263166 | -0.0061086523 | 0.021380283 | 0.005497787 |
| 11 | 8 | =0.45489833 | =1.42455 | =9.703699 | -0.0067195175 | 0.015271631 | 0.0 |
| 12 | 10 | =0.25857377 | =1.4628572 | =9.543288 | -0.007941248 | 0.04153884 | -0.002443461 |
| 13 | 108 | =-0.5243302 | =1.6543933 | =9.509769 | -0.01038471 | -0.0012217305 | 0.002443461 |
| 14 | 150 | =0.36152446 | =2.123657 | =9.576807 | -0.01038471 | 0.019547688 | 0.015271631 |
| 15 | 20 | =0.320823 | =1.4700398 | =9.639056 | -0.01160644 | 0.01282817 | 0.01038471 |
| 16 | 216 | =0.11252748 | =5.901707 | =7.429208 | -0.012217305 | 0.11789699 | 0.14966199 |
| 17 | 174 | =0.90261406 | =2.7006595 | =9.354146 | -0.013439035 | -0.0012217305 | 0.004276057 |
| 18 | 166 | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] |

1 - 18 из 321 Перейти к: 1

**Şəkil 2. SQLite databasedə yaradılmış bazanın strukturu**

Baxılan işdə ilk olaraq düz xətt üzrə hərəkət trayektoriyasının tapılması araşdırılmışdır. Düz xətt üzrə hərəkət trayektoriyasının tapılması üçün akselerometr sensorundan təcil, giroskop sensorundan bucaq sürəti verilənlərini əldə edərək, aşağıdakı düsturlar və alqoritmdən istifadə edilmişdir (6).

Təcil gedilən yolun 2 tərtib törməsi olduğundan (1), gedilən yolu tapmaq üçün təcili 2 dəfə inteqrallamaq lazımdır (2).

$$a = \frac{dx^2}{d^2 t} \qquad (1)$$

$$x = \iint a d^2 t \qquad (2)$$

Burada x - gedilən yol, a - təcil, t – sərf olunan zamandır.

Bucaq sürəti dönmə bucağının 1 tərtib törməsi olduğundan (3), dönmə bucağını tapmaq üçün bucaq sürətini 1 dəfə inteqrallamaq lazımdır (4). Dönmə bucağı ilə hərəkət zamanı x,y,z oxu istiqamətləri üzrə dönmə ,qalxma və enmə hallarını tapırıq.

$$\omega = \frac{d\phi}{dt} \qquad (3)$$

$$\phi = \int \omega dt \qquad (4)$$

Burada $\omega$ - bucaq sürəti, $\varphi$ - dönmə bucağı, t - dönməyə sərf olunan zamandır.

Fəzada yerləşmiş obyektin hərəkət trayektoriyasının tapılması üçün isə obyekti qlobal koordinant sistemində gətirmək lazımdır. Bunun üçün aşağıdakı düsturlardan istifadə edilir (4).

$$\varphi = \begin{pmatrix} \cos\varphi & -\sin\varphi & 0 \\ \sin\varphi & \cos\varphi & 0 \\ 0 & 0 & 1 \end{pmatrix} \qquad \varphi^{-1} = \begin{pmatrix} \cos\varphi & \sin\varphi & 0 \\ -\sin\varphi & \cos\varphi & 0 \\ 0 & 0 & 1 \end{pmatrix} \qquad (5)$$

$$\theta = \begin{pmatrix} 1 & 0 & 0 \\ 0 & \cos\theta & -\sin\theta \\ 0 & \sin\theta & \cos\theta \end{pmatrix} \qquad \theta^{-1} = \begin{pmatrix} 1 & 0 & 0 \\ 0 & \cos\theta & \sin\theta \\ 0 & -\sin\theta & \cos\theta \end{pmatrix} \qquad (6)$$

$$\gamma = \begin{pmatrix} \cos\gamma & 0 & \sin\gamma \\ 0 & 1 & 0 \\ -\sin\gamma & 0 & \cos\gamma \end{pmatrix} \qquad \gamma^{-1} = \begin{pmatrix} \cos\gamma & 0 & -\sin\gamma \\ 0 & 1 & 0 \\ \sin\gamma & 0 & \cos\gamma \end{pmatrix} \qquad (7)$$

Burada $\varphi$-kurs matrisi, $\varphi^{-1}$ – kurs matrisinin tərs matrisi, $\theta$- tonqaj matrisi, $\theta^{-1}$ -tonqaj matrisinin tərs matrisi, $\gamma$-vrey matrisi, $\gamma^{-1}$- vrey matrisinin tərs matrisidir. Lokal koordinat sisteminin y oxunu qlobal kordinant sisteminin y oxuna gətirmək üçün vrey tərs matrisindən, x oxu üçün tonqaj tərs matrisindən, z oxu üçün kurs tərs matrisindən istifadə edilir. Yaradılmış tətbiq mənfi orientasiyaya malik olduğundan verilmiş matrisinlərin tərs matrisindən istifadə edilir.

## Nəticə

Gedilən yolun hərəkət trayektoriyasının hesablanma düsturları araşdırılmışdır. Bu düsturlar və Android Studio mühitindən istifadə etməklə akselerometr və giroskop sensorlarından alınan verilənlərin SQLite databasedə saxlayan və Excel vasitəsilə gedilən yol trayektoriyasını hesablayan proqram təminatı hazırlanmışdır.

Proqram təminatı real yol verilənləri üzərində test edilmişdir. Nəticələrə əsasən kiçik məsafəli yollarda gedilən yolun real uzunluğu ilə proqram nəticələri arasında cüzi fərq olmuşdur. Hesablamalarda xəta payı 8% təşkil edir.

## Ədəbiyyat

1. https://doi.org/10.1016/B978-0-08-098288-5.00017-8
2. http://www.aerostudents.com/courses/avionics/InertialNavigationSystems.pdf
3. https://developer.android.com/reference/android/hardware/SensorManager
4. https://www.fierceelectronics.com/sensors/what-accelerometer
5. https://developer.android.com/reference/android/database/sqlite/SQLiteOpenHelper
6. https://files.stroyinf.ru/Data2/1/4294833/4294833230.pdf

Göndərildi: 02.03.2023 Qəbul edildi: 16.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/201-204

**Aliagha Shukurlu**
Azerbaijan State Oil and Industry University
master student
aliaghashukurlu@outlook.com

# PREVENTING FORMATION DAMAGE AND OPTIMIZING PRODUCTION RATES IN THE OIL AND GAS INDUSTRY: A STUDY ON THE EFFECTIVENESS OF NON-INVASIVE FLUIDS AND MIXED METAL HYDROXIDES IN CONTROLLING FLUID LOSS DURING DRILLING OPERATIONS

## Abstract

Severe lost circulation during drilling can cause formation damage and reduce hydrocarbon production. Special drilling fluids like NIF and MMH are effective at preventing damage due to their high control over fluid loss and compatible chemical structure. These fluids can efficiently bridge and seal loss zones, are easily removable, and result in high permeability recovery of the formation. Their use can optimize production rates in the oil and gas industry.

***Keywords:*** *hydrocarbon, bridge, formation damage, optimize, recovery*

**Əliağa Şükürlü**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
aliaghashukurlu@outlook.com

# Neft və qaz sənayəsində formasiyon zərərlərinin qarşisinin alinmasi və hesabat hərçələrinin optimal edilməsi: Maye itkilinə nəzarət etməkdə qeyri-invaziv mayelər və qarışıq metal hidroksidlərinin səfərliliyinin tədqiqi

## Xülasə

Neft-qaz sənayesində qazma prosesi zamanı dövriyyənin itirilməsi hadisəsi baş verə bilər. Bu, qazma mayesi laya axdıqda və səthə qayıtmadıqda baş verir. Bu, laylara ciddi ziyan vura və karbohidrogen istehsalını azalda bilər. Bu problemi həll etmək üçün NIF (Qeyri-invaziv Maye) və MMH (Mikronize Mika Hematit) kimi xüsusi qazma mayeləri hazırlanmışdır. Bu mayelər maye itkisi üzərində yüksək nəzarət və layla uyğun kimyəvi quruluşa görə itkin dövriyyənin qarşısını almaqda təsirli olur. Bu mayelərdən istifadə edildikdə, onlar təsirli şəkildə itki zonalarını möhürləyə və nəticədə layda maye itkisinin qarşısını ala bilərlər. Bundan əlavə, bu mayelər asanlıqla çıxarılır və lay qazmadan sonra öz keçiriciliyini tez bir zamanda bərpa edə bilir. Bu xüsusi qazma məhlullarından istifadə etməklə, neft və qaz sənayesində istehsal tendensiyasını optimallaşdırmaq mümkündür.

***Açar sözlər:*** *karbohidrogen, körpü, lay zədələnməsi, optimallaşdırma, bərpa*

## Introduction

Oil companies compete to explore, drill, and produce petroleum due to the increasing need for energy. Understanding the mechanisms that damage hydrocarbon reservoirs is crucial for maximizing production efficiency (Ela Ma, 2013: 67). Operations such as exploratory, developmental, descriptive, and repair are analyzed to assess the extent of damage to wells. Fractured reservoirs pose additional challenges, with high-pressure and low-pressure parts that complicate operations (Nasiri, Ghaffarkhah, 2017: 6).

Studies in 2017 used the GustafsonKessel method to model fluid loss, analyzed experimental and field analysis to control drilling fluid loss, and estimated sectors with critical loss using the index kriging method (Shad, 2021: 32). Another study in 2020 examined the effect of bentonite

mud contents on fluid loss, and a 2021 study found that dynamic fluid loss decreased with increasing overbalanced pressure due to the formation of mud cake on the well wall. (Taheri, Anseri, 2021: 3).

## Objectives

1. To identify the most effective materials for preventing formation damage caused by lost circulation during drilling operations.
2. To analyze the physical and chemical damage caused by the loss of drilling fluid and the impact on the permeability of the formation.
3. To assess the effectiveness of anti-loss materials in preventing formation damage and optimizing production rates in the oil and gas industry.
4. To provide recommendations for prevention and treatment methods to minimize formation damage during drilling operations.

## Formation damage in hydrocarbon reservoirs

Oil companies face frequent issues of hydrocarbon formation damage that reduces well productivity due to decreased permeability caused by various factors. Mr. Civan identified seven mechanisms of damage to hydrocarbon reservoirs in 2006, summarized in Table 1. (Shu, Yan, 2008: 327).

**Table 1. Assessing the potential risks associated with formations in various operations.**

| Significance (%) | Damage Removal (1-5) | Total Formation Damage (%) | Operation |
|---|---|---|---|
| 75 | 2 | 25 | Drilling |
| 65 | 3 | 25 | Well Completion |
| 65 | 4 | 15 | Stimulation |
| 45 | 3 | 15 | Production |
| 40 | 4 | 10 | Internal factors of wells |
| 20 | 2 | 10 | Injection |

a) Emulsion formation between oil-based mud filtrate and water formation due to fluid incompatibility.

b) Permeability reduction due to rock-fluid incompatibility, swelling and nodules of smectite and kaolinite clays with water.

c) Invasion of solid particles, such as weight gain particles or drilling cuttings.

d) Entrapment or blockage due to invasion of water-based mud around gas well wells.

e) Permeability alterations and chemical adsorption caused by emulsifier adsorption and changes in fluid flow characteristics in the formation.

f) Fine particle migration within rock pores causing pore throat plugging and bridging.

g) Biological activities from the entry of bacteria during drilling and production of polysaccharide polymer strips, leading to permeability reduction.

## Methods

During drilling operations, drilling mud is used to prevent fluid blowouts. However, the use of drilling mud can also cause damage to the formation through mud filtrate invasions, invasion of external solid particles, and water sensitivity. Drilling mud filtrate invasions occur when drilling fluid penetrates the formation, but the mud cake formation reduces the amount of filtrate penetration, which can reduce the permeability and wettability of the formation. Invasion of external solid particles can also cause damage to the formation by invading the pores within it. This damage includes flow restriction and plugging. (Figure 1.)




*Figure 1.: Filtrate penetration in different muds*

Water sensitivity can occur when mud filtrate causes clay swelling in the formation, which reduces permeability by blocking pores and throats. This is particularly problematic with smectite clay, which can swell up to 600%, creating an almost impermeable barrier to flow. (Figure 2.)

To prevent damage to the productive layers and decreased productivity, strategies such as using Non-Invasive Fluid (NIF) and low-damage Mixed Metal Hydroxide (MMH) can be employed.



*Figure 2. Fine particle migration and throat damage mechanisms.*

These methods have been tested and proven to produce good results. The ideal drilling fluid for oil reservoirs should bridge the throat cavity without changing its formulation, quickly and without damaging the formation. It should also handle high overbalance tasks and be effective across




*Figure 3. On the left, there is a significant penetration of oil-based mud into a layer of sandstone, while on the right, the mud containing micelle additives (NIF) at a concentration of 5ppb only exhibits invasion of less than 1cm.*

different ranges of density, temperature, and bottom well pressures. Preparation should be easy and any additives used should be non-toxic and HSE-approved. The NIF is a laboratory-tested drilling fluid that meets specific criteria before being used in field operations. NIF is a water-based polymer fluid that forms micelles with water- and oil-soluble polymers.

It can form a low-permeable surface to prevent further invasion, reducing damage to layers and boosting productivity during drilling.

## Conclusion

Special drilling fluids like NIF and MMH can effectively address lost circulation in fractured and depleted reservoirs, which are more prone to experiencing loss due to reduced pressure during production.

These fluids are compatible with formation fluids, reduce loss significantly, and lead to high permeability recovery. Using these fluids can increase recovery efficiency and play a vital role in achieving important goals in the oil and gas industry.

## References

1. El Ela Ma. (2013). Complete and cost-effective approach for diagnosing formation damage and performing successful stimulation operations. Journal of Petroleum Science Research 2(2), p.64-73.
2. Nasiri A, Ghaffarkhah A, Keshavarz Moraveji M, Gharbanian A, Valizadeh M. (2017). Experimental and field test analysis of different loss control materials for combating lost circulation in bentonite mud. Journal of Natural Gas Science and Engineering 44, p.1-8.
3. Shad S, Salmanpour S, Zamani H, Zivar D (2021) Dynamic analysis of mud loss during overbalanced drilling operation: an experimental study, p.4-7.
4. Taheri, K, Ansari, A, Kaveh, F. (2021). Determination of petrophysical parameters of reservoir rock with a special look to shale effect Petroleum Engineering Journal 5(2), p.1-9.
5. Shu, Y., Yan, J. (2008). Characterization and prevention of formation damagefor fractured carbonate reservoir formations with low permeability. Petroleum Science 5(4), p.326-333.

Received: 04.03.2023 Accepted: 18.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/205-209

**Həmid Musayev**
Azərbaycan Texniki Universiteti
magistrant
hemidvsmusayev@gmail.com
**Məhəmmədəli Əzimov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
azimovmehemmedeli@gmail.com
**Röya Quliyeva**
Azərbaycan Texniki Universiteti
magistrant
royaguliyeva762@gmail.com

# GPON (GİQABİT PASSİV OPTİK ŞƏBƏKƏLƏR) SİSTEMLƏRİNİN TƏDQİQİ

**Xülasə**

Bu məqalədə GPON (Giqabit Passive Optical Network) haqqında məlumatlar verilmişdir, onun işləmə prinsipi detallı şəkildə qeyd olunmuş və diaqramlar vasitəsi ilə ətraflı izah olunmuşdur. GPON texnologiyalarının komponentləri sadalanmış onlar haqqında ayrı ayrılıqda izahatlar verilmişdir. İşləmə prinsipi haqqında izahat verildikdən sonra məqalədə GPON texnologiyasının üstün və mənfi cəhətləri sadalanmışdır. Məqalədə bu texnologiyanın qurulması üçün istifadə olunan texniki qurğuların iş prinsipi izah olunmuşdur. Optik şəbəkə terminalları, optik bölücülər, məlumatların ötürülməsi prosesi kimi vacib məsələlər qeyd olunmuş və izatahatlar verilmişdir. Daha sonra məqalədə GPON sistemlərin üstün və mənfi cəhətləri sadalanmış, müasir internet şəbəkələri qurulan zaman nə üçün bu sistemlər üzərində qurulmasının daha məqsədəuyğun hesab edildiyi tədqiq edilmişdir.

***Açar sözlər:*** *GPON, WDM, PON, ONU, ONT, OLT, optik bölücü, optik ötürücü xətt*

**Hamid Musayev**
Azerbaijan Technical University
master student
hemidvsmusayev@gmail.com
**Mahammadali Azimov**
Azerbaijan State Oil and Industrial University
master student
azimovmehemmedeli@gmail.com
**Roya Guliyeva**
Azerbaijan Technical University
master student
royaguliyeva762@gmail.com

## Analysis of GPON (Gigabit Passive Optical Networks) systems

**Abstract**

This article provides information about GPON (Gigabit Passive Optical Network), its working principle is mentioned in detail and explained in detail with the help of diagrams. The components of GPON technologies are listed and explained separately. After explaining the principle of operation, the article lists the pros and cons of GPON technology. The working principle of the technical devices used for the construction of this technology is explained in the article. Important issues such as optical network terminals, optical splitters, data transmission process are mentioned

and explained. Later, in the article, the advantages and disadvantages of GPON systems are listed, and why it is considered more appropriate to build on these systems when modern internet networks are built.

***Keywords:*** *GPON, WDM, PON, ONU, ONT, OLT, optical splitter, optical transmission line*

## Giriş

GPON Passiv Optik Şəbəkənin (PON) aparıcı standartıdır. PON fiber optik kabel vasitəsi ilə son istifadəçiyə genişzolaqlı çıxışı təmin edən bir nöqtədən - çox nöqtəli çıxışlı şəbəkə texnologiyasıdır. Burada, GPON - da 'Giqabit' termini onun təmin etdiyi maksimum sürəti ifadə edir ki, bu da adətən 2.488 Gbps aşağı axın (downstream) və 1.244 Gbps yuxarı axındır (upstream). Nəzərə alsaq ki, bu diapazon genişliyi son istifadəçilər arasında bölünür, onda bir istfadəçi üçün adətən 10 Mbps - dən başlayan genişzolaqlı giriş sürəti əldə edilir. Digər tərəfdən, GPON – da 'Passiv' sözü optik lif şəbəkəsinin yolundakı heç bir elektriklə işləyən avadanlıqdan asılı olmadığını bildirir (Saleh, 2016: 10).

Bu gün GPON texnologiyası standart mis kabel şəbəkəsindən demək olar ki, 95% daha çox enerjiyə qənaət edən optik lifli əlaqənin ən geniş yayılmış növü olduğunu sübut etmişdir. Bundan əlavə, GPON bir lifdə 1:64 nisbətinə malikdir. Bunun mənası odur ki, GPON-da bir fiber kabel 64 - ə qədər son istifadəçiyə video, məlumat və səs çatdıra bilər. Bu, onu səmərəli və sərfəli optik şəbəkə standartına çevirir, çünki GPON fiber optik şəbəkədə lif axınının sayını azaldır.

Diqqət çəkən başqa bir GPON xüsusiyyəti də eyni şəbəkədə səs və məlumat trafikini inteqrasiya etmək üçün Asinxron Ötürmə Modu (ATM) kodlaşdırmasının istifadəsidir. Nəhayət, GPON bu gün daha yüksək məlumat sürətlərində, daha böyük həcmdə və daha uzun məsafələrdə təhlükəsiz şəkildə multi xidmətlər (Məlumat, IPTV, VoIP) təqdim etməkdə son dərəcə faydalıdır. GPON həmçinin bütün növ Ethernet protokollarını dəstəkləyir (Effenberger, 2007: 55).

**GPON sistemlərin tədqiqi**. GPON sistemlərində yuxarı axında hər istifadəçi üçün vaxt aralıqları ayrılır. Hər istifadəçi özünə aid olan vaxt aralığından istifadə edərək məlumatları optik bölücüyə, optik bölücü isə OLT optik xətt terminalına göndərir (şəkil 1) (3).




**Şəkil 1. Yuxarı axın**




**Şəkil 2. Aşağı axın**

Aşağı axında isə OLT aralıqsız olaraq məlumat paketlərini optik bölücüyə göndərir. Optik bölücü bu məlumat paketlərini ONU (Optical Network Unit) optik şəbəkə cihazına göndərir. ONU qəbul edilmiş paketi filterdən keçirir və sadəcə istifadəçiyə aid olan paketləri saxlayır. Digər lazım olmayan paketləri isə kanaldan kənarlaşdırır (şəkil 2) (3).

GPON - un işinin açarı onun nöqtədən çox nöqtəyə çıxışlı fiber optik şəbəkə topologiyasındadır. GPON üç əsas elementdən ibarətdir:

- OLT (Optik Xətt Terminalları)
- ONU (Optik Şəbəkə Cihazı)
- Passive Optical Splitter (passiv optik bölücü)

Burada passiv optik bölücü, adətən siqnalı 64-ə qədər istifadəçiyə böldüyü üçün internet provayderini bir neçə son istifadəçiyə birləşdirən yalnız bir fiber optik kabeldən istifadə etməyə imkan verir (Alter, 2010: 11).

Optik Xətt Terminalı optik dalğa uzunluğunun bölünməsi (WDM) Wavelength Division Multiplexing adlanan proses vasitəsilə məlumatları optik siqnallar şəklində göndərir. OLT adətən ISP (Internet Service Provider) - dir və GPON - un başlanğıc nöqtəsi hesab edilə bilər.

Siqnal optik paylama şəbəkəsi (ODN) üzərindən tək uzunluqlu lif boyunca yayılır və sonunda passiv splitterə çatır. GPON fiber şəbəkəsi 20 k-ə qədər məsafələrə çata bilər (Alter, 2010: 14).

Passiv GPON splitter optik siqnalı qəbul edir və onu 64-ə qədər çoxlu siqnala bölür. Bu, nöqtədən çox nöqtəyə çıxışı təmin edir və beləliklə, 64-ə qədər lif bağlantısını təmin edir.

Ən sonda, bölünmüş optik siqnallar fərdi ONT - yə çatır.




**Şəkil 3. GPON komponentləri**

GPON-da fərdi komponentlərin funksionallığı haqqında daha çox məlumat əldə etməyin vaxtı gəldi. (şəkil 3) GPON standartı PON şəbəkələri üçün G.984 ITU-T tövsiyəsi ilə müəyyən edilir. Onun dörd əsas komponenti var (Salihovic, 2007: 679).

*Optik xətt terminalı* - OLT Giqabit Passiv Optik Şəbəkəsinin şəbəkə meneceri kimi adlandırıla bilər. Onun rolu qəbuledicinin sonunda ONT - yə video, məlumat və səsli optik siqnalları göndərmək və qəbul etməkdir. OLT video üçün 1550 nm və səs və məlumat üçün 1490 nm-də aşağı axın optik siqnalları göndərir, halbuki 1310 nm-də yuxarı optik siqnalları qəbul edir. Bu müdaxilənin qarşısını alır. GPON OLT xidmət təminatçısının sonunda, yəni adətən məlumat mərkəzində mövcuddur. GPON ONT kimi, OLT də qəbul edilmiş optik siqnalları elektrik siqnallarına çevirir. O, magistral kabel vasitəsilə optik splitterə qoşulur (Salihovic, 2007: 682).

*Fiber Optik Bölücü* - Optik lif ayırıcı, bir fiber optik kabelin budaqlanan və son istifadəçi binalarında fərdi OLT – lərə qoşulan çoxsaylı tək lifli optik liflərə bölünməsinə imkan verən passiv komponentdir. GPON splitter tez - tez tələb olunan çıxışların sayından asılı olaraq 1:64, 1:32, 1:16, 1:8, 1:4 ola bilən müəyyən bölünmə nisbətinə malikdir. Belə bir splitter, siqnalların, məsələn, 64 son istifadəçiyə böləndüyü yerlərdə mərkəzləşdirilmiş parçalanma üçün və ya daha çox budaqlanmış şəbəkə üçün splitterin xətt üzrə digər splitterlərə qoşulduğu yerlərdə kaskad parçalanması üçün istifadə edilə bilər.

*Optik Şəbəkə Terminalı* – GPON-un istifadəçi son nöqtəsi ONT, yəni Optik Şəbəkə Terminalıdır. Bu, son istifadəçinin binalarında optik siqnalları elektrik siqnallarına çevirmək üçün ixtisaslaşmış modemdir. Beləliklə, o, WiFi, televizorlar, masaüstü kompüterlər və s. kimi

avadanlıqlar üçün genişzolaqlı girişə imkan verir. ONT həmçinin son istifadəçidən toplanmış və optimallaşdırılmış məlumatları yenidən OLT - yə göndərir.




**Şəkil 4. Bitmə nöqtəsi**

**Nəticə**

GPON, qiymətinin sərfəliliyi və fiber-optik kabel sistemlərini daha əlverişli hala gətirdiyi üçün, populyarlıq qazanır. 2021-ci ildə GPON üçün qlobal bazarın həcmi 10 milyard ABŞ dolları həcmində qiymətləndirilir, 2028-ci ilə qədər 30 milyard ABŞ dollarına yüksələcəyi proqnozlaşdırılır. 2021-ci ildə də qlobal miqyasda 250 milyondan çox GPON məhsulu tədarük edilib.

İntensiv bant genişliyi tələb edən tətbiqlərin artması, ağıllı şəhərlər, IoT texnologiyalar və 5G-nin yayılması və s. kimi amillər GPON və onun NG-PON2 kimi qarşıdan gələn təkmilləşdirmələrinin getdikcə tətbiqlərinin artacağını göstərir.

Giqabit Passiv Optik Şəbəkəsinin bu populyarlığı bir sıra üstünlüklərə əsaslanır (6).

**Enerjiyə qənaət edən**: Passiv sistem olaraq, GPON işləmək üçün çox az elektrik istifadə edir. O, həmçinin mis şəbəkələrdən 95% daha çox enerji qənaətlidir.

**Əlverişli**: Əvvəlki nöqtədən birbaşa nəticə çıxararaq, GPON işləmək üçün az güc tələb edir və beləliklə əməliyyat xərclərini azaldır. O, həmçinin çox İT dəstəyi tələb etmir - xərclərin əhəmiyyətli dərəcədə azaldıla biləcəyi başqa bir sahə. Splitter texnologiyasından istifadə edərək birbaşa çoxsaylı müştərilərə qoşula bilən optik lifli sistem kimi GPON daha az avadanlıq tələb edir və bu, onu yüksək səmərəli və sərfəli həll yolu edir.

**Yüksək sürətli**: Sürət müasir istehlakçılar və biznes üçün əhəmiyyətli tələbat olmaqla, GPON optik şəbəkə üçün 40 Gbps ötürmə qabiliyyəti ilə yanaşı abunəçi başına 10/10 Gbps - ə qədər trafikin idarə olunmasını təmin edir.

**Təhlükəsiz**: GPON xakerləri kənarda saxlamaq üçün Qabaqcıl Şifrələmə Standartından istifadə edir. O, həmçinin qapalı dövrədir və optik lif siqnalları təcrid olunur, bu da onu çox təhlükəsiz optik lif şəbəkəsinə çevirir.

**Stabil**: GPON-un üstünlüyü onun tıxaclı ərazilərdə və sıx trafik tələbatında belə etibarlı və dayanıqlı olmasıdır. O, hər zaman son istifadəçilərə minimum bant genişliyini təmin edir və beləliklə, optik splitterlərin istifadəsi ilə sabit əlaqəni təmin edir. O, həmçinin fiber optiklərə xas təbiətinə görə elektromaqnit və ya radio müdaxiləsindən azaddır.

GPON texnologiyasının faydalı olmasına baxmayaraq, onun bəzi çatışmazlıqları da var.

GPON texnologiyasının bir dezavantajı fiber optik kabellərin əyilmə, bükülmə və ya qırılmaya həssaslığından irəli gəlir. Fiber optik kabellər belə fiziki təhriflərə çox həssasdır. Əgər onlar lazımi

oriyentasiya və mühafizə olmadan quraşdırılıbsa, onlar performansın azalmasına və ya xəttin pozulmasına meylli ola bilərlər.

Bunlara baxmayaraq GPON bütün dünyada xidmət təminatçıları və son istifadəçilər tərəfindən bəyənilməkdə davam edir. Bu, dünyada təkcə ən mürəkkəb deyil, həm də ən etibarlı, qənaətcil və quraşdırması ən asan fiber optik kabel texnologiyasıdır və bu hipersürətli qoşulma əsrində fərq yaratmağa davam edəcəkdir.

**Ədəbiyyat**

1. Saleh, A. (2016). FTTH Access Network Based on GPON. National Telecommuunication Institute, October.
2. Effenberger, F. (2007). An Introduction to PON Technologies. IEEE Communications Magazine, March.
3. https://www.stl.tech/blog/everything-about-gpon-gigabit-passive-optical-network/
4. Alter, C. (2010). GPON in FTTx Broadband Deployments. October.
5. Salihovic, A. (2007). Gigabit Passive Optical Network – GPON.
6. https://koreajob.ru/en/dostoinstva-i-nedostatki-tehnologii-gpon-osnovnye-harakteristiki-opisanie-tehnologii-gpon-tehnol/

Göndərildi: 13.02.2023 Qəbul edildi: 29.03.2023

DOI: https://doi.org/10.36719/2789-6919/20/210-212

**Tacir Alıyev**
Azərbaycan Texniki Universiteti
magistrant
aliyevtacir041@gmail.com

# SOSİAL ŞƏBƏKƏLƏRDƏ OLAN TƏHLÜKƏLƏR VƏ ONLARDAN QORUNMA ÜSULLARI

**Xülasə**

Hal-hazırda İnternetdə bir çox sosial şəbəkələr var. Bu sosial şəbəkələr günümüzdə çox məşhurdur və insanların həyatında mühüm rol oynayır. Bunula belə, sosial şəbəkələr informasiya təhlükəsizliyi sahəsində bir çox yeni risklərin yaranmışdır. Bu risklərə misal olaraq bir neçə ziyanlı proqramların və spamların genişlənməsi, sosial mühəndislik və sosial şəbəkə hesablarına naməlum şəxslərin hücumlarının həyata keçirilməsi, müşahidə, mövqeydən yayındırma və s. kimi bir çox təhlükələr uyğun gəlir.

***Açar sözlər:*** *sosial şəbəkə, informasiya təhlükəsizliyi, ziyanlı proqram, spam, informasiya mübadiləsi, hesab, istifadəçi*

**Tajir Aliyev**
Azerbaijan Technical University
master sudent
aliyevtacir041@gmail.com

## Dangers in social networks and methods of protection from them

**Abstract**

Currently, there are many social networks on the internet. These social networks are very popular today and play an important role in people's lives. However, social networks have created many new risks in the field of information security. Examples of these risks include the proliferation of several malicious programs and spam, social engineering and attacks by unkown individuals on social network accounts, surveillance, diversion, etc. as many hazards are compatible.

***Keywords:*** *social network, information security, malware, spam, information exchange, account, user*

## Giriş

Artıq İnternet insanlar arasında əsas qlobal kommunikasiya və informasiya mübadiləsi vasitəsinə çevrilmişdir. Web 2.0 texnologiyasının yaranması və sürətli inkişafı İnternetin imkanlarını əhəmiyyətli dərəcədə artırmış və insanlara coğrafi yerləşmələrindən asılı olmayaraq sosial şəbəkələrə qoşulmaq imkanı yaratmışdır. Ümumiyyətlə, sosial şəbəkələrin sürətlə inkişaf etməsi və geniş vüsət alması onu Web 2.0 texnologiyasının əsas elementlərindən birinə çevirmişdir.

**Sosial şəbəkə**. Sosial şəbəkələr insanlara bir-biri ilə əlaqə yaratmağa və informasiya mübadiləsi etməyə imkan verən bir xidmət növüdür. Hal-hazırda İnternetdə Facebook, İnstagram, Whatsapp, Twitter, Linkedin və s. kimi çoxlu sayda sosial şəbəkələr mövcuddur. Bu sosial şəbəkələr gündən-günə populyarlaşır və cəmiyyətin həyatında çox vacib bir rol oynayır. İstifadəçi maraqlarından asılı olaraq, müxtəlif xüsusiləşdirilmiş sosial qruplar - məsələn, istifadəçilərə işgüzar əlaqələr yaratmağa və iş təklif etməyə imkan verən LinkedIn və Xing kimi biznesyönümlü bir çox şəbəkələr yaradılmışdır. Bəzi sosial şəbəkələr isə sadəcə insanlar arasında ünsiyyət yaratmaq üçün nəzərdə tutulmuşdur və virtual görüş üçün mühit rolunu oynayır. Bununla belə, sosial şəbəkələr istifadəçilərin şəxşi həyatının toxunulmazlığı və informasiya təhlükəsizliyi ilə bağlı çoxlu sayda

yeni problemlər yaradır. Yəni sosial şəbəkələrin yaranması İnternet mühitində təhlükəsizlik risklərinin daha çox artmasına gətirib çıxarmışdır. Bu risklərə bir neçə ziyanlı proqramların və spamların yayılması, sosial mühəndislik və sosial şəbəkə hesablarına hakerlər tərəfindən hücumların həyata keçirilməsi, eləcə də, izləmə, aldatma, şantaj, qarayaxma və s. kimi müxtəlif aspektli təhlükələr aiddir. Göstərilən təhlükələrlə yanaşı, sosial şəbəkə istifadəçilərin məqsədlərindən asılı olaraq, milli təhlükəsizliyə də bir sıra təhlükələr yaratmaq imkanı ola bilər (1, s. 189-192).

Digər tərəfdən, son zamanlar sosial şəbəkə istifadəçilərinin sayı həddindən artıq çoxalmış və artıq təxminən iki milyard nəfəri keçmişdir. Proqnozlara görə, 2018-ci ildə sosial şəbəkə istifadəçilərinin sayı 2,5 milyard nəfərə çatıb (2). Sosial şəbəkələrdən belə kütləvi şəkildə istifadə və istifadəçilər tərəfindən böyük həcmdə informasiya generasiya edilməsi onları bədniyyətlilərin, bəzi cinayətkarların hücum obyektinə çevirmişdir. Sosial şəbəkələr bədniyyətlilər tərəfindən spamların (3, s 1-9) yayılmasından başlayaraq, fərdi fişinq (4) hücumlarına qədər müxtəlif növ hücumların həyata keçirilməsi üçün əlverişli bir platforma kimi hal-hazırda istifadə edilir. Təbii ki, belə bir şəraitdə İnternet mühitində informasiya təhlükəsizliyinin və insanların sosial şəbəkələrdən təhlükəsiz istifadə etməsinin təmin edilməsi çox aktual bir məsələyə çevrilmişdir.

**Sosial şəbəkələrə olunan hücumlar.** Sosial şəbəkələrdə təhlükəsizlik, əsasən, istifadəçilərin fərdi məlumatlarının bədniyyətlilərin əməllərindən mühafizə edilməsi məsələlərini əhatə edir. Bunun üçün sosial şəbəkə istifadəçiləri onların fərdi məlumatları ilə bağlı müxtəlif risklərdən və təhlükələrdən xəbərdar olmalıdırlar.

Sosial şəbəkələrdə baş verə biləcək təhlükələri dörd qrupa ayırmaq olar. Birinci qrupa ənənəvi təhlükələr, xüsusi ilə də, şəxsi həyatın toxunulmazlığı və təhlükəsizliklə bağlı təhdidlər aiddir. Bu təhlükələr təkcə sosial şəbəkə istifadəçilərinə deyil, həmçinin sosial şəbəkədən istifadə etməyən digər İnternet istifadəçilərinə təhlükə yaradır. İkinci qrup şəxşi həyatının toxunulmazlığı və təhlükəsizliklə bağlı müasir təhdidləri əhatə edir. Bu təhlükələr, əsasən, sosial şəbəkə mühitinə xasdır və sosial şəbəkə infrastrukturundan istifadə edərək istifadəçilərin şəxsi həyatının toxunulmazlığına və təhlükəsizliyinə təhdidlər yaradır. Üçüncü qrupa müxtəlif təhlükələrin kombinasiyası daxildir, yəni müxtəlif təhlükələrin birləşməsi nəticəsində daha mürəkkəb və təhlükəli hücumlar həyata keçirilə bilər. Dördüncü qrupa sosial aspekli təhlükələr aiddir. Bu təhlükələrə misal kimi, izləmə, aldatma, şantaj, qarayaxma və s. kimi təhdidləri göstərmək olar.

**Sosial şəbəkələrdə təhlükələrdən qorunma üsulları.** Son zamanlar sosial şəbəkələrdə təhlükələrdən qorunmaq üçün bir çox müxtəlif həllər təklif edilmişdir. Bu həllər müxtəlif səviyyələri, yəni sosial şəbəkə operatorları, bəzi təhlükəsizlik şirkətləri və elmi tədqiqatçıların təkliflərini əhatə edir.

Sosial şəbəkə operatorları öz istifadəçilərinin təhlükəsizliyini təmin etmək üçün çoxlu sayda müxtəlif təhlükəsizlik tədbirlərini həyata keçirirlər. Məsələn, istifadəçilərin autentifikasiyası mexanizmlərindən və fərdi məlumatların tənzimləmələri kimi tədbirlərdən istifadə edilir.

Autentifikasiya mexanizmləri sosial şəbəkə istifadəçilərinin sosial botlar və ya nüfuzdan salınmış istifadəçi hesabları deyil, həqiqətən, real insanlar olduğuna əmin olmaq üçün yoxlanış prosesidir. Yəni autentifikasiya sosial şəbəkələrdə real insanların qeydiyyatdan keçdiyinə və şəbəkəyə daxil olduğuna əmin olmaq üçün imkan verir.

Sosial şəbəkələrin əksəriyyəti istifadəçilərə öz fərdi məlumatlarının tənzimlənməsi üçün şərait yaradır. Bu da istifadəçilərə öz şəxsi məlumatlarını digər istifadəçilərdən mühafizə etmək üçün imkanlar verir (5, 6). Məsələn, Facebook istifadəçiləri öz fərdi məlumatlarını tənzimləmək bəzi imkanları var və onlara baxmağa icazəni istifadəçi özü idarə edə bilər, yəni bu və ya digər şəkillərə, məlumatlara və digər şəxsi məlumatlara baxa biləcək istifadəçi kateqoriyalarını özləri (“dostlar”, “dostlarin dostları” və “hər bir kəs”) müəyyən edə bilər (7). Bəzi sosial şəbəkə operatorları istifadəçilərə bəzi əlavə təhlükəsizlik konfiqurasiyalarını həyata keçirməyə imkan verir. Bu konfiqurasiyalar istifadəçilərə öz fərdi məlumatlarına təhlükəsiz baxışı aktivləşdirməyə, hesabına giriş haqqında bildirişlər almağa və digər təhlükəsizlik funksiyalarını təyin etmək üçün bəzi imkanlar verir (8). Bununla belə, bir çox istifadəçilər fərdi məlumatlarının təhlükəsizliyinin

tənzimlənməsi parametrlərini o qədər də yaxşı idarə edə bilmirlər və öz şəxsi məlumatlarını təhlükə qarşısında qoyurlar (9).

Sosial şəbəkələrdə təhlükələrdən qorunmaq üçün elmi tədqiqatçılar tərəfindən təklif olunmuş bir çox həllər müxtəlif sosial şəbəkə təhlükələrinin tədqiqinə əsaslanır. Bu həllər, əsasən, bədniyyətli istifadəçilərin və ziyanlı tətbiqlərin aşkarlanmasına yönəlmiş həllərdir. Təklif edilmiş həllər sosial şəbəkə operatorları tərəfindən istifadəçilərin şəxsi həyatının toxunulmazlığının təmin edilməsi üçün istifadə edilir.

Demək olar ki, hal-hazırda sosial şəbəkələr insanların gündəlik həyatının bir hissəsinə çevrilmişdir. Beləliklə, əksər İnternet istifadəçiləri onlayn fəallığa sərf etdikləri vaxtın bir çox hissəsini sosial şəbəkələrdə keçirirlər. Sosial şəbəkələr vasitəsi ilə insanlar bir-biri ilə əlaqə yaradır, bir çox informasiya (məlumat, şəkil və video) və təcrübələrini bölüşürlər. Bununla yanaşı, sosial şəbəkələrdə çoxlu sayda müxtəlif təhlükələr mövcuddur. Hakerlər, dələduzlar və s. sosial şəbəkələri yeni "qurbanların" tapılması və öz bəd əməllərinin həyata keçirilməsi üçün bəzən vasitə kimi istifadə edirlər. Buna görə də sosial şəbəkələrdə mövcud olan təhlükələrin və onlardan mühafizə üsullarının analizi günümüzdə çox aktualdır.

## Nəticə

Məqalədə sosial şəbəkələrdə mövcud olan təhlükələr və onlardan mühafizə üsulları analiz edilmişdir. Analizin nəticəsində belə nəticəyə gəlmək olar ki, sosial şəbəkələrdə mövcud olan təhlükələr faktiki olaraq iki kateqoriyaya aiddirlər: ənənəvi informasiya təhlükəsizliyi təhdidləri və sosial aspektli təhdidlər. Onu da qeyd etmək lazımdır ki, bu və ya digər təhlükənin hansı kateqoriyaya aid olmasından asılı olmayaraq, onlar, əsasən, sosial şəbəkə istifadəçilərinin şəxsi həyatının toxunulmazlığının pozulmasına yönəlmişdir. Demək olar ki, insanların social şəbəkələrdə, yəni virtual dünyada şəxsi həyatının toxunulmazlığının pozulması onların real həyatına birbaşa əks olunur.

## Ədəbiyyat

1. İmamverdiyev, Y. (2015). Sosial media və təhlükəsizlik problemləri. Beynəlxalq Telekommunikasiya İttifaqının 150 illiyinə həsr olunmuş İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II Respublika elmi-praktiki konfransı, s.189-192.
2. http://www.statista.com/topics/1164/social-networks/
3. Stringhini, G., Kruegel, C., Vigna, G. (2010). Detecting spammers on social networks. Proc. of the 26th annual computer security applications conference, p.1-9.
4. Jacoby D., Facebook security phishing attack in the wild, https://securelist.com/blog/events/31951/facebook-security-phishing-attack-in-the-wild-14
5. Liu, Y., Gummadi, K., Krishnamurthy, B., Mislove, A. (2011). Analyzing facebook privacy settings: User expectations vs. reality. Proc. of the ACM SIGCOMM conference on Internet measurement conference, p.61-70.
6. Mahmood, S., Desmedt, Y. (2011). Poster: Preliminary analysis of google+'s privacy. Proc. of the 18th ACM conference on Computer and communications security, p.809-812.
7. Facebook, Facebook Help Center: Privacy, http://www.facebook.com/help/privacy
8. Axten, S. Staying in control of your facebook logins, https://www.facebook.com/notes/facebook/staying-in-control-of-your-facebook-logins/389991097130
9. Fire, M., Kagan, D., Elyashar, A., Elovici, Y. (2014). Friend or foe? Fake profile identification in online social networks. Springer journal of social network analysis and mining, vol.4 No.1, p.194-216.
10. Symantec, Norton Safe Web: https://www.facebook.com/appcenter/nortonsafeweb

Göndərildi: 10.02.2023 Qəbul edildi: 19.04.2023

## İÇİNDƏKİLƏR

### HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES

**Raibə Cəfərova**
Ümummilli lider Heydər Əliyev və Azərbaycan energetikası ……………………………………..7
**Rəsul Teymurov**
Teatr və tamaşaçı tənqid sferasında ……………………………………………………………...10
**Fuad Məmmədov**
Bakı xanı Hüseyn-Qulu xanın Çar Rusiyası ilə münasibəti ……………………………………..13
**Könül Seyidova**
Mifoloji ünsürlərin "Gecənin əfsanəsi" poemasında rolu ……………………………………....17
**İnci Mehdizadə**
Seyid Əzim Şirvaninin maarifçi görüşləri ……………………………………………………....20
**Musa Kazımlı**
XI-XIII əsrlərdə qıpçaq - gürcü münasibətləri ……………………………………………………..23
**Hüseyn Paşazadə**
Əlavə dəyər vergisinin tətbiq olunduğu ölkələrdə spesifik xüsusiyyətlər: müqayisəli təhlil ……....27
**Rəşad Bəhramlı**
Müqavilənin standart şərtləri ……………………………………………………………………….31
**Zamina Hasanli**
How fintechs can address aml challenges …………………………………………………………35
**Xatirə Məmmədova**
Beynəlxalq turizm münasibətlərinin tənzimlənməsinin prinsipləri ………………………………...38
**Khazar Musayev**
The role of industry in economic development …………………………………………….........41
**Xırdaxanım Əliyeva**
Xalq rəssamı Xanlar Əhmədovun yaradıcılığına baxış ……………………………………….........46
**Sənəm Alıyeva**
Dilçilikdə üslub anlayışı ………………………………………………………………………........50
**Rövzə Şaməmmədli**
Turizm sferasında informasiya texnologiyalarının tətbiqi əsasları ………………………………...53
**Orxan Quluzadə**
Biznes fəaliyyətində uğurlu strategiyalar ……………………………………………………......57
**Ayaz Teymurov**
Ensuring security during the carriage of passengers by air in the territory
of the European union ……………………………………………………………………….......61
**Mehin Əlihüseynli**
Beynəlxalq hava daşımalarının hüquqi tənzimlənməsinin vəziyyəti və xüsusiyyətləri ……….......64
**Farid Huseynov**
Legal regulation of the arbitration institution in the national legislation ……………………….....69
**Nargiz Talibli**
The history of mortgage ……………………………………………………………………………74
**Seyidfatima Rahimova**
The doctrine of separability and the interaction between the main contract
and the arbitration agreement ………………………………………....…………………….....77
**Əli Rəhimov**
ABŞ-ın Latın Amerikasına xarici müdaxiləsi …………………………………………….........81

**Sadig Shafiyev**
The business case for human rights due diligence:
Mitigating risks and enhancing brand reputation ……………………………………………………..85
**Zamina Hasanli**
FATF recommendations as a major tool for AML ……………………………………………...91
**Aytac Almәmmәdova**
Azәrbaycan Respublikasının dünya ticarәt tәşkilatına üzvlüyünün
hüquqi aspektdәn qiymәtlәndirilmәsi ………………………………………………………...94
**Bәkir İsmayılov**
Transgender fәrdlәrin idman yarışlarında iştirakının hüquqi tәnzimlәnmәsi ……………………..98
**Tural Әhmәdli**
Korrupsiyaya qarşi mübarizәdә beynәlxalq tәşkilatların rolu ……………………………………103
**Rakhshanda Seyidzade**
General form of multistep methods and some comparisons of the volterra integral
equation applied to the solution of the initial problem for first-order odes ……………………....107
**Aysun Badalova**
The advantages and disadvantages of mediation process …………………………………….....111
**Fidan Sәfәrli**
Azәrbaycan Respublikasının vәtәndaşlığı, Azәrbaycan Respublikasının vәtәndaşlıq
haqqında qanunvericiliyindә vәtәndaşlığın әldә edilmәsi vә xitamı üçün әsaslar ....……………..114
**Rәşad Bәhramlı**
Müqavilәnin bağlanılması. Oferta vә aksept ……………………………………………………...118
**Gunay Mammadli**
Pilot judgment procedure of the European Court of human rights ……………………………....121
**Püstәxanım Kәrimova**
İqtisadi әmәkdaşlıq vә inkişaf tәşkilatının "Gәlir vә әmlak üzrә ikiqat vergitutmanın
aradan qaldırılması" üzrә model konvensiyasının inkişaf tarixi …………………………………124
**Sadig Shafiyev**
Navigating ethical complexities: strategies for implementing human rights
due diligence in global supply chains ……………………………………………………………..128
**Mehriban Huseynli**
Preserving european past for the future: measures to combat
the illegal trade of movable ……………………………………………………………………132
**Farid Huseynov**
The process of monitoring the implementation of international and local
arbitration agreements …………………………………………………………………………135
**Kamran Ismayilov**
The influence of business events on the development of tourism industry ………………………140
**Fuad Әlizadә**
Rәqәmsal valyutanın iqtisadi vә hüquqi tәnzimlәnmәsindә Mәrkәzi Bankların rolu ……….......143
**Sabina Ahmadzadeh**
Principles and criteria for determining arbitration cases ……………………………………….....148
**Nәrgiz Talıblı**
İpoteka bankçılığı ilә bağlı risklәr …………………………………………………………………...151
**Aysun Badalova**
The essence of the settlement agreement concluded in the mediation process …………………...156
**Rövzә Şamәmmәdli**
Müasir informasiya texnologiyalarının hüquqi bazasının tәhlili …………………………………159
**Firuzә Bağırova**
Pedaqoji ünsiyyәt, onun sosial-psixoloji mexanizmlәri
vә müәllim-şagird münasibәtlәri ……………………………………………………………………164

**Məlahət Əsədova**
Marketinq konsepsiyaları …………………………………………………………………....168

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Vəfa Gözəlzadə**
**Sara Paşayeva**
**Nazilə Hüseynova**
**Könül Hüseynquliyeva**
**Şəhanə Quliyeva**
Olanzapinin kimyəvi-toksikoloji analizi ……………………………………………………171

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Həmid Musayev**
**Mirsadiq Sadıqov**
**Röya Quliyeva**
Ağıllı ev sistemləri ……………………………………………………………………..175
**Tacir Alıyev**
Sosial mühəndislik hücumları ………………………………………………………........179
**Nurlan Arifzadə**
**Məhəmmədəli Əzimov**
**Həmid Musayev**
İoT tətbiq sahələri və təhlükəsizlik məsələləri …………………………………………....183
**Nadir Rəhimov**
**Qorqud Niyazlı**
Şirkətdəki informasiya resurslarının qorunması ……………………………………………..188
**Mahammadali Azimov**
**Nurlan Arifzade**
**Gorgud Niyazli**
**Minaya Samadzada**
Computer vision in recognition of car and container numbers …………………………...192
**Atakişi Göyüşov**
**Nübiyyə Sarxanzadə**
Obyektin trayektoriyasını hesablayan proqram təminatı haqqında …………………….....197
**Aliagha Shukurlu**
Preventing formation damage and optimizing production rates in the oil
and gas industry: a study on the effectiveness of non-invasive fluids and mixed metal
hydroxides in controlling fluid loss during drilling operations …………………………...201
**Həmid Musayev**
**Məhəmmədəli Əzimov**
**Röya Quliyeva**
GPON (Giqabit Passiv Optik Şəbəkələr) sistemlərinin tədqiqi ……………………………...205
**Tacir Alıyev**
Sosial şəbəkələrdə olan təhlükələr və onlardan qorunma üsulları ………………………...210

İmzalandı: 27.04.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 27 ç.v.
Sifariş: 633

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az